| **ədliyyə mayoru**<br>**Abdullayev Saleh Əhməd oğlu** | Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi |
| **kiçik ədliyyə müşaviri**<br>**Şəmşirli Şəmşir Cavid oğlu** | Bakı şəhər prokurorunun köməkçisi |
| **I dərəcəli hüquqşünas**<br>**Məmmədli Günay Hüseynxan qızı** | Bakı şəhər prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru |

| | |
|---|---|
| **kiçik ədliyyə müşaviri**<br>**Hüseynov Elşad Güloğlan oğlu** | Bakı şəhər prokurorluğunun Prokurorluqda istintaqa nəzarət şöbəsinin prokuroru |
| **I dərəcəli hüquqşünas**<br>**Qasımov Zaur Zahid oğlu** | Bakı şəhəri Sabunçu rayon prokurorluğunun müstəntiqi |
| **II dərəcəli hüquqşünas**<br>**Məmmədov Abdulla Elşad oğlu** | Yevlax rayon prokurorunun böyük köməkçisi vəzifəsini icra edən |
| **II dərəcəli hüquqşünas**<br>**Şabanov Valeh İxtiyar oğlu** | Zaqatala rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| **III dərəcəli hüquqşünas**<br>**Sadıqov Mirlətif Süleyman oğlu** | Biləsuvar rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| **III dərəcəli hüquqşünas**<br>**Mustafayev Hüseyn Hidayət oğlu** | Ağdam rayon prokurorunun köməkçisi |
| **III dərəcəli hüquqşünas**<br>**Musayev İlkin İlham oğlu** | Daşkəsən rayon prokurorluğunun müstəntiqi |
| **II dərəcəli hüquqşünas**<br>**Məmmədov Yaqub Mehman oğlu** | Füzuli rayon prokurorluğunun müstəntiqi |
| **III dərəcəli hüquqşünas**<br>**Maqsudov Tural Musa oğlu** | Gədəbəy rayon prokurorunun köməkçisi |
| **III dərəcəli hüquqşünas**<br>**Məmmədov Asif Məhərləm oğlu** | Xızı rayon prokurorluğunun müstəntiqi |
| **III dərəcəli hüquqşünas**<br>**Başirli Elvin Elçin oğlu** | Qax rayon prokurorunun köməkçisi |
| **III dərəcəli hüquqşünas**<br>**Fərəcov Şirxan Şirməmməd oğlu** | Lerik rayon prokurorunun köməkçisi |
| **ədliyyə baş leytenantı**<br>**Novruzzadə Elnur Elman oğlu** | Qarabağ hərbi prokurorluğunun müstəntiqi |
| **ədliyyə leytenantı**<br>**Mahmudlu İslam Zakir oğlu** | Füzuli hərbi prokurorluğunun müstəntiqi |

**7. Baş Prokurorluğun Kadrlar idarəsi (N.Rəcəbov), Təşkilat-analitik idarəsi (M.Sultanov) və Maddi-texniki təminat şöbəsi (N.Məmişov) tərəfindən bu əmrdən irəli gələn müvafiq təşkilati məsələlərin həlli təmin edilsin.**

**8. Əmr prokurorluq işçilərinə elan edilməsi üçün tabe prokurorluqlara göndərilsin.**

Əsas: təqdimatlar

**Zakir Qaralov,**
**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**

# Baş prokuror Zakir Qaralovun Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi və 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə prokurorluq orqanlarının işçilərinə, veteranlarına, onların ailə üzvlərinə, vəzifə başında həlak və şəhid olmuş həmkarların ailələrinə təbriki

**Hörmətli həmkarlar!**

Müasir tarixinin əlamətdar günlərindən birini yaşayan Azərbaycan Respublikası Prokurorluğunun kollektivi «1 Oktyabr prokurorluq işçilərinin peşə bayramı günü»nü və milli prokurorluq orqanlarının yaradılmasının 100-cü ildönümünü qeyd edir. Bu münasibətlə Baş Prokurorluğunun rəhbərliyi və Kollegiyası adından prokurorluq orqanlarının bütün əməkdaşlarını və veteranları, onların ailə üzvlərini, vəzifə başında həlak və şəhid olmuş həmkarlarımızın ailələrini səmimi qəlbdən təbrik edir, ailə xoşbəxtliyi və möhkəm can sağlığı, xidməti fəaliyyətinizdə və şəxsi həyatınızda uğurlar diləyirəm.

Müstəqil inkişaf tariximizin yaradıcısı və müasir Azərbaycan dövlətinin qurucusu Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilmiş hərtərəfli məhkəmə-hüquq islahatları nəticəsində mühüm dövlət təsisatı kimi tamamilə yenidən formalaşan, fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qayğısı sayəsində mütərəqqi standartlara uyğun şəkildə mütəmadi təkmilləşən Azərbaycan Prokurorluğu bu gün səlahiyyət hədləri daxilində xalqın və dövlətimizin maraqlarının müdafiə edilməsində, insan hüquq və azadlıqlarının qorunmasında öz xidmətlərini göstərir, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayır.

Azərbaycan Respublikası Prokurorluğunun son illər ərzində əldə etdiyi böyük nailiyyətlər ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi müdrik dövlət siyasətinin məntiqi nəticəsi, Heydər Əliyev dövlətçilik konsepsiyasının düzgünlüyünün göstəricisidir. Prokurorluq orqanlarının tarixində yeni təkmilləşmə və müasirləşmə dövrünün əsasını qoymuş Dövlət başçısının 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı» prokurorluğun inkişafı üçün mühüm olmuşdur.

Əminliklə bildirirəm ki, prokurorluq işçiləri onlara göstərilən etimadın məsuliyyətini dərindən dərk edərək, digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və təhlükəsizliyin, dövlətçiliyimizin cinayətkar qəsdlərdən qorunması, cinayətkarlığa qarşı mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işində yaxından iştirak edəcək, Heydər Əliyev ideyalarının gerçəkləşməsində ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən mütərəqqi islahatların reallaşdırılmasında əllərindən gələni əsirgəməyəcəklər.

**Zakir Qaralov,**
**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
27 sentyabr 2018-ci il

# Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi və 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri cənab Zakir Qaralovun ünvanına daxil olan təbrik məktubları

***Azərbaycan Respublikasının Baş prokuroru***
***I dərəcəli dövlət ədliyyə müşaviri***
***cənab Zakir Qaralova***

***Hörmətli Zakir müəllim,***

*Sizi və rəhbərlik etdiyiniz kollektivi 1 oktyabr – peşə bayramınız və Azərbaycan Prokurorluğunun 100 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ölkəmizdə qanunun aliliyiıiin, insan hüquq və azadlıqlarının etibarlı təmin olunması naminə gərəkli fəaliyyətinizdə uğurlar arzulayıram.*

*Əsası 1918-ci ildə qoyulan Azərbaycan Prokurorluğu şanlı və keşməkeşli yol keçmiş, bu mühüm dövlət təsisatının təkmil bir struktur kimi inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyev müstəqillik illərində prokurorluq orqanlarının fəaliyyətinə xüsusi diqqət göstərmişdir. Dahi öndərin 2000-ci il 26 aprel tarixli müşavirəsində proqram xarakterli çıxışı bu sahədə köklü islahatların təməlini qoymuş, prokurorluğun rəhbərliyi yenidən formalaşaraq, Sizə yüksək etimad göstərilmişdir.*

*Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən məhkəmə-hüquq islahatları nəticəsində prokurorluq orqanları prinsipiallığınız, qətiyyətiniz və tələbkarlığınız sayəsində müstəqil dövlətçiliyimizin maraqlarına xidmət edən, sivil və demokratik bir dövlət təsisatı kimi möhkəmlənmişdir.*

*Fəxrlə deyə bilərik ki, dövlətçiliyin sadiq keşikçisinə çevrilən Azərbaycan Prokurorluğu rəhbərliyinizlə ilbəil inkişaf edir, müasirləşir, qanunçuluğun möhkəmləndirilməsinə, hüquqi dövlət quruculuğuna, cinayətkarlıqla mübarizəyə dəyərli töhfələr verir, yeni-yeni nailiyyətlərlə prokurorluğun 100 illik tarixinə qədəm qoyur.*

*Dövlət başçısının güclü siyasi iradəsi ilə korrupsiyaya qarşı aparılan qəti mübarizə tədbirlərində və beynəlxalq antikorrupsiya mübarizəsində rəhbərlik etdiyiniz qurumun, həmçinin yüksək statusa və geniş səlahiyyətlərə malik olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin səmərəli fəaliyyəti, bir çox mötəbər beynəlxalq təşkilatlarla, o cümlədən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası ilə faydalı əməkdaşlığı və Beynəlxalq Antikorrupsiya Akademiyasında uğurlu sədrliyi böyük məmnunluq doğurur.*

*Dünya prokurorlarını birləşdirən yeganə təşkilat olan Beynəlxalq Prokurorlar Assosiasiyası ilə çox səmərəli əməkdaşlıq xüsusilə vurğulanmalıdır. Ölkəmiz uzun illərdir qurumun İcraiyyə Komitəsində, Senatında və fəxri üzvlər sırasında fəal təmsil olunur, Azərbaycan Prokurorluğu və onun rəhbərliyi dəfələrlə təşkilatın yüksək təltiflərinə layiq görülmüşdür.*

*Assosiasiyanın Bakıda uğurla keçirilmiş İcraiyyə Komitəsinin iclasları təşkilatın tarixində özünəməxsus yaddaqalan iz qoymuşdur. Qurumun sonuncu Konfransında Baş prokurorun müavininin Assosiasiyanın vitse- prezidenti vəzifəsinə seçilməsi hər birimizdə yüksək qürur hissləri yaşadır.*

*Ədalət mühakiməsinin həyata keçirilməsində mühüm rol oynayan prokurorluq orqanları tərəfindən ölkə başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı əməli tədbirlər görülür.*

*Məmnunluqla qeyd olunmalıdır ki, ədliyyə və prokurorluq orqanlarının səmimi sıx münasibətləri qarşımızda duran vəzifələrin layiqincə icrasına mühüm töhfələr verir, prokurorluğun hər bir uğuru və nailiyyəti ədliyyə işçilərində yüksək iftixar hissləri yaradır.*

*Bizə doğma olan prokurorluğun səmərəli xidmətləri dövlətimiz tərəfindən daim qiymətləndirilərək, "Azərbaycan Prokurorluğunun l00 illiyi (1918-2018)" yubiley medalının təsis edilməsi, bu ərəfədə Sizin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmağınız və əməkdaşlarınızın yüksək dövlət mükafatlarına layiq bilinməsi Azərbaycan Prokurorluğuna göstərilən böyük diqqət və qayğının əyani təzahürüdür.*

***Hörmətli Zakir müəllim,***

*Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi adından Sizi və bütün əməkdaşlarınızı əlamətdar yubiley münasibətilə bir daha ürəkdən təbrik edir, doğma Azərbaycanımızın qüdrətlənməsi naminə şərəfli və məsuliyyətli işinizdə yeni-yeni uğurlar arzulayıram.*

***Hörmətlə,***

***Fikrət Məmmədov,***
***Azərbaycan Respublikasının ədliyyə naziri***
***I dərəcəli dövlət ədliyyə müşaviri***
1 oktyabr 2018-ci il

***Hörmətli Zakir müəllim,***

*Sizə və rəhbərlik etdiyiniz kollektivə 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü və milli prokurorluq orqanlarının yaradılmasının 100 illik yubileyi münasibətilə səmimi təbriklərimi çatdırır, fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.*

*Azərbaycan Respublikasının Prokurorluğu 100 illik tarixi ərzində şərəfli inkişaf yolu keçərək, hüququn aliliyinin təmin edilməsinə xidmət edən mütərəqqi bir təsisata çevrilmişdir.*

*Bu gün Sizin rəhbərliyinizlə prokurorluq orqanları öz fəaliyyətində ədalət və şəffaflıq prinsiplərini əsas götürərək ölkəmizdə aparılan hüquqi islahatlar prosesində fəal iştirak edir, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması istiqamətində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.*

*Prokurorluq orqanlarının təkmilləşdirilməsi və yeniləşdirilməsi istiqamətində görülən işlərin müsbət nəticəsidir ki, bu gün rəhbərlik etdiyiniz orqan qanunla müəyyən edilmiş funksiyalarını yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, insan hiiquq və azadlıqlarının təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayır.*

*Əminik ki, dövlətçiliyə sədaqəti ilə seçilən prokurorluq orqanları bundan sonra da möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müəyyənləşdirdiyi vəzifələrin yerinə yetirilməsində və yeni məzmunlu islahatların reallaşdırılması istiqamətində xidmətlərini yüksək səviyyədə göstərəcək, ölkəmizdə formalaşmış dayanıqlı ictimai-siyasi sabitliyin və milli maraqlarımızın cinayətkar qəsdlərdən qorunması, cinayətkarlığa qarşı mübarizə istiqamətində öz səylərini əsirgəməyəcəklər.*

*Təsadüfi deyildir ki, Prokurorluğun bir çox əməkdaşları bu yubiley münasibətilə yüksək dövlət təltiflərinə layiq görülmüş, xüsusilə də Sizin Azərbaycan Respublikasının Prezidenti cənab ilham Əliyevin müvafiq Sərəncamına əsasən 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmağınız əməyinizə verilən qiymətin bariz nümunəsidir.*

*Əlamətdar gün münasibətilə Sizi və Prokurorluğun kollektivini bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, fəaliyyətinizdə uğurlar və yeni nailiyyətlər arzulayıram.*

***Dərin hörmətlə,***

***Fərhad Abdullayev,***
***Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri***
1 oktyabr 2018-ci il

***Hörmətli Zakir müəllim,***

*Sizi və prokurorluq orqanlarında çalışan bütün əməkdaşları Azərbaycan Prokurorluğunun yaranmasının 100 illiyi münasibətilə Ali Məhkəmənin kollektivi adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, ən xoş arzularımı bildirirəm.*

*Bu peşə bayramını ulu öndərimiz Heydər Əliyevin təsis etməsi prokurorluq orqanlarının fəaliyyətinə verdiyi yüksək qiymətin təcəssümüdür. Ümummilli liderimizin yolunu uğurla davam etdirən möhtərəm cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə hüquq sahəsində aparılan məqsədyönlü tədbirlərin nəticəsidir ki, bu gün Azərbaycan Prokurorluğu mütərəqqi normativ hüquqi bazası olan, demokratik məzmunlu prinsiplər və iş metodları əsasında fəaliyyət göstərən sivil dövlət təsisatına çevrilmişdir.*

*Milli dövlətçiliyə daim sədaqətlə xidmət edən, respublikada ictimai-siyasi sabitliyin, qanunçuluğun və hüquq qaydalarının təminatında mühüm rol oynayan Azərbaycan prokurorluğunun əməkdaşları öz vəzifələrini layiqincə yerinə yetirməkdədirlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə Prokurorluğun bir qrup əməkdaşının yüksək dövlət təltiflərinə layiq görülməsi prokurorluq işçilərinin səmərəli fəaliyyətinə yüksək qiymətdir.*

*Keşməkeşli, lakin şərəfli bir yol keçən, dövlət həyatında əhəmiyyətli yer tutan prokurorluğun insan hüquq və azadlıqlarının təminində, demokratik inkişafa törədilən maneələrin aradan qaldırılmasında, ədalət mühakiməsinin beynəlxalq tələblərə cavab verən səviyyədə formalaşmasında, ictimai-siyasi həyatın bütün sahələrində dövlətin hüquqi bazasının möhkəm təməllər üzərində qurulmasında böyük rolu vardır.*

*Sizin rəhbərliyinizlə şəffaf və ədalətli kadr islahatları prokurorluğun uğurlarının əsasını təşkil edir.*

*100 illik şərəfli tarixə malik Prokurorluq orqanlarında çalışan əməkdaşlar demokratik cəmiyyətdə prokurorluğa xas olan funksiyaları yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli xidmətlər göstərirlər.*

*Prokurorluq orqanlarında cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilir, dövlətçiliyimizin möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının qorunması, sosial ədalətin bərpa olunması istiqamətində mühüm işlər görülür.*

*Əminik ki, 100 illik təcrübəsi olan Azərbaycan Prokurorluğu öz fəaliyyətinin layiqli səviyyədə təşkili üçün bütün zəruri tədbirlərin görülməsini davam etdirəcək, xalqın mənafeyinin cinayətkar qəsdlərdən qorunmasında bundan sonra da yaxından iştirak edəcəklər.*

***Hörmətli Zakir müəllim!***

*100 illik bayramı günündə Sizi bir daha ürəkdən təbrik edir, şərəfli və məsuliyyətli vəzifələri yerinə yetirən prokurorluğun bütün kollektivinə möhkəm can sağlığı və işlərində uğurlar arzulayıram.*

***Hörmətlə,***

***Ramiz Rzayev,***
***Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri***
1 oktyabr 2018-ci il

***Hörmətli Zakir müəllim,***

*Yarandığı gündən şərəfli bir xidmət yolu keçən prokurorluq orqanları Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hüquq sahəsində dövlət siyasətini həyata keçirən vahid mərkəzləşdirilmiş təsisat olaraq formalaşmış, demokratik dövlət quruculuğunda fəal iştirak etmiş, cəmiyyətdə böyük nüfuz qazanmışdır.*

*Prokurorluq sisteminin əməkdaşları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizin inkişafı, qanunçuluğun, insan və vətəndaş hüquqlarının etibarlı müdafiəsi naminə görülən mühüm və əhəmiyyətli işlərin, ədalət mühakiməsinin səmərəliliyinin artınlmasına xidmət edən islahatların müvəffəqiyyətlə davam etməsinə bu gün də layiqli töhfələr verirlər. Eyni zamanda, respublikada konstitusion dövlət quruluşunun möhkəmlənməsi, cinayətlərin, onların ağır və xüsusilə ağır, transmilli mütəşəkkil növlərinin qarşısının alınması, açılması, istintaqı kimi mühüm vəzifələrin yerinə yetirilməsində mətinliyi, prinsipiallığı, xalqa, Vətənə və dövlətə sədaqəti ilə seçilirlər.*

*Qulluq vəzifələrinin icrasında fərqlənən prokurorluq işçilərinin bu əlamətdar yubiley ərəfəsində də dövlət mükafatlarına layiq görülməsi, o cümlədən Sizin 1-ci dərəcəli «Vətənə Xidmətə görə» ordeni ilə təltif olunmanız möhtərəm Prezidentin əməyinizə verdiyi ali dəyərin əyani təsdiq olmaqla bizi də qəlbən sevindirir.*

*Davamlı inkişafda olan idarələrarası əməkdaşlıq əlaqələrimizin milli maraqlara, vətəndaşlanın qanuni mənafelərinə, cinayətkarlığa qarşı mübarizəyə, ictimai asayişin etibarlı qorunmasına, qanunçuluğun möhkəmlənməsinə bundan sonra da xidmət edəcəyinə əminəm.*

*Prokurorluq orqanlarının yaranmasının 100 illik yubileyi münasibətilə Sizi və respublikanın bütün prokurorluq işçilərini daxili işlər orqanlarının şəxsi heyəti və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, can sağlığı, ailə səadəti, xoşbəxtlik, məsul və şərəfli işinizdə yeni-yeni nailiyyətlər arzulayıram!*

***Dərin hörmətlə,***

***Ramil Usubov,***

***Azərbaycan Respublikasının daxili işlər naziri***

***general-polkovnik***

1 oktyabr 2018-ci il

***Уважаемый Закир Бекир оглу!***

*От имени Координационного совета генеральных прокуроров государств-участников Содружества Независимых Государств и Генеральной Прокуратуры Российской Федерации примите поздравления с профессиональным праздником – днем работника прокуратуры и со 100-летним юбилеем со дня образования прокуратуры Азербайджанской Республики.*

*Прокуратура Азербайджанской Республики вносит значительный вклад в дело укрепления взаимодействия между генеральными прокуратурами государств-участников Содружества Независимых Государств.*

*От всей души желаю Вам, всем работникам и ветеранам прокуратуры крепкого здоровья благополучия успехов в работе по обеспечению законности и правопорядка в Азербайджанской Республике.*

***С уважением,***

***Чайка Юрий Яковлевич,***
***Председатель Координационного совета***
***генеральных прокуроров государств-участников СНГ***
***Генеральный прокурор Российской Федерации***
28 сентября 2018 года

***Уважаемый Закир Бекир оглу!***

*От имени Координационного совета генеральных прокуроров государств-участников Содружества Независимых Государств и от себя лично сердечно поздравляю Вас и весь коллектив Генеральной Прокуратуры Азербайджанской Республики с профессиональным праздником – Днем работника прокуратуры и со 100-летним юбилеем со дня образования Прокуратуры Азербайджанской Республики.*

*Желаю Вам, всем работникам и ветеранам прокуратуры крепкого здоровья, благополучия, профессиональных успехов в деле обеспечения законности и правопорядка в Азербайджанской Республике.*

*Выражаю надежду на дальнейшее плодотворное сотрудничество и укрепление взаимодействия между Координационным советом генеральных прокуроров государств-участников Содружества Независимых Государств и Генеральной прокуратурой Азербайджанской Республики.*

***С уважением,***

***Ермолаев Леонид Владимирович,***
***Исполнительный секретарь Координационного совета***
***генеральных прокуроров государств-участников***
***Содружества Независимых Государств***
28 сентября 2018 года

***Уважаемый Закир Бекир оглу!***

*От коллектива Генеральной прокуратуры Республики Беларусь и себя лично поздравляю Вас и Ваших коллег с профессиональным праздником – Днем работников прокуратуры Азербайджана!*

*Желаю Вам и работникам органов прокуратуры Азербайджанской Республики крепкого здоровья, успехов в нелегком, но благородном деле борьбы с преступностью во имя благополучия и процветания Вашей страны и Азербайджанского народа.*

*Выражаю уверенность в том, что взаимопонимание и конструктивное сотрудничество, сложившиеся между прокуратурами наших государств, будут развиваться и в дальнейшем.*

***С уважением,***

***Конюк Александр Владимирович***
***Генеральный прокурор Республики Беларусь***
30 сентября 2018 года

**_Уважаемый Закир Бекир оглу!_**

_Поздравляю Вас с профессиональным праздником – Днем прокуратуры Азербайджанской Республики!_

_Прокурорская деятельность является одним из гарантов законности и правопорядка в обществе. От профессионализма, высокой компетентности, преданности долгу сотрудников прокуратуры зависит эффективность защиты прав и интересов граждан и государства, борьбы с правонарушением и преступностью._

_В этот знаменательный день желаю Вам и всем сотрудникам прокуратуры крепкого здоровья, счастья, профессиональных успехов и стойкости духа в деле служения высоким идеалам Закона и справедливости!_

**_С наилучшими пожеланиями,_**

**_Кожамжаров Кайрат Пернешович_**
**_Генеральный прокурор Республики Казахстан_**
1 октября 2018 года

**_Уважаемый Закир Бекир оглу!_**

_От имени Генеральной прокуратуры Республики Молдова и от себя лично поздравляю Вас и весь прокурорский корпус Азербайджанской Республики с профессиональным праздником._

_Примите наши искренние пожелания благополучия, добра, мира, процветания, дальнейших успехов на ниве служения верховенству закона._

_Пользуясь случаем, выражаю надежду на дальнейшее развитие и укрепления сотрудничества между генеральными прокуратурами наших государств в правовой сфере._

**_С глубоким уважением,_**

**_Эдуард Харунжен_**
**_Генеральный прокурор Республики Молдова_**
1 октября 2018 года

**_Уважаемый Закир Бекир оглу!_**

_Свидетельствуя Вам своё глубокое уважение сердечно поздравляю Вас и всех вверенных Вам сотрудников со 100-летием образования Прокуратуры Азербайджанской Республики._

_Искренне желаю всем крепкого здоровья, счастья, благополучия, плодотворной работы в профессиональной деятельности и дальнейших успехов по укреплению законности и правопорядка в дружеской Азербайджанской Республике._

**_С уважением,_**

**_Рахмон Юсуф Ахмадзод_**
**_Генеральный прокурор Республики Таджикистан_**
29 сентября 2018 года

***

Yubiley münasibətilə digər dövlət orqanlarının nümayəndələri, siyasi və ictimai xadimlər, prokurorluğun veteranları və başqa şəxslər təbriklərini çatdırıblar.

# Azərbaycan Prokurorluğunun kollektivi ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib

**Prokurorluq işçiləri ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər**



Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi və 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə Baş Prokurorluğun, Respublika Hərbi və Bakı şəhər prokurorluqları orqanlarının kollektivləri sentyabrın 28-də Fəxri xiyabana gələrək müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini dərin ehtiramla yad ediblər.

Prokurorluq işçiləri ulu öndərin məzarı önünə gül dəstələri qoyub onun ruhu qarşısında baş əyiblər.

Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib üzərinə gül dəstələri düzüblər.





## Prokurorluq işçiləri 20 Yanvar şəhidlərinin xatirəsini ehtiramla yad ediblər










Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi və 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə Baş Prokurorluğun, Respublika Hərbi və Bakı şəhər prokurorluqları orqanlarının kollektivləri sentyabrın 28-də xalqın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət ediblər.

Prokurorluq işçiləri 20 Yanvar şəhidlərinin xatirəsini dərin ehtiramla yad edib, məzarları önünə gül dəstələri qoyublar, "Əbədi məşəl" abidəsinin önündə baş əyiblər.

Sonra Baş prokuror Zakir Qaralov kütləvi informasiya vasitələri üzvlərinin suallarını cavablandırıb.

**Baş Prokurorluq**

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təltif olunan prokurorluq işçilərinə dövlət mükafatlarının təqdimatı



Noyabrın 3-də Baş Prokurorluqda Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prokurorluğunun bir qrup əməkdaşının təltif edilməsi haqqında" 28 sentyabr 2018-ci il tarixli Sərəncamı ilə təltif olunmuş prokurorluq əməkdaşlarına dövlət mükafatlarının təqdim edilməsi ilə əlaqədar tədbir keçirilmişdir.

Mərasimdə çıxış edən Baş prokuror Zakir Qaralov qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi altında həyata keçirilən müasir məzmunlu tədbirlər nəticəsində ölkə həyatının bütün sahələrində böyük irəliləyişlərə, müstəqil dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, vətənimizin iqtisadi qüdrətinin artırılması ilə nəticələnən möhtəşəm sosial-iqtisadi inkişaf göstəricilərinə nail olunmuşdur.

Xüsusi vurğulanmışdır ki, ölkəmiz son 15 ildə sabit və təhlükəsiz şəraitdə sosial-iqtisadi tərəqqisini təmin edərək nəhəng qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə təşəbbüskarı olmuş, dünyadakı nüfuzunu artıraraq 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmiş, 3 peykə malik ölkə kimi kosmik kluba daxil olmaqla yanaşı, ən mötəbər tədbirlərə – humanitar, siyasi, iqtisadi, mədəni forumlara, möhtəşəm idman yarışlarına uğurla ev sahibliyi edərək bir dövlət kimi güclü potensiala və mövqeyə malik olduğumuzu dünyaya nümayiş etdirilmişdir.



Əldə edilən nailiyyətlər mötəbər beynəlxalq qurumların, o cümlədən biznes sahəsində dünyada ən vacib və etibarlı reytinq göstəricisi sayılan Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunmaqla ümumi indikatorlar üzrə 190 ölkə arasında 25-ci yerdə qərarlaşması ölkəmizin dinamik sosial-iqtisadi inkişafının parlaq göstəricisi kimi dəyərləndirilmişdir.

Diqqətə çatdırılmışdır ki, respublikamızın davamlı tərəqqisi digər dövlət təsisatları kimi prokurorluq orqanlarının da ardıcıl və müntəzəm inkişafını təmin etmiş, bu mühüm dövlət orqanı fəaliyyətini müasir dövrün daha yüksək tələbləri səviyyəsində quraraq təkmilləşməkdə davam etmiş, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının, milli dövlət maraqlarımızın qorunmasında, sabitliyin və təhlükəsizliyin təmin olunmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əməkdaşlıq şəraitində çalışaraq yeni-yeni uğurlar qazanmışdır.

Xüsusi olaraq qeyd edilmişdir ki, şərəfli bir inkişaf yolu keçmiş Azərbaycan Prokurorluğunun dövlətçiliyin və xalqın maraqlarına xidmət etməklə, qanun çərçivəsində və beynəlxalq standartlara uyğun fəaliyyət göstərən dövlət qurumu kimi müasir məzmunda formalaşması xalqımızın ümummilli lideri Heydər Əliyevin başladığı və Prezident cənab İlham Əliyevin rəhbərliyi altında yeni müstəvidə davam etdirilən məhkəmə hüquq islahatları və prokurorluğa olan diqqət və qayğısı nəticəsində mümkün olmuşdur.

Baş prokuror dəfələrlə prokurorluğa olan etimadını vurğulayan Prezident cənab İlham Əliyevin məhz Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi ərəfəsində 28 sentyabr 2018-ci il tarixli Sərəncamla 43 prokurorluq əməkdaşını yüksək dövlət mükafatları – orden və medallarla təltif etməsinin və Azərbaycan Respublikası prokurorluq orqanlarının əməkdaşlarına və veteranlarına ünvanladığı təbrik müraciətinin prokurorluğun kollektivi üçün böyük sevincə səbəb olduğunu bildirmişdir.







Əminliklə qeyd edilmişdir ki, 100 illik tarixə malik Azərbaycan Prokurorluğunun kollektivi bundan sonra da fəaliyyətinin dövlət tərəfindən göstərilən etimada layiq səviyyədə qurulması üçün üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsini təmin edəcək, ictimai-siyasi sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə, xalqımızın və dövlətimizin cinayətkar qəsdlərdən qorunmasına, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinə yönəltməklə respublikamızın dinamik inkişafına istiqamətləndirilmiş yeni məzmunlu dövlətçilik siyasətinin reallaşdırılmasında öz xidmətlərini göstərəcəkdir.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikası Prokurorluğunun bir qrup əməkdaşının təltif edilməsi haqqında" 28 sentyabr 2018-ci il tarixli Sərəncamına müvafiq olaraq, ölkədə qanunçuluğun təmin edilməsində, ağır və xüsusilə ağır cinayətlərin istintaqının aparılmasında, korrupsiyaya qarşı mübarizədə, məhkəmədə dövlət ittihamının müdafiə olunmasında yüksək peşəkarlıq göstərdiklərinə, xidməti vəzifələrinin yerinə yetirilməsində fərqləndiklərinə görə "Vətənə xidmətə görə" ordenləri, "Tərəqqi" və "Dövlət qulluğunda fərqlənməyə görə" medalları ilə təltif edilmiş prokurorluq əməkdaşlarına dövlət mükafatları təqdim olunmuşdur.

Prokurorluq əməkdaşlarının dövlət mükafatlarına layiq görülməsi Azərbaycan Prokurorluğuna Dövlət başçısı tərəfindən göstərilən yüksək etimad və inamın ifadəsi, dövlətçiliyimizin maraqlarının qorunması işində prokurorluğun fəaliyyətinə verilən yüksək qiymət kimi dəyərləndirilmiş və prokurorluğun kollektivi üçün böyük məsuliyyət yaratdığı qeyd edilmişdir.

Dövlət təltifinə layiq görülmüş əməkdaşlar çıxış edərək onların fəaliyyətinə verilmiş yüksək qiymətə görə Azərbaycan Respublikasının Prezidentinə dərin minnətdarlıqlarını ifadə etmiş və fəaliyyətlərini bu etimada layiq səviyyədə qurulması üçün mümkün tədbirlər görəcəklərini bildirmişlər.

Tədbirin yekununda Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından Prezident cənab İlham Əliyevin ünvanına yekdilliklə müraciət qəbul edilmişdir.

**Baş Prokurorluq**

# Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə Baş Prokurorluqda keçirilmiş təntənəli mərasim




Xalqın ümummilli lideri Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamına əsasən həmin ildən etibarən hər il öz peşə bayramlarını qeyd etmək imkanı əldə edən Azərbaycan Respublikası Prokurorluğunun kollektivi milli prokurorluq orqanlarının yaradılmasının 100 illik yubileyini və növbəti peşə bayramını qeyd edir.



Oktyabrın 1-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda "1 Oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü" və Milli Prokurorluğun yaradılmasının 100 illik yubileyinə həsr olunan təntənəli mərasim keçirilmişdir.

Tədbirdən əvvəl Baş prokuror Zakir Qaralov Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi – şöbə müdiri Fuad Ələsgərovu Baş Prokurorluqda olan ümummilli lider Heydər Əliyevin guşəsi və Azərbaycan Prokurorluğunun tarix muzeyi ilə tanış edərək eksponatlar barədə məlumat vermişdir.







Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi – şöbə müdiri Fuad Ələsgərov prokurorluq işçilərinin peşə bayramı günü və Azərbaycan Prokurorluğunun 100 illik yubileyi münasibəti ilə dövlət başçısı cənab İlham Əliyevin təbrik məktubunu oxumuşdur.





Tədbirdə çıxış edən Baş prokuror Zakir Qaralov Azərbaycan Prokurorluğunun 100 illik yubileyi və peşə bayramı günü münasibətilə Baş Prokurorluğun Kollegiyası adından prokurorluq orqanlarında çalışan bütün əməkdaşları, veteranları, onların ailə üzvlərini səmimi qəlbdən təbrik edərək bildirmişdir ki, Azərbaycan Prokurorluğunun demokratik məzmunda tamamilə yenidən formalaşması, milli maraqlarımıza xidmət edən bir dövlət təsisatı kimi hərtərəfli təkmilləşməsi və müasirləşməsi məhz ulu öndər Heydər Əliyevin həyata keçirdiyi dövlətçilik siyasəti və onun gündəlik qayğısı nəticəsində mümkün olmuşdur.

Bildirilmişdir ki, xalqımızın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyevin həyata keçirdiyi müdrik dövlətçilik siyasətinin nəticəsi olaraq, bütün digər qurumlarla yanaşı, Azərbaycan Prokurorluğu da dövlət təsisatı kimi tamamilə yenidən formalaşdırılaraq, dövlətçiliyimizin mühüm sütunlarından birinə çevrilmiş, onun dövlətçiliyə sədaqəti ilə seçilən kadr korpusu yaradılmışdır. Azərbaycan Respublikasında reallaşdırılan mütərəqqi məhkəmə-hüquq islahatları çərçivəsində milli prokurorluq orqanları müasir məzmunda yeniləşdirilməklə, cəmiyyətdə statusuna uyğun yerini tutmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yubiley münasibətilə prokurorluq əməkdaşları və veteranlara ünvanlanmış təbrikinin əhəmiyyətini vurğulayan Baş prokuror bildirmişdir ki, Azərbaycan Prokurorluğunun 100 illik tarixi ərzində keçdiyi inkişaf yoluna, Xalq Cümhuriyyəti dövrü və ondan sonrakı tarixi mərhələlərdəki fəaliyyətinə qiymət verən həmin müraciətdə ümummilli liderin rəhbərliyi ilə milli prokurorluğun sağlamlaşdırılması və müasirləşdirilməsi istiqamətində görülən işlər, cəmiyyətimizin və dövlətçiliyimizin maraqlarının qorunması, cinayətkarlığa qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər diqqətə çatdırılmış, müasir dövrdə prokurorluq orqanlarının qarşısında duran vəzifələr müəyyənləşdirilmişdir. Eyni zamanda minnətdarlıq hissi ilə qeyd edilmişdir ki, yubiley ərəfəsində dövlət başçısı cənab İlham Əliyevin imzaladığı sərəncamla bir qrup prokurorluq əməkdaşının yüksək dövlət mükafatları – orden və medallarla təltif edilməsi kollektivin böyük sevincinə səbəb olmuşdur.

Ümummilli liderin müəyyən etdiyi strateji inkişaf konsepsiyasını uğurla reallaşdıran və keyfiyyətcə yeni müstəviyə qaldıran Prezident cənab İlham Əliyevin Əliyevin rəhbərliyi ilə ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində görülən işləri diqqətə çatdıran Baş prokuror vurğulamışdır ki, son dövrlərdə Azərbaycan Respublikasında ardıcıl və sistemli şəkildə həyata

keçirilən sosial-iqtisadi islahatların reallaşdırılması, hərtərəfli düşünülmüş dövlət siyasətinin həyata keçirilməsi, ictimai-siyasi sabitliyin təmin olunması nəticəsində Azərbaycan beynəlxalq birliyin tamhüquqlu üzvü kimi layiq olduğu yerini tutmuşdur.

Qeyd edilmişdir ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dünyada iqtisadi və maliyyə böhranlarının hökm sürməsinə baxmayaraq sabit və təhlükəsiz şəraitdə sosial-iqtisadi tərəqqisinin təmin edilməsi, iqtisadi rəqabətqabiliyyətliliyinə görə nüfuzlu beynəlxalq hesabatlarda yüksək pillələrdə qərarlaşması, nəhəng qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə təşəbbüskarı olmaqla gerçəkləşdirilməsi, dünyada nüfuzunun artması, respublikamızın ən mötəbər tədbirlərə, o cümlədən humanitar, siyasi, iqtisadi, mədəni forumlara, möhtəşəm idman yarışlarına uğurla ev sahibliyi etməsi hər bir azərbaycanlını gələcəyə ruhlandırır.

Xüsusi vurğulanmışdır ki, ulu öndər Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər işçiləri ilə 26 aprel 2000-ci ildə keçirdiyi tarixi görüşdən sonra Azərbaycan Prokurorluğunda hərtərəfli və bütün sahələri əhatə edən islahatlar aparılmaqla fəaliyyəti üçün zəruri normativ-hüquqi baza yaradılmış, “Prokurorluq haqqında” Qanunda nəzərdə tutulmuş istiqamətlər üzrə işin səmərəli təşkili, yüksək tələblər səviyyəsində işləmək bacarığı olan kadr korpusu formalaşdırılmışdır.

Bir çox dövlət təsisatı kimi prokurorluq orqanlarının da yaradılması Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti dövrünə təsadüf edir. 1 oktyabr 1918-ci il tarixli qərarla Bakı Dairə Məhkəməsinin tərkibində yaradılmaqla əsası qoyulmuş milli prokurorluq orqanları öz 100 illik tarixi ərzində xalqımızın müstəqilliyi uğrunda apardığı mübarizənin tarixi ilə bərabər şəkildə çətin və mürəkkəb, eyni zamanda, şərəfli bir inkişaf yolu keçərək, bugünkü şəkildə formalaşmış, fəaliyyət göstərdiyi bütün dövrlərdə millətinə və dövlətçilik ideyalarına sədaqətlə qulluq etmiş, qanunçuluğun möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizə işində öz xidmətlərini göstərmişdir.

Xüsusi vurğulanmışdır ki, dövlət səviyyəsində göstərilən yüksək diqqətin nəticəsi olaraq, ixtisaslaşdırılmış qurum kimi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti üçün normal şəraitin yaradılması, əməkdaşlarının sayının əhəmiyyətli dərəcədə artırılmaqla çevik fəaliyyəti təmin etməyə qadir yeni strukturun formalaşdırılması, MDB məkanında, habelə Azərbaycan tarixində ilk dəfə olaraq, bu quruma əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi səlahiyyətinin verilməsi, işçilərin sosial müdafiəsinin gücləndirilməsi və digər bu kimi islahat tədbirləri korrupsiya hallarının qarşısının alınması və onları doğuran səbəblərin aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin səmərəliliyini daha da artırmış, profilaktiki fəaliyyət daha da gücləndirilmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 3 mart 2004-cü il tarixli “Korrupsiyaya qarşı mübarizə haqqında” Qanunun tətbiq edilməsi barədə Sərəncamına əsasən Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin yaradılması və sonrakı illərdə fəaliyyətinin təkmilləşdirilməsi korrupsiyaya qarşı mübarizə sahəsində siyasi iradənin ən yüksək təzahürü və ölkə rəhbərliyinin prokurorluq orqanlarının cəmiyyətdəki roluna, funksiyalarına və fəaliyyətinə verilən inam və etimadın təcəssümü kimi dəyərləndirilmişdir.

Mərasimdə qeyd edilmişdir ki, ötən dövrlər ərzində “Prokurorluq haqqında” qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin düzgün təşkili, istintaq fəaliyyətinin təkmilləşdirilməsi, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyin və istintaq üzərində prokuror nəzarəti, dövlət ittihamının müdafiəsi, vətəndaşların müraciətlərinə baxılması və onların qəbulu işinin səmərəliliyinin yüksəldilməsi, mövcud çatışmazlıqların təxirəsalınmadan aradan qaldırılmaqla ciddi nəzarət mexanizminin yaradılması, xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində zəruri tədbirlər görülmüşdür.

Nəzərə çatdırılmışdır ki, ölkə başçısı tərəfindən prokurorluq orqanlarına daim yüksək diqqət və qayğı göstərilərək, prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr

potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərin sosial müdafiəsinin yüksəldilməsi məqsədilə 27 sentyabr 2008-ci il tarixli Sərəncamla təsdiq edilmiş “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı”nın Azərbaycan Prokurorluğunun 100 illik tarixində ən önəmli hadisələrdən biri olmaqla yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşdirmə dövrünün əsasını qoymuşdur.

Prokurorluq orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılmasında müstəsna əhəmiyyətə malik olmuş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin reallaşdırılması nəticəsində prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin qurulması üçün hərtərəfli zəmin yaradılmış, eləcə də prokurorluq işçilərinin sosial müdafiəsi gücləndirilərək prokurorluğun maddi-texniki təminatı yaxşılaşdırılmışdır. Prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlər sırasında Gəncə və Sumqayıt şəhər prokurorluqlarının ən müasir standartlara cavab verən yeni inzibati binalarının tikilərək yubiley ərəfəsində əməkdaşların istifadəsinə verilməsi xüsusi qeyd edilmişdir.

Bildirilmişdir ki, ölkəmizdə reallaşdırılan dövlət gənclər siyasətinin tələblərinə müvafiq olaraq, mütərəqqi və şəffaf prosedurlar əsasında prokurorluğun kadr korpusunun yeniləşdirilməsi istiqamətində aparılan məqsədyönlü işlərin nəticəsi kimi, 2002-ci ildən başlayaraq keçirilən 19 müsabiqə nəticəsində qulluğa qəbul edilən 873 gənc hüquqşünasın Azərbaycan Respublikası Prokurorluğunun kadr korpusunun 67 faizini təşkil etməsi, müxtəlif sahələrdə səmərəli fəaliyyəti, həmin gənclərin bir çoxunun rəhbər və yuxarı təsnifatlar üzrə vəzifələrə irəli çəkilməsi, alternativi olmayan müsabiqə yolu ilə qulluğa qəbulun bundan sonra da davam etdiriləcəyinə əminlik yaratmışdır.

Tədbirdə çıxış edən prokurorluğun veteranı Qənimət Səfərov prokurorluq orqanlarının keçdiyi şərəfli yoldan, Baş Prokurorluğun Hüquqi təminat idarəsinin prokuroru Vüsal Mehrəliyev isə prokurorluğa qulluğa qəbul edilmiş gənclərə göstərilən dövlət qayğısından ətraflı söz açmışlar.









İnam ifadə olunmuşdur ki, bu gün öz peşə bayramını və 100 illik yubileyini qeyd edən Azərbaycan Prokurorluğunun kollektivi öz məsuliyyətini dərindən dərk etməklə, fəaliyyətinin dövlət tərəfindən göstərilən etimada layiq səviyyədə qurulması üçün zəruri tədbirlərin görülməsini təmin edəcək, respublikamızın dinamik inkişafına istiqamətləndirilmiş yeni məzmunlu dövlətçilik siyasətinin reallaşdırılmasında öz xidmətlərini göstərəcəkdir.

Mərasimdə xidmətdə fərqləndiklərinə görə mükafatlandırılmış prokurorluq əməkdaşlarının bir qisminə Baş prokuror tərəfindən "Azərbaycan Prokurorluğunun 100 illiyi" yubiley medalı, "Prokurorluğun fəxri işçisi" döş nişanı, Fəxri Fərmanlar və digər təltiflər təqdim edilmişdir.

Tədbirin yekununda Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından Prezident cənab İlham Əliyevin ünvanına yekdilliklə müraciət qəbul edilmişdir.

**Baş Prokurorluq**

# Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə təşkil olunmuş təntənəli mərasim



Oktyabrın 1-də "Boulevard Hotel Baku" mehmanxanasında Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyinə həsr edilən təntənəli mərasim təşkil olunub.

Dövlət və hökumət nümayəndələrinin, prokurorluğun veteranlarının, şəhid olmuş prokurorluq işçilərinin ailə üzvlərinin də iştirak etdikləri bu tədbir Azərbaycan Respublikası himninin səsləndirilməsi ilə başlayıb.

Mərasimdə Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov çıxış edib.

**Baş prokuror Zakir Qaralovun çıxışı:**

Hörmətli qonaqlar, hörmətli həmkarlar,

İlk növbədə hamınızı salamlayır və Azərbaycan Prokurorluğunun yaradılmasının 100-cü ildönümü və prokurorluq işçilərinin peşə bayramı münasibətilə təşkil olunmuş rəsmi ziyafətdə dəvətimizi qəbul edib iştirak etdiyinizə görə Sizlərə minnətdarlığımı bildirirəm.

Hörmətli qonaqlar, hörmətli həmkarlar,

Müasir Azərbaycanın banisi ümummilli lider Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı cənab Prezident İlham Əliyevin prokurorluq orqanlarına olan münasibəti hər zaman onun qayğısı və diqqəti ilə əhatə olunmuşdur.




Biz bu gün bir daha möhtərəm cənab Prezidentin prokurorluq əməkdaşları və veteranlarına ünvanladığı təbrik müraciətində həmin diqqət və qayğının şahidi olduq.

Dəfələrlə prokurorluğa olan etimadını vurğulayan cənab Prezident bu günkü təbrik müraciətində bir daha prokurorluq orqanlarına olan inamını qeyd edərək bundan sonra da fəaliyyətimizdə peşəkarlıq və prinsipiallıq ənənələrinə sadiq qalaraq üzərimizə düşən vəzifələrin layiqincə öhdəsindən gələcəyimizə dair əminliyini ifadə etmişdir.

Eyni zamanda, cənab Prezidentin 28 sentyabr 2018-ci il tarixli Sərəncamı ilə 43 prokurorluq əməkdaşının orden və medallarla təltif edilmələri ilə əlaqədar fürsətdən istifadə edərək prokurorluğun kollektivi və öz adımdan ölkə başçısına göstərdiyi böyük etimada görə dərin təşəkkürümü bildirirəm.

Hörmətli qonaqlar, hörmətli həmkarlar,

Bu gün prokurorluq orqanlarının həyatında ən əlamətdar və yadda qalan günlərdən biridir. Prokurorluğun kollektivi öz peşə bayramını və prokurorluq orqanlarının yaradılmasının 100 illik yubileyini qeyd edir.

Xalqımızın fərəh hissi ilə yaranmasının 100 illiyini qeyd etdiyi Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi qısa müddət ərzində bir çox dövlət təsisatı ilə yanaşı 1 oktyabr 1918-ci ildə milli prokurorluq orqanlarının əsası qoyulmuşdur.

Cümhuriyyətin süqutundan sonra Sovet imperiyası tərkibində o dövrün tələblərinə uyğun fəaliyyət göstərən prokurorluq orqanları partiya maraqlarına xidmət etməklə cəza orqanı rolunu yerinə yetirmişdir.

Belə bir məqamda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev hələ ölkəyə rəhbərliyinin birinci dövründə cəmiyyətdə haqq və ədalətin zəfər çalması uğrunda "Qoy, ədalət zəfər çalsın!" deyərək böyük əzm və fədakarlıqla insan hüquq və azadlıqlarının müdafiəsinin ən ali forması kimi qanunlara eyni cür, dürüst əməl edilməsinə nail olmuşdur. O dövrdə ulu öndərin təşəbbüsü ilə Respublikada ali məktəblərin hüquq fakültəsinə qəbulda aparılan islahat nəticəsində sadə ailələrdən çıxan bilikli və istedadlı gənclər hüquqşünas ixtisası alaraq hüquq-mühafizə sistemində, o cümlədən prokurorluq orqanlarında işləməyə başlamış, yüksək vəzifələrə irəli çəkilmişlər.

Ulu öndər həmin hüquqşünaslar nəslinin bir çox nümayəndəsinin bu gün müstəqil dövlətçiliyimizə ləyaqətlə xidmət etməsi faktına sonralar münasibətini belə bildirmişdir: "Mən xüsusi qeyd etmək istəyirəm ki, 1960, 1970, 1980-ci illərdə Azərbaycanda milli prokuror kadrları hazırlandı, yetişdi və bu gün Azərbaycan prokurorluğunun əsasını təşkil edən kadrlar yüksək peşəkarlığa, hüquqi təhsilə malik olan və öz vəzifələrini yerinə yetirə bilən kadrlardan ibarətdir. Bunlar hamısı bir gündə, bir ildə hazırlana bilməzdi. Azərbaycanda prokurorluq



orqanları on illər ərzində təşkil olunmuş, formalaşmış, inkişaf etmiş və bugünkü yüksək peşəkar səviyyəyə çatmışdır”.

Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra isə prokurorluq həmin dövrdə hakimiyyətə yiyələnmiş qruplaşmanın siyasi alətinə çevrilmiş, milli mənafenin qorunmasına xidmət edə bilməmişdir.

Milli prokurorluq orqanlarının ölkənin hüquq sisteminin inkişafında, insan hüquq və azadlıqlarının qorunmasında çox əhəmiyyəti olan, konstitusion statuslu, yüksək dünya standartlarına və müasir beynəlxalq tələblərə uyğun qurum kimi formalaşması yalnız ümummilli liderimiz Heydər Əliyevin müəyyən edərək həyata keçirdiyi, hazırda onun layiqli davamçısı, müdrik və uzaqgörən dövlət başçımız cənab İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla reallaşdırılan hüquqi dövlət quruculuğu konsepsiyasının gerçəkləşdirilməsi sayəsində mümkün olmuşdur.

Əminliklə deyə bilərik ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən məhkəmə-hüquq islahatları və hərtərəfli dövlət dəstəyi nəticəsində prokurorluq fəaliyyəti tam müasirləşdirilmiş dövlət təsisatına çevrilmişdir.

Hörmətli həmkarlar, hörmətli qonaqlar,

Milli prokurorluq orqanlarının cəmiyyətdə nüfuzunun yüksələməsində, çoxsaylı nailiyyətlər qazanmasında digər hüquq-mühafizə orqanları ilə qurduğu səmərəli işgüzar əməkdaşlığının müstəsna rolu qeyd edilməlidir.

Prokurorluq orqanlarının ilk növbədə daxili işlər, ədliyyə, məhkəmə, xüsusi xidmət və digər hüquq mühafizə orqanları ilə əlaqəli birgə fəaliyyətinin nəticəsi olaraq Respublikamızda dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, dövlət maraqlarının müdafiəsi və cinayətkarlığa qarşı kəsərli mübarizə aparılmaqla kriminogen stabilliyə nail olunmuş və bütün mənfi təzahürlərin qarşısı alınmışdır.

Bütün bu nailiyyətlərin əldə edilməsində sözsüz ki, cinayətkarlığa qarşı mübarizədə xidməti vəzifələrinin icrası zamanı şəhid olmuş prokurorluq işçilərini, həmçinin prokurorluğun nüfuzunun qorunub saxlanmasında və qanunçuluğun bərqərar olmasında fədakarcasına çalışmış veteran prokurorluq əməkdaşlarının da zəhmətini vurğulamaq istəyirəm.

Eyni zamanda, vaxtilə prokurorluq orqanlarında işləmiş və bu gün ədliyyə, məhkəmə sistemində, müxtəlif digər qurumlarda məsul vəzifədə çalışan həmkarlarımızın da fəaliyyətləri dövründə prokurorluğun inkişafı naminə gördükləri təqdirəlayiq işləri xüsusi qeyd etmək istərdim.




Hörmətli həmkarlar, hörmətli qonaqlar,

Çıxışımın sonunda Möhtərəm cənab Prezidenti əmin etmək istəyirəm ki, bu gün öz peşə bayramını və 100 illik yubileyini qeyd edən Azərbaycan Prokurorluğunun kollektivi öz məsuliyyətini dərindən dərk etməklə, fəaliyyətinin dövlət tərəfindən göstərilən etimada layiq səviyyədə qurulması üçün zəruri tədbirlərin görülməsini təmin edəcək, Respublikamızın dinamik inkişafına istiqamətləndirilmiş yeni məzmunlu dövlətçilik siyasətinin reallaşdırılmasında səlahiyyət hədləri daxilində öz xidmətlərini göstərəcəkdir.

Mən bir daha prokurorluq orqanlarının bütün əməkdaşlarını və veteranlarımızı milli prokurorluğunun yaradılmasının 100 illiyi və prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə şəxsi həyatınızda və xidməti fəaliyyətinizdə uğurlar diləyirəm.

Bu əlamətdar gün münasibətilə təşkil olunmuş ziyafət mərasimində iştirak edən bütün dəyərli qonaqlarımıza öz dərin minnətdarlığımı bildirir, onlara bu günkü tədbirdə xoş istirahətlər arzu edirəm.

Diqqətinizə görə təşəkkür edirəm!

***

Mərasim musiqi və rəqs nümunələrinin nümayişi ilə müşayiət olunan bədii hissə ilə davam edib.

**Baş Prokurorluq**

# Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzində keçirilmiş elmi-praktiki konfrans



Sentyabrın 12-də Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyinə həsr olunan elmi-praktiki konfrans keçirilib.

Konfransda Azərbaycan Respublikası Milli Məclisinin, Ədliyyə və Daxili İşlər nazirliklərinin, Konstitusiya və Ali məhkəmələrinin, qeyri-hökumət təşkilatlarının nümayəndələri, Baş Prokurorluğun idarə və şöbə rəisləri, digər rəsmi şəxslər iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan Baş prokurorun müavini Namiq Əsgərov Azərbaycan Respublikası Prokurorluğunun yaranma tarixi, onun inkişafının əsas mərhələləri, qazandığı uğurlar, qanunçuluğun və dövlətçiliyin qorunmasında səmərəli fəaliyyəti və bütövlükdə respublikamızda hüquqi dövlətin qurulmasında və hüquq sisteminin möhkəmləndirilməsində artan rolu barədə ətraflı məlumat vermişdir.

Bildirilmişdir ki, Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il may ayının 28-də Azərbaycanın dövlət müstəqilliyini bəyan etdiyi "İstiqlal Bəyannaməsi"ndə müəyyən etdiyi prinsiplərə sadiq qalmaqla konkret tarixi şəraiti nəzərə alaraq ölkənin ərazi bütövlüyünü və müstəqilliyini qoruyub saxlamaq, insan hüquq və azadlıqlarını dolğun təmin edən demokratik dövlət yaratmaq, hakimiyyətin üç qolunu – qanunvericilik, icra və məhkəmə orqanlarını formalaşdırmaq məqsədi ilə mühüm qanun və qərarlar qəbul etmişdir. Milli tələblərə və demokratik prinsiplərə cavab verən hakimiyyətin əsasını təşkil edən dövlət orqanları yaradılmış, o cümlədən Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının 1 oktyabr

1918-ci il tarixli Qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq təsis edilməklə fəaliyyətə başlamışdır.

Qeyd edilmişdir ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə Referendumla qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkənin hüquqi, demokratik dövlət quruculuğu istiqamətində inkişafının təsisatlarını, dövlətin və idarəetmənin hüquqi əsaslarını, hüquq sisteminin bünövrəsini formalaşdırmışdır. Əsas Qanunda Azərbaycan Respublikası Prokurorluğuna xüsusi maddə həsr edilərək dövlət idarəetmə sistemində bu dövlət təsisatının yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyən edilməklə prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verilmişdir. Prokurorluğun məhkəmə hakimiyyətinə aid edilməsi onun dövlət idarəetmə mexanizmində roluna və iştirakına dair məsələlərə Konstitusiya səviyyəsində aydınlıq gətirməklə yanaşı, müasir prokurorluq orqanlarının Azərbaycan Xalq Cümhuriyyətinin prokurorluq qurumunun hüquqi varisi olmasını təsdiq etmişdir.

Tədbirdə xüsusi vurğulanmışdır ki, ulu öndər Heydər Əliyevin hər il oktyabr ayının 1-nin Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd edilməsinə dair imzaladığı 17 iyul 1998-ci il tarixli Sərəncamı bu əlamətdar tarixi əbədiləşdirməklə, reallığı bərpa etmiş və prokurorluğun demokratik və hüquqi cəmiyyətdə statusu məsələsinə dövlət səviyyəsində münasibət bildirmişdir. Azərbaycan Respublikası Prokurorluğu orqanlarının bu gün dünya standartlarına uyğun fəaliyyəti qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi, insan və vətəndaş hüquqlarının təmin olunması prinsiplərinə əsaslanan, demokratik cəmiyyətdə özünəməxsus yer tutan orqan kimi formalaşması və prokurorluq orqanlarının konstitusion statusa malik olmaqla dövlət idarəetməsində mühüm əhəmiyyət daşıması yalnız ulu öndər Heydər Əliyevin rəhbərliyi altında başlanan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən məhkəmə-hüquq islahatları və hərtərəfli dövlət dəstəyi nəticəsində mümkün olmuşdur.

Baş Prokurorluğun idarə rəisləri Nazir Bayramov, Natiq Hüseynov, Elşən Abbasov, Nazim Rəcəbov, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Orxan İsayev tədbirdə prokurorluğun tarixi kökləri, prokurorluğun hüquqi statusu ilə bağlı elmi-nəzəri baxışlar və təcrübədə tətbiq olunan modelləri, prokurorluq orqanlarının cinayət mühakimə icraatında və ondan kənarda vəzifə və səlahiyyətləri, milli prokurorluğun ölkənin inkişaf strategiyasına uyğun olaraq institusional baxımdan təkmilləşdirilməsi istiqamətləri, prokurorluğun Azərbaycan Xalq Cümhuriyyəti dövründə məhkəmə orqanlarının tərkibində fəaliyyəti, müasir dövrdə qanunvericilik aktlarının layihələrinin hazırlanması və bu sahədə normayaradıcı prosesin yüksək tələblər səviyyəsində həyata keçirilməsi, eləcə də milli dövlətçiliyin möhkəmləndirilməsində prokurorluq orqanlarının rolu, prokurorluğun prioritet fəaliyyət istiqaməti kimi korrupsiyaya qarşı mübarizə və prokurorluğun kadr tərkibinin müasirləşdirilməsi mövzularında çıxışlar etmişlər.

Konfransda çıxış edən Milli Məclisin deputatı Çingiz Qənizadə, vətəndaş cəmiyyəti institutunun rəhbərləri Rauf Zeyni, Əliməmməd Nuriyev, Ədliyyə Nazirliyinin nümayəndəsi Elçin Xələfov prokurorluğun son 100 il ərzində keçdiyi və dövlət səviyyəsində yüksək dəyərləndirilən inkişaf yolu və həyata keçirilən islahatlar barədə məlumat verməklə Azərbaycan Respublikası Prokurorluğu orqanlarında qanunçuluq prinsiplərinin daim ön plana çəkildiyi, cəmiyyətdə prokurorluğa ictimai etimadın artdığı və onun nüfuzunun yüksəldiyini xüsusi vurğulayaraq, dövlətin bu mühüm təsisatının cəmiyyətin və dövlətin maraqlarının qorunmasında, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynadığını müsbət qiymətləndirmiş və bu istiqamətdə işlərin eyni intensivliklə davam etdiriləcəyinə inam ifadə olunmuşdur.

Baş prokurorun müavini tədbirə yekun vuraraq onun Azərbaycan Prokurorluğunun 100 illik yubileyi ilə bağlı keçirilən vacib tədbirlərdən biri olduğunu qeyd edib konfransın səmərəli, canlı müzakirələr və faydalı fikir mübadiləsi şəraitində keçdiyini bildirmişdir.

**Baş Prokurorluq**

# Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə keçirilmiş ağacəkmə aksiyası



Sentyabrın 22-də Baş Prokurorluğun, Respublika Hərbi, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə ağacəkmə aksiyası keçirmişdir.

Respublikamızda ictimai həyatın bütün sahələri ilə yanaşı, ekoloji mühitin mühafizəsinə, yeni yaşıllıq sahələrinin salınmasına xüsusi diqqət yetirilərək genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu gün müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyev tərəfindən əsası qoyulmuş ekoloji siyasət Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Abşeron yarımadasının ekoloji mühitinin yaxşılaşdırılması, paytaxtda yaşıllıq sahələrinin salınması və onların mühafizəsi ilə bağlı mövcud ənənəyə uyğun olaraq prokurorluq orqanlarının əməkdaşları Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə növbəti ağacəkmə aksiyası keçirmişdir.

Əməkdaşların fəallığı ilə müşayiət olunan tədbirdə Bakı – Heydər Əliyev Beynəlxalq Aeroportu avtomagistralının Suraxanı rayonu ərazisindən keçən hissəsində yarımadanın iqlim şəraitinə uyğun beş yüzdən artıq müxtəlif növ ağaclar əkilmiş, eyni zamanda həmin ərazidə ötən illərdə əkilmiş ağaclara aqrotexniki qulluq göstərilmiş və təmizlik-abadlıq işləri aparılmışdır.



Əkilən ağacların inkişafı üçün münbit torpaq və mineral gübrələrdən istifadə olunmuş, həmçinin onların küləkdən qorunması və mühafizəsi məqsədilə zəruri tədbirlər görülmüşdür. Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

**Baş Prokurorluq**

# Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc işçilərin andiçmə mərasimi keçirilib



Azərbaycan Prokurorluğunun yaradılmasının 100 illik yubileyi ərəfəsində prokurorluq orqanlarına işə qəbulla əlaqədar elan edilən müsabiqəyə yekun vurularaq 85 gənc hüquqşünasın prokurorluq orqanlarında müvafiq vakant ştat vahidlərinə stajor təyin olunublar. Bununla bağlı sentyabrın 28-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda gənc işçilərin andiçmə mərasimi keçirilib.

Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilən gənc işçilər ilk növbədə Fəxri Xiyabana gələrək xalqın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Şəhidlər xiyabanına gələn gənc hüquqşünaslar ölkənin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, “Əbədi məşəl” abidəsinin önünə tər çiçəklər qoyublar.

Tədbirdə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırıb ki, prokurorluğun kadr tərkibinin formalaşdırılmasının yeganə düzgün yolu kimi beynəlxalq standartlara uyğun şəffaf prosedur qaydalar əsasında gənc mütəxəssislərin işə qəbulu xalqın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə başlanan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla davam





etdirilən hərtərəfli məhkəmə-hüquq islahatları nəticəsində mümkün olub. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilən "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq, tam aşkarlıq şəraitində, şəffaf prosedurlarla, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələri nümayəndələrinin müşahidəsi ilə keçirilən müsabiqədə seçilən ən layiqli namizədlər müxtəlif vəzifələrə təyinatlar alıblar.

Prokurorluq orqanlarında işləmək arzusunu reallaşdırmaq üçün Baş Prokurorluğun Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə keçirdiyi qəbul prosesində iştirak edən gənc hüquqşünasların içərisindən ən layiqli 85 namizədin andiçmə mərasimi Azərbaycan Prokurorluğunun yaradılmasının 100 illik yubileyinə təsadüf edir.

2000-ci il aprelin 26-da ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən müşavirədə əsası qoyulmaqla, prokurorluqda bu gün də uğurla davam etdirilən hərtərəfli islahatlar prosesinin ən mühüm istiqamətlərindən biri kimi müsabiqə yolu ilə qulluğa qəbulun alternativi olmamaqla,



bu yol prokurorluğun kadr tərkibinin komplektləşdirilməsinin ən demokratik və mütərəqqi vasitəsidir. 2002-ci ildən başlayaraq keçirilən müsabiqələr nəticəsində işə qəbul edilmiş 865 gənc mütəxəssis hazırda prokurorluq işçilərinin ümumi sayının 67 faizini təşkil edir. Müsabiqə yolu ilə ilkin qəbulların nəticələrinə görə prokurorluqda qulluğa qəbul olunmaqla fəaliyyətləri dövründə xidməti vəzifələrinə vicdanlı münasibətləri və peşə hazırlığı səviyyəsinə görə seçilən bir çox gənc mütəxəssislər vəzifədə irəli çəkilib, o cümlədən Baş prokurorun köməkçisi, Baş Prokurorluğun idarə rəisinin müavini, şöbə rəisi, müstəqil rayon prokuroru və digər mühüm vəzifələrə təyinatlar alıblar.

Möhtərəm Prezident cənab İlham Əliyev prokurorluq orqanlarının yeniləşdirilməsi ilə əlaqədar qarşıda duran vəzifələri müəyyənləşdirərək deyib: “Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz – prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının yetişdirilməsidir.”. Bu gün prokurorluqda qulluğa qəbul olunan hər bir şəxs belə qayğıkeş münasibətdən özü üçün ciddi nəticə çıxarmalı və müasir Azərbaycan gəncinə qarşı irəli sürülən tələblərə layiq olmalıdır.

Baş prokurorunun müavini, Müsabiqə komissiyasının sədri Namiq Əsgərov qulluğa qəbulla əlaqədar müsabiqənin keçirilməsi ilə bağlı mərasim iştirakçılarına ətraflı məlumat verib.

Prokurorluqda qulluğa yeni qəbul olunan gənclərin vəzifələrə təyin edilməsi barədə Baş Prokurorluq üzrə əmr elan edilib, işə qəbul olunanlar Azərbaycan Respublikasının dövlət bayrağı önündə təntənəli surətdə and içiblər.

Tədbirdə çıxış edən gənclər prokurorluğa işə qəbulun obyektiv, ədalətli və beynəlxalq tələblərə uyğun keçirilməsi üçün yaradılan şəraitə görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını bildirib və onlara göstərilən yüksək etimadı doğruldacaqlarına söz veriblər.

Baş prokuror Zakir Qaralov tədbirə yekun vuraraq prokurorluğa qulluğa qəbul olunan gəncləri təbrik edib, prokurorluq işçisinin şərəfini həmişə uca tutacaqlarına əmin olduğunu bildirib.

Tədbir iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edilib.

**Baş Prokurorluq**

# Azərbaycan Prokurorluğunun yaranmasının 100 illiyi münasibətilə Hərbi Prokurorluqda keçirilmiş konfrans

Sentyabrın 24-də Respublika Hərbi Prokurorluğunda Azərbaycan Prokurorluğunun yaranmasının 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilmişdir. Konfransda Respublika Hərbi Prokurorluğu, Bakı hərbi prokurorluğunun əməkdaşları, prokurorluğun veteranları, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.



Tədbir iştirakçıları əvvəlcə qurumun inzibati binasında ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq nurlu xatirəsini dərin ehtiramla yad etmişlər.

Konfransı giriş nitqi ilə açan Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev Azərbaycan Prokurorluğunun bir əsrlik tarixinə nəzər salmışdır. Qeyd etmişdir ki, yarandığı gündən Azərbaycan Xalq Cümhuriyyətinin dövlət təsisatı, SSRİ prokurorluğunun tərkib hissəsi kimi, həmçinin ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra uzunmüddətli və mürəkkəb inkişaf yolu keçmiş Azərbaycanın milli prokurorluq orqanları zamanın sərt imtahanlarına məruz qalsa da, sınaqlardan məharətlə çıxaraq cəmiyyətdə hörmət və etibar qazanmışdır. Hərbi prokuror Xanlar Vəliyev vurğulamışdır ki, ümummilli lider Heydər Əliyev hüquq-mühafizə orqanlarının müstəqilliyinin təmin edilməsini respublikamızda həyata keçirilən hüquqi





islahatların əsas qayəsi və məqsədi kimi önə çəkmişdir. Yüz il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Bakı Dairə Məhkəməsinin nəzdində fəaliyyətə başlamış prokurorluq ulu öndərin hakimiyyətə qayıdışı ilə həyata keçirilən möhtəşəm və hərtərəfli islahatlar nəticəsində, hazırda tamamilə yenidən qurularaq, mütərəqqi normativ-hüquqi bazaya, demokratik məzmunlu fəaliyyət prinsiplərinə və iş metodlarına malik olan, cəmiyyətdə statusuna uyğun yerini tutmuş təsisata çevrilmişdir.

Respublikanın Hərbi prokuroru məhz ümummilli lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən hər il oktyabrın 1-nin "Prokurorluq işçilərinin peşə bayramı günü" kimi qeyd edilməsinin tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğa dövlət qayğısının ifadəsi, ölkəmizdə prokurorluğun roluna rəsmi münasibətin dövlət səviyyəsində təzahürü olduğunu bildirmişdir.

Qeyd olunmuşdur ki, müasir müstəqil Azərbaycanın banisi Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən bu gün də prokurorluğa dövlət qayğısı və diqqəti ən yüksək səviyyədədir. Prezidentin müvafiq fərman və sərəncamları ilə təsdiq olunmuş Dövlət proqramlarının icrası nəticəsində prokurorluq orqanlarında bütün istiqamətlər üzrə işin səmərəliliyinin, əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, həmçinin yeni nəsil prokurorluq işçilərinin formalaşdırılması və onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində konkret tədbirlər həyata keçirilmişdir.

Ulu öndərin "Mən, Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram" kəlamının bu gün də hər bir prokurorluq işçisinin qürur mənbəyi olmaqda davam etdiyini bildirən ədliyyə general-leytenantı Xanlar Vəliyev müstəqilliyinin 27-ci ilini yaşayan Azərbaycanın ümummilli lider Heydər Əliyev və onun ideyalarının sadiq davamçısı Prezident cənab İlham Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində böyük uğurları ilə dünyanın diqqət mərkəzində olduğunu, dövlət başçısının apardığı siyasətə xalqımızın tam dəstək verməsinin, iqtidar-xalq birliyinin formalaşmasının ölkəmizin əldə etdiyi və gələcəkdə qazanacağı uğurlarının təməlini təşkil etdiyini vurğulamışdır.

Respublikanın Hərbi prokuroru dövlət başçısı tərəfindən həyata keçirilmiş qətiyyətli addımlar nəticəsində ordumuzun qüdrətinin hər gün daha da artdığını diqqətə çatdırmışdır. Bildirmişdir ki, 2016-cı ilin aprel və 2018-ci il ilin may aylarında həyata keçirilmiş uğurlu döyüş əməliyyatları nəticəsində işğal altındakı torpaqlarımızın bir hissəsinin,

həmçinin Naxçıvan Muxtar Respublikasının 11 min hektar ərazisinin və Cünnüt kəndinin azad edilməsi ordumuzun yüksək döyüş ruhunu və qabiliyyətini, torpaqlarımızı azad etməyə hər an hazır olduğunu və qələbə əzmini əyani nümayiş etdirmişdir.

Tədbirdə iştirak edən Milli Məclisin deputatı Musa Quliyev və Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni Azərbaycan Respublikası Prokurorluğunun yaranmasının 100 illiyi və qarşıdan gələn prokurorluq işçilərinin peşə bayramı günü münasibəti ilə respublika hərbi prokurorluq orqanlarının əməkdaşlarının timsalında bütün prokurorluq əməkdaşlarını təbrik edərək onlara dövlətimizin və dövlətçiliyimizin cinayətkar qəsdlərdən qorunması istiqamətindəki yorulmaz fəaliyyətlərində uğurlar arzulamışlar. Qeyd olunmuşdur ki, vaxtilə ulu öndər Heydər Əliyevin və hazırda Prezident cənab İlham Əliyevin prokurorluq işçilərinin əməyinə verdikləri yüksək qiymət hər bir prokurorluq işçisində xalqına və dövlətinə sədaqət hissini gücləndirməklə böyük ruh yüksəkliyi və iftixar hissi yaradır və onları öz fəaliyyətlərinə daha tələbkar, məsuliyyətlə yanaşmağa səfərbər edir.



Sonra Bakı hərbi prokurorunun müavini Raul Şahverdiyev "Azərbaycan Prokurorluğunun yaranması və inkişaf tarixi", Respublika Hərbi Prokurorluğunun hüquqi təminat və kadrlar şöbəsinin böyük prokuroru, ədliyyə mayoru Vüsal Əliyev "Hərbi Prokurorluğun prokurorluq orqanları sistemində rolu, prokurorluğun müasirləşdirilməsi istiqamətində aparılan hüquqi islahatlar və prokurorluq orqanlarının fəaliyyətinin hüquqi təminatı", hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin prokuror-metodisti, ədliyyə polkovnik-leytenantı Mehman Poladov "Milli dövlətçiliyin möhkəmləndirilməsində və müasir dövrdə təşəkkül tapmasında prokurorluq orqanlarının iştirakı", Silahlı Qüvvələrdə qanun pozuntuları barədə məlumatların araşdırılması şöbəsinin rəisi, ədliyyə polkovniki Toğrul Hüseynov "Korrupsiyaya qarşı mübarizə prokurorluğun prioritet fəaliyyət istiqaməti kimi" mövzularında çıxışlar etmişlər.

Konfransa yekun vuran Respublika Hərbi prokuroru Xanlar Vəliyev prokurorluq orqanları işçilərinin qarşıdan gələn peşə bayramı günü və prokurorluğun yaradılmasının 100 illiyi münasibəti ilə prokurorluq orqanlarının hər bir işçisini, veteranları və onların ailə üzvlərini bir daha təbrik edərək, prokurorluğun yüksək mövqe tutan bir qurum kimi formalaşmasında ulu öndərin misilsiz xidmətlərini minnətdarlıqla vurğulamışdır. Prokurorluq orqanlarından yüksək diqqət və qayğısını əsirgəməyən Prezident cənab İlham Əliyevə dərin ehtiramını bildirərək əmin etmişdir ki, Azərbaycan Respublikası Hərbi Prokurorluğu bundan sonra da Silahlı Qüvvələrdə qanunçuluğun möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətini daim gücləndirəcək, insan hüquq və azadlıqlarının pozulmasına, cinayətkarlığa qarşı mübarizədə barışmaz mövqe tutacaq, insan amili ilə bağlı hər bir məsələdə həssaslıq göstərəcəkdir. Hərbi prokurorluğun əməkdaşları dövlətimizin əbədi yaşaması, xalqımızın rifahı naminə Heydər Əliyev ideallarına sədaqət nümayiş etdirəcək, qanunla üzərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəklər.

Tədbirdə xidməti fəaliyyətində fərqlənən bir qrup əməkdaş müxtəlif medallarla təltif olunmuş, həmçinin prokurorluğun veteranlarına hədiyyələr təqdim edilmişdir.

**Hərbi Prokurorluq**

# Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda keçirilmiş konfrans



Sentyabrın 18-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə konfrans keçirilmişdir.

Konfransda Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev çıxış edərək bildirmişdir ki, 100 illik şanlı tarixə malik olan Azərbaycanın prokurorluq orqanları bu dövr ərzində çətin, lakin şərəfli bir yol keçmiş, ədalətə və qanuna xidmət göstərmişdir. Milli prokurorluq orqanlarının əsası 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlaması ilə qoyulmuşdur.

Azərbaycan prokurorluq orqanlarının əsasının 1918-ci il oktyabrın 1-də qoyulmasına baxmayaraq, onun dövlətçilik maraqlarına, qanunun aliliyinə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə xidmət edən sivil və demokratik orqan kimi formalaşması, onun səmərəli fəaliyyətinin təşkili ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra respublikamızda qanunun aliliyi təmin olunmuş, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi mühüm prinsip kimi elan edilmişdir. Bu tədbirlərin tərkib hissəsi kimi 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır. Əsas Qanunda prokurorluq orqanlarının statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri qanunvericilik qaydasında təsbit edilmişdir.



Ulu öndərimiz deyirdi ki: "Mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram". Böyük dövlət xadiminin rəhbərliyi altında prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması baxımından hüquqi zəmin formalaşdırmışdır. "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin və digər normativ-hüquqi aktların təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Ulu öndər Heydər Əliyevin prokurorluq işçilərinə ünvanlanmış dəyərli tövsiyələri və prokurorluq peşəsinə verdiyi qiymət hər bir əməkdaşın xalqına və dövlətinə sədaqət hissini gücləndirməklə böyük ruh yüksəkliyi yaratmışdır. Ümummilli liderin "Prokurorluq peşəsi ağır çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız" sözlərini prokurorluq işçiləri öz fəaliyyətlərində əsas istiqamət kimi götürürlər.

Qeyd olunmuşdur ki, bu gün də ölkəmizdə Prokurorluq orqanlarının fəaliyyətinin gücləndirilməsi diqqət mərkəzində saxlanılır. Ulu öndərimizin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində bir sıra zəruri tədbirlər həyata keçirilmişdir. Dövlətimizin başçısı Prokurorluq orqanlarının inkişafını həm də peşəkar prokurorluq əməkdaşlarının hazırlanmasından asılı olduğunu bildirərək demişdir: "Zamanın ruhuna, yeni siyasi, iqtisadi, sosial reallıqlara uyğun olaraq, ölkəmizdə prokurorluq orqanlarının statusunda, səlahiyyətlərində və fəaliyyətində köklü dəyişikliklər baş vermiş, kard siyasətində ciddi dönüşün yaradılması və şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir ."

Milli dövlətçiliyə daim sədaqətlə xidmət edən, ictimai-siyasi sabitliyin, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində mühüm rol oynayan, fəaliyyəti Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Konstitusiyaları, "Prokurorluq haqqında" və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əsası Naxçıvan Diyar Xalq Komissarları Sovetinin 1923-cü il 15 fevral tarixli qərarı ilə qoyulmuş, 1924-cü il 9 fevral tarixdən isə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Xalq Ədliyyə Komissarı eyni zamanda Dövlət Prokurorluğuna da rəhbərlik etmiş, 1937-ci ildən Prokurorluq orqanlarının hüquqi vəziyyəti Naxçıvan MSSR Konsititusiyasında təsbit edilərək, həmin dövrdən Naxçıvan MSSR Prokurorluğu adı ilə müstəqil fəaliyyət göstərmiş, 1990-cı il 17 noyabr tarixdən isə Naxçıvan Muxtar Respublikası Prokurorluğu adlandırılmışdır.

Vurğulanmışdır ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti də Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, eləcə də digər qanunvericilik aktları ilə tənzimlənir.

Muxtar respublika prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri isə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində təsbit edilmiş, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanununa əsasən, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Məhkəmə-hüquq islahatları çərçivəsində qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, istintaq və təhqiqat, eləcə də cinayət mühakimə icraatı zamanı dövlət ittihamının müdafiəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mühüm səlahiyyətlər verilmişdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti də Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, eləcə də digər qanunvericilik aktları ilə tənzimlənir. Muxtar respublika prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri isə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində təsbit edilmiş, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanununa əsasən, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir.

Məhkəmə-hüquq islahatları çərçivəsində qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, istintaq və təhqiqat, eləcə də cinayət mühakimə icraatı zamanı dövlət ittihamının müdafiəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mühüm səlahiyyətlər verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: "Müstəqil dövlətin əsas sütunu onun hüquq-mühafizə orqanlarıdır. Hər bir ölkənin ümumi sabitliyi, sosialiqtisadi inkişafı, ilk növbədə, həmin ölkənin hüquq-mühafizə orqanlarının fəaliyyətindən asılıdır. Ona görə də bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə və maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir".

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları yüksək dövlət qayğısını daim öz üzərində hiss etmişdir. Ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur rayon prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalistik avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan şəhər və Babək rayon prokurorluqları üçün də yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Cinayət hadisələrinin qarşısının vaxtında alınmasında qabaqlayıcı-profilaktik tədbirlərin həyata keçirilməsi mühüm amildir. Muxtar respublikanın prokurorluq orqanları işçiləri qanunvericiliyin izahı, hüquqi maarifləndirmə və profilaktik tədbirlərin keçirilməsini diqqət mərkəzində saxlayaraq kütləvi informasiya vasitələrinin gücündən səmərəli istifadə etməyə çalışırlar. Bunun nəticəsidir ki, son illər Naxçıvan Muxtar Respublikasında cinayət hadisələrinin sayı dəfələrlə azalmışdır.

Prokurorluq orqanlarına işə qəbulun şəffaf şəraitdə, müsabiqə yolu ilə keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına təkmilləşdirilməsinə səbəb olmuşdur. Prokurorluq orqanlarına işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna muxtar respublika ərazisində yaşayış yeri üzrə qeydiyyata alınmış şəxsləri prokurorluq orqanlarına işə qəbul etmək səlahiyyəti verilmişdir. Bu səlahiyyətdən istifadə edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar. Həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində görülən tədbirlər nəticəsində prokurorluq orqanları struktur və mahiyyət baxımından tam yenidən qurularaq onun mütərəqqi normativ-hüquqi baza əsasında fəaliyyət göstərən çevik və işlək dövlət təsisatı kimi formalaşmasına nail olunmuşdur.

Sonda əminliklə ifadə olunmuşdur ki, bu gün 100 illik yubileyini qeyd edən prokurorluq orqanlarının əməkdaşları bundan sonra da ümummilli lider Heydər Əliyevin siyasi xəttinin davam etdirilməsində, dövlətçiliyin qorunması, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı mudafiəsində səylə çalışacaqlar.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda keçirilmiş tədbir





Oktyabrın 1-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə tədbir keçirilmişdir.

Yubiley tədbirində çıxış edən Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev yüksək dövlət təltifinə layiq görüldüyü üçün minnətdalığını bildirərək qeyd etmişdir ki, bu gün prokurorluq orqanlarının yaradılmasının 100 ili tamam olur. Bu sevinci bizə müstəqil Azərbaycan dövlətinin qurucusu ümummilli lider Heydər Əliyev hər il oktyabr ayının 1-nin "Prokurorluq işçilərinin peşə bayramı günü" kimi qeyd edilməsi barədə 1998-ci il iyulun 17-də imzaladığı Sərəncamla bəxş etmişdir.

Azərbaycanda prokurorluq orqanlarının əsasının 1918-ci il oktyabr ayının 1-də qoyulmasına baxmayaraq, onun dövlət orqanı kimi formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra respublikamızda qanunun aliliyi təmin olunmuş, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi mühüm prinsip kimi elan edilmişdir. Bu tədbirlərin tərkib hissəsi kimi 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır. Bu dövrdən başlayaraq ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu konsepsiyasına uyğun olaraq, prokurorluq orqanlarında köklü islahatlara başlanılmışdır. "Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz layiqli yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiq xidmət edir", – deyən ulu öndərin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur.

Bu dövrdən başlayaraq ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu konsepsiyasına uyğun olaraq prokurorluq orqanlarında köklü islahatlara başlanılmışdır. "Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz layiqli yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiq xidmət edir", – deyən ulu öndərin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur.

Azərbaycan Respublikasının dövlət təsisatları sırasında xüsusi yeri və statusu olmaqla, fəaliyyəti Konstitusiya normaları ilə nizama salınan prokurorluq orqanları yarandığı gündən indiyədək mürəkkəb, lakin eyni zamanda çox şərəfli bir inkişaf yolu keçmiş, zamanın çətin sınaqları ilə üzləşməsinə baxmayaraq, bütün imtahanlardan üzüağ çıxmaqla, xalqımıza və müstəqil dövlətçiliyimizin maraqlarına xidmət edən sivil və demokratik bir quruma çevrilmişdir. Hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizədə digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi, prokurorluğun işində müa-

sir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, beynəlxalq əlaqələrin genişləndirilməsi, işçilərin sosial təminatının daha da yaxşılaşdırıması kimi tədbirlərin keyfiyyətli icrası mühüm əhəmiyyət kəsb edir.

Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması baxımından hüquqi zəmin formalaşdırmışdır. "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin və digər normativ-hüquqi aktların təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Ölkəmizdə bu gün həyata keçirilən ardıcıl məhkəmə-hüquq islahatları hüquq sisteminin demokratik standartlara cavab verən səviyyədə formalaşmasına, insane hüquq və azadlıqlarının daha mötəbər formada qorunmasına, o cümlədən prokurorluq orqanlarının tam yeniləşərək müasir məzmunlu sivil bir orqana çevrilməsinə zəmin yaratmışdır. Ulu öndərimizin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Dövlət başçısı prokurorluq orqanlarının inkişafının həm də peşəkar prokurorluq əməkdaşlarının hazırlanmasından asılı olduğunu bildirərək demişdir: "Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən sağlam mənəviyyata, geniş dünyagörüşə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır".

Qeyd olunmuşdur ki, Muxtar Respublikanın prokurorluq orqanları da həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquqmühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur rayon prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalistik avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan şəhər və Babək rayon prokurorluqları üçün də yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyə və tapşırıqlarına uyğun olaraq cinayət hadisələrinin qarşısının alınması üçün profilaktik tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, muxtar respublika cinayətkarlığın səviyyəsi baxımından ən stabil regiona çevrilmiş, cinayət hadisələrinin sayı dəfələrlə azalmışdır. Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: "Davamlı iqtisadi inkişaf, yeni iş yerlərinin açılması, gənclərin səmərəli məşğulluğunun təmin edilməsi muxtar respublikada cinayətkarlığın aşağı səviyyədə olmasını təmin etmişdir. Hüquq-mühafizə orqanları yaradılan şəraitdən istifadə edərək maarifləndirmə-profilaktika tədbirlərini düzgün təşkil etməli, nizam-intizamı daim möhkəmləndirməli, ictimaiasayişin qorunması üçün səylə çalışmalıdırlar". Bu gün muxtar respublikanın prokurorluq orqanları profilaktik tədbirlərin təsirliliyinin artırılmasını diqqət mərkəzində saxlayırlar. Çünki demokratik dövlət quruculuğunda insanların hərtərəfli hüquqi düşüncəyə və hüquq mədəniyyətinə malik olmaları əsas şərtlərdəndir. Hüquq maarifinin yüksək səviyyədə olmasını muxtar respublika prokurorluğunun əməkdaşları özləri üçün əsas vəzifə hesab edərək bu istiqamətdə işlərini günün tələbləri səviyyəsində qurmağa çalışırlar.

Prokurorluq orqanlarına işə qəbulun müsabiqə qaydasında keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına komplektləşdirilməsi üçün ciddi zəmin yaratmışdır. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq Muxtar Respublika Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və nəticədə, gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar. Həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində görülən tədbirlər nəticəsində prokurorluq orqanları struktur və mahiyyət baxımından yenidən qurularaq onun mütərəqqi normativ-hüquqi baza əsasında fəaliyyət göstərən çevik və işlək dövlət təsisatı kimi formalaşmasına nail olunmuşdur.

Sonda əminliklə ifadə olunmuşdur ki, bu gün 100 illik yubileyini qeyd edən prokurorluq orqanları öz fəaliyyətinin dövlət səviyyəsində göstərilən etimada layiq təşkili üçün bütün zəruri tədbirlərin görülməsini təmin edəcək, səlahiyyət hədləri daxilində regionun ən qabaqcıl ölkəsinə çevrilmiş ölkəmizdə aparılan müasir məzmunlu yenidənqurma və mütərəqqi islahatların həyata keçirilməsində öz xidmətlərini göstərəcək, digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə bu quruculuq işlərinin əsas təminatları kimi ictimai-siyasi sabitliyin və əmin-amanlığın, dövlətçiliyimizin və milli maraqlarımızın, xalqın mənafeyinin cinayətkar qəsdlərdən qorunması işində yaxından iştirak edəcəkdir.

Tədbirdə təltif olunan prokurorluq əməkdaşları çıxış edərək onlara göstərilən yüksək ehtimada görə minnətdarlıqlarını bildirdilər.

Sonda bir qrup prokurorluq əməkdaşına mükafatlar təqdim olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə Bakı şəhər prokurorluğunda keçirilmiş tədbir

Oktyabrın 1-də Bakı şəhər prokurorluğunda mərkəzi aparatın və tabe rayon (şəhər) prokurorluqları işçilərinin iştirakı ilə Azərbaycan Prokurorluğunun yaranmasının 100 illiyinə və prokurorluq orqanları işçilərinin peşə bayramı gününə həsr olunmuş tədbir keçirilmişdir.



Tədbirdə çıxış edən Bakı şəhər prokuroru İlqar Abbasov Azərbaycan Prokurorluğunun 100 illik tarixindən danışmışdır. Qeyd edilmişdir ki, ölkəmizdə ilk prokurorluq orqanı Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində yaradılmaqla fəaliyyətə başlamış, 1920-ci il aprel ayının 28-də bolşevik işğalı nəticəsində Xalq Cumhurriyyəti süquta yetirildikdən sonra Azərbaycan İnqilab Komitəsinin 12 may 1920-ci il tarixli "Xalq məhkəməsi haqqında" dekreti ilə prokurorluq və istintaq orqanları ləğv edilmiş, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 11 iyul 1922-ci il tarixli "Azərbaycan SSR-nin dövlət prokurorluğu haqqında" Dekreti ilə Azərbaycan SSR-də sovet prokurorluğunun əsası qoyulmuşdur.

Xüsusilə vurğulanmışdır ki, ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtmasından sonra Azərbaycan prokurorluğunun dünya standartlarına uyğun, demokratik və müasir tələblərə cavab verən orqan kimi formalaşması prosesi başlanmışdır. Ulu öndər Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə oktyabr ayının 1-nin respublikada prokurorluq orqanları əməkdaşlarının peşə bayramı günü elan olunması bu orqanın fəaliyyətinə verilən yüksək qiymətin təcəssümüdür. Dahi öndər Heydər Əliyevin layiqli siyasi davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən prokurorluğa daim dövlət səviyyəsində diqqət və qayğı göstərilir, prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yüksəldilməsi məqsədilə Dövlət başçısının sərəncamı ilə təsdiq edilmiş Dövlət proqramı bu dövlət

orqanının müasir dövrün yüksək tələbləri səviyyəsində inkişafında xüsusi əhəmiyyətə malik olmuşdur.

Diqqətə çatdırılmışdır ki, həyata keçirilən hüquqi islahatların nəticəsi olaraq Bakı şəhər prokurorluğu da inkişaf yolu keçmiş, qarşısında dayanan vəzifələrin yerinə yetirilməsi istiqamətində uğurlar əldə etmişdir. Ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq, Azərbaycan Respublikası Baş prokurorunun rəhbərliyi ilə həyata keçirilən köklü islahatlar Azərbaycan prokurorluğunu, o cümlədən Bakı şəhər prokurorluğunu insan hüquq və azadlıqlarının layiqli qarantına çevirən etibarlı dövlət orqanı kimi formalaşdırmışdır.

Tədbirdə çıxış edən Bakı şəhər prokurorunun müavini Azər Əsgərov və Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi Abdulla Yusifov prokurorluq orqanlarının keçdiyi şərəfli tarixdən bəhs edərək, prokurorluq orqanlarının dövlət orqanları sistemindəki rolunu diqqətə çatdırmışlar.



Yekun çıxışında Bakı şəhər prokuroru İlqar Abbasov prokurorluq orqanları işçilərinin peşə bayramı günü və prokurorluğun yaradılmasının 100 illiyi münasibəti ilə prokurorluq orqanlarının hər bir əməkdaşını, onların ailə üzvlərini təbrik edərək, prokurorluğa göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə minnətdarlığını bildirmişdir. İlqar Abbasov əmin etmişdir ki, Bakı şəhər prokurorluğu bundan sonra da dövlətçiliyimizin, suverenliyimizin qorunması, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, paytaxtımızda cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində yüksək məsuliyyət hissi ilə çalışacaqdır.

Tədbirin sonunda Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmri ilə barələrində həvəsləndirmə tədbirləri tətbiq edilmiş əməkdaşlara mükafatlar təqdim edilmişdir.

**Bakı şəhər prokurorluğu**

# Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə Bakı şəhərinin rayon prokurorluqlarında keçirilmiş tədbirlər

*Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə Bakı şəhərinin rayon prokurorluqlarında tədbirlər keçirilib.*

## BAKI ŞƏHƏRİ, XƏTAİ RAYON PROKURORLUĞU



Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə sentyabrın 14-də Bakı şəhərinin Xətai rayon prokurorluğunda rayon hüquq-mühafizə orqanlarının əməkdaşları və prokurorluq orqanları veteranlarının iştirakı ilə tədbir keçirilib.

Tədbirdə Azərbaycan Prokurorluğunun yaranma tarixi və inkişafı mövzusunda çıxışlar edilib. Veteranlara qiymətli hədiyyə, kitablar və digər hədiyyələr təqdim olunub, sosial-məişət qayğıları ilə maraqlanılıb.

Rayon prokuroru Yusif İldırımzadənin "Prokurorluq orqanlarının əsas hədəfi qanunun aliliyinin təmin olunmasıdır" mövzusunda kütləvi informasiya vasitəsində məqaləsi dərc olunub.

Sentyabrın 18-də Xətai rayon İcra Hakimiyyətində millət vəkillərinin, hüquq-mühafizə orqanları əməkdaşlarının, prokurorluq işçilərinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Azərbaycanda prokurorluq orqanlarının yaranmasının 100 illik yubileyinə həsr olunan təntənəli tədbir keçirilib.

Tədbir iştirakçıları öncə Xətai rayonu ərazisində ulu öndər Heydər Əliyevin adını daşıyan parka gələrək onun abidəsi önünə qızılgül dəstələri düzüblər.



Sonra İcra Hakimiyyəti aparatının akt zalında keçirilən toplantını Xətai rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov açaraq prokurorluq orqanlarının dövlətin hüquq sitemindəki yerindən və ölkədə qanunun aliliyinin təmin olunmasındakı rolundan danışıb bildirdi ki, prokuror peşəsinə və bu





vəzifəni daşıyan insanların zəhmətinə ümummilli lider Heydər Əliyevdən dəqiq və yüksək qiymət vermək çox çətindir. Ulu öndər deyirdi: “Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda, çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız”. Prokurorluğu və onun əməkdaşlarının zəhmətini belə yüksək qiymətləndirdiyinə görə də Prezident Heydər Əliyev1998-ci il iyulun 17-də Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin nəzdində prokurorluğun fəaliyyətə başladığı günün milli prokurorluğun yaranması tarixi kimi qeyd edilməsi barədə sərəncam imzaladı.



Çıxışının sonunda rayon prokurorluğunun simasında ölkənin bütün prokurorluq orqanlarında çalışan insanları təbrik edən natiq çətin və şərəfli işlərində onlara uğurlar diləyib. Əmin olduğunu bildirib ki, ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu strateji inkişaf konsepsiyasının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsində prokurorluq orqanları, o cümlədən Xətai rayon prokurorluğu qüvvələrini heç zaman əsirgəməyəcəklər.

Tədbirdə geniş məruzə ilə çıxış edən Xətai rayon prokuroru Yusif İldırımzadə qeyd edib ki, Azər-

baycan Prokurorluğu 100 illik fəaliyyəti dövründə şərəfli yol keçib. Müstəqil Azərbaycan dövlətinin prokurorluq orqanlarının tarixinin Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf etdiyini bildirən natiq qeyd edib ki, ötən 100 ildə ölkəmizin prokurorluq orqanları qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydalarının qorunmasına xidmət edən orqana çevrilməklə zəngin inkişaf yolu keçib. Amma bu yolun ən parlaq inkişaf mərhələsi ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illərə, xüsusilə onun 1993-cü ildə müstəqil Azərbaycanın dövlət idarəçiliyinə qayıdışından sonra başlanıb. Həmin dövr, sözün əsl mənasında, prokurorluq orqanlarının fəaliyyətində yeni bir mərhələdir.

Çıxışda ulu öndərin siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərdən də geniş söhbət açılıb. Qeyd edilib ki, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı”nın reallaşdırılması nəticəsində prokurorluq orqanlarının fəaliyyəti və strukturu son dərəcə təkmilləşdirilib, kadr potensialı gücləndirilib, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlıqlarının artırılması, habelə əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi addımlar atılıb.



Toplantıda çıxış edən Milli Məclisin deputatı Hüseynbala Mirələmov, İcra Hakimiyyətinin İctimai-siyasi məsələlər şöbəsinin müdiri Pənah İmanov və başqaları prokurorluğun 100 ildə keçdiyi inkişaf yolu, prokurorluq orqanlarında qanunçuluğun qorunmasını, cəmiyyətdə bu dövlət təsisatına ictimai etimadın artdığını, nüfuzunun yüksəldiyini xüsusi qeyd edərək bu orqanlarda çalışan əməkdaşlara yeni-yeni nailiyyətlər arzulayıblar.



Sonda rayon prokurorluğunun fərqlənən bir neçə əməkdaşına Xətai rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanları təqdim edilib.

## BAKI ŞƏHƏRİ, NƏRİMANOV RAYON PROKURORLUĞU

Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə sentyabrın 7-də Bakı şəhərinin Nərimanov rayon prokurorluğunda rayon hüquq-mühafizə orqanlarının əməkdaşları, prokurorluq orqanlarının veteranları və ictimaiyyət nümayəndələrinin iştirakı ilə görüş keçirilib.



Nərimanov rayon prokuroru Vüqar Əliyev görüşdə xalqın ümummilli lideri Heydər Əliyevin Azərbaycan Prokurorluğunun formalaşdırılmasında rolu, onun siyasətini uğurla davam etdirən dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə prokurorluğa göstərilən dövlət qayğısından danışıb.

Görüşdə iştirak edən prokurorluq orqanlarının veteranları Yusif Cəlili və Əli Bayramov çıxış edərək həyat təcrübələrindən bəhs ediblər, gənc prokurorluq işçilərinə dəyərli tövsiyələrini veriblər. Rayon Ağsaqqallar Şurasının sədri, Şuranın üzvü, rayon polis idarəsinin rəis müavini dövlət təsisatları sırasında xüsusi çəkisi olan prokurorluğun vətəndaşların hüquq və azadlıqlarının qorunması, qanuni mənafelərinin təmin olunmasında rolundan danışaraq bayram təbriklərini çatdırıblar.



Sentyabrın 14-də rayon prokurorluğunda "Ümummilli lider Heydər Əliyev və Azərbaycan Prokurorluğu" mövzusunda seminar keçirilib. Seminarda rayon prokurorluğunun işçiləri tərəfindən "Ümummilli lider Heydər Əliyevin gənclər siyasəti prokurorluqda uğurla həyata keçirilir", "Azərbaycan milli prokurorluq orqanlarının formalaşmasında ümummilli lider Heydər Əliyevin rolu" mövzularında çıxışlar edilib.



Sentyabrın 26-da Nərimanov rayon İcra Hakimiyyətində Azərbaycan Respublikası Prokurorluğunun yaranmasının 100 illiyinə həsr olunan tədbir keçirilib.

Tədbirdən öncə rayon İcra Hakimiyyəti və rayon prokurorluğunun rəhbərliyi İcra Hakimiyyətinin inzibati binasının foyesində xalqın ümummilli lideri Heydər Əliyevin büstü önünə tər gül dəstələri qoyaraq ulu öndərin əziz və parlaq xatirəsini ehtiramla yad ediblər.

Tədbiri giriş sözü ilə açan Nərimanov rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev Azərbaycan Respublikası Prokurorluğunun yaranmasının 100 illiyi və qarşıdan gələn prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə rayon prokurorluğunun işçilərinin timsalında bütün prokurorluq işçilərini təbrik edərək onlara dövlətimizin və dövlətçiliyimizin cinayətkar qəsdlərdən qorunması istiqamətindəki yorulmaz fəaliyyətlərində uğurlar arzulayıb.

Abdin Fərzəliyev yüz il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Bakı Dairə Məhkəməsinin nəzdində fəaliyyətə başlamış və uzunmüddətli və mürəkkəb inkişaf yolu keçmiş Azərbaycanın prokurorluq orqanlarının xalqın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə həyata keçirilən möhtəşəm və hərtərəfli islahatlar nəticəsində, hazırda tamamilə yenidən qurularaq, mütərəqqi normativ-hüquqi bazaya, demokratik məzmunlu fəaliyyət prinsiplərinə və iş metodlarına malik olan, cəmiyyətdə statusuna uyğun yerini tutmuş təsisata çevrildiyini vurğulayaraq, müasir Azərbaycanın banisi ulu öndər Heydər Əliyevin siyasi irsinin ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün də prokurorluğa dövlət qayğısı və diqqətin ən yüksək səviyyədə olduğunu, dövlətimizin başçısının müvafiq fərman və sərəncamları ilə təsdiq olunmuş Dövlət proqramlarının icrası nəticəsində prokurorluq orqanlarında bütün istiqamətlər üzrə işin səmərəliliyinin, əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, həmçinin yeni nəsil prokurorluq işçilərinin formalaşdırılması və onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində konkret tədbirlər həyata keçirildiyini diqqətə çatdırıb.

Sonra çıxış edən rayon prokuroru Vüqar Əliyev səmimi təbriklərə görə öz adından və rəhbərlik etdiyi qurumun kollektivi adından rayon rəhbərliyinə dərin minnətdarlıq bildirərək, xalqımızın rifahı naminə Heydər Əliyev ideallarına sədaqət nümayiş etdirəcəklərini, qanunla üzərlərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəklərini, qanunçuluğun möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətlərini daim gücləndirəcəklərini, insan hüquq və azadlıqlarının pozulmasına, cinayətkarlığa qarşı mübarizədə barışmaz mövqe tutacaqlarını əmin edib. Vüqar Əliyev vaxtilə ulu öndər Heydər Əliyevin və hazırda Prezident cənab İlham Əliyevin prokurorluq işçilərinin əməyinə verdikləri yüksək qiymətin hər bir prokurorluq işçisində xalqına və dövlətinə sədaqət hissini gücləndirməklə böyük ruh yüksəkliyi və iftixar hissi yaratdığını və onları öz fəaliyyətlərinə daha tələbkar, məsuliyyətlə yanaşmağa səfərbər etdiyini xüsusi vurğulayıb.

Daha sonra İcra Hakimiyyəti başçısı yanında Şuranın üzvləri çıxış edərək prokurorluq işçilərinin bundan sonra da üzərilərinə düşən bütün vəzifələri yüksək keyfiyyətlə yerinə yetirərək Vətənimizə, xalqımıza və dövlətimizə sədaqətlə xidmət etməklə fəaliyyətlərini qanunvericiliyin müəyyən etdiyi tələblər səviyyəsində quracaqlarına, insan hüquq və azadlıqlarının müdafiəsində, ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunmasında, cinayətkarlığa qarşı mübarizənin aparılmasında yeni nailiyyətlər əldə edəcəyinə əminlik ifadə ediblər.

Sonda xidməti fəaliyyətində fərqlənən rayon prokurorluğunun bir qrup işçilərinə rayon İcra Hakimiyyətinin fəxri fərmanı və hədiyyələri təqdim edilib.

## BAKI ŞƏHƏRİ, NƏSİMİ RAYON PROKURORLUĞU



Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə sentyabrın 12-də Bakı şəhərinin Nəsimi rayon prokurorluğunda prokurorluq orqanlarının veteranları, rayon hüquq-mühafizə orqanlarının əməkdaşları və ictimaiyyət nümayəndələrinin iştirakı ilə tədbir keçirilib.

Prokurorluq orqanlarının veteranları ilə keçirilən tədbirdə veteranlar – Qoşqarov Arif Səməd oğlu, Həsənov Arif Hızır oğlu, Həmidov Ənvər Qüdrət oğlu, Məmmədov Əhmədəli Məmməd oğlu prokurorluqda fəaliyyətləri ilə bağlı xatirələrindən danışıb gənc işçilərə tövsiyələrini veriblər.

31 avqust 1993-cü ildə torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə Qubadlı rayonunda şəhid olan prokurorluq işçisi Vəliyev Əhməd Əyyub oğlunun Nəsimi rayon ərazisində yaşayan ailəsi ilə əlaqə saxlanılaraq zəruri qayğı göstərilib.

## BAKI ŞƏHƏRİ, NİZAMİ RAYON PROKURORLUĞU




Sentyabrın 13 və 18-də Bakı şəhərinin Nizami rayon prokurorluğunda prokurorluq orqanlarının veteranları, rayon hüquq-mühafizə orqanlarının əməkdaşları və ictimaiyyət nümayəndələrinin iştirakı ilə tədbirlər keçirilib.

Şəhid olan prokurorluq işçisi Ağayev Nizami Mənsiməli oğlunun Nizami rayon ərazisində yaşayan ailəsi ilə əlaqə saxlanılaraq zəruri qayğı göstərilib. Rayon prokurorluğu işçilərinin "Bir əsrlik tarixə sahib olan orqan", "Azərbaycan Prokurorluğu xalqın və müstəqil dövlətçiliyin maraqlarına xidmət edən qurum kimi formalaşıb" mövzularında kütləvi informasiya vasitələrində məqalələri dərc olunub.



## BAKI ŞƏHƏRİ, QARADAĞ RAYON PROKURORLUĞU

1 Oktyabr – Prokurorluq işçilərinin peşə bayramı günü münasibəti ilə sentyabrın 29-da Qaradağ rayon İcra Hakimiyyətinin akt zalında tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan Qaradağ rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov peşə bayramı münasibəti ilə bütün prokurorluq işçilərini təbrik edib, prokurorluq orqanlarının müstəqil dövlətimizə uyğun formalaşmasında ümummilli lider Heydər Əliyevin müstəsna rolunun olduğunu qeyd edib.



Tədbirdə Süleyman Mikayılov Prezident İlham Əliyevin xüsusi diqqət və qayğıkeşliyini vurğulayaraq bildirib ki, Azərbaycan Respublikası Prokurorluğu qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət edir.

Prokurorluq sistemində səmərəli fəaliyyətinə görə və prokurorluq işçilərinin peşə bayramı günü münasibəti ilə rayon prokurorluğunun bir neçə işçisi rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanı və xatirə hədiyyəsi ilə təltif olunub.



## BAKI ŞƏHƏRİ, XƏZƏR RAYON PROKURORLUĞU



Oktyabrın 1-də Xəzər rayon İcra Hakimiyyətində "1 oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü" və prokurorluq orqanlarının yaranmasının 100 illiyi münasibətilə tədbir keçirilib.

Tədbirdə Xəzər rayon İcra Hakimiyyətinin başçısı Gülağa İslamov, rayon İcra hakimiyyətinin rəhbərliyi, rayon prokurorluğunun işçiləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Gülağa İslamov peşə bayramı münasibəti ilə bütün prokurorluq işçilərini təbrik edib, prokurorluq orqanlarının müstəqil dövlətimizə uyğun formalaşmasında ümummilli lider, ulu öndər Heydər Əliyevin müstəsna rolunun olduğunu qeyd edib.



Tədbirdə çıxış edən Xəzər rayon prokuroru Fəxri Ələsgərov göstərilən diqqətə görə ölkə başçısı cənab İlham Əliyevə və rayon rəhbərliyinə təşəkkürünü bildirib.

Sonda rayon prokurorluğunun bir qrup işçisi prokurorluq sistemində səmərəli fəaliyyətinə görə rayon İcra Hakimiyyətinin başçısının fəxri fərmanı ilə təltif olunublar.

***

Yubiley ilə əlaqədar Bakı şəhərinin Səbail, Yasamal, Binəqədi, Suraxanı, Sabunçu, Pirallahı rayon prokurorluqlarında da rayon hüquq-mühafizə orqanlarının əməkdaşları, prokurorluq orqanlarının veteranları və ictimaiyyət nümayəndələri ilə görüşlər keçirilib, seminarlar təşkil olunub, kütləvi informasiya vasitələrində çıxışlar edilib, şəhid olan prokurorluq işçilərinin ailə üzvləri ilə görüşülərək müvafiq qayğı göstərilib. Eyni zamanda yubiley tədbiri rayon İcra Hakimiyyətlərində təntənəli şəkildə qeyd



*Bakı şəhəri, Səbail rayon prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*

olunub, rayon prokurorluqlarının bir sıra işçiləri rayon İcra Hakimiyyəti başçılarının fəxri fərmanları və xatirə hədiyyələri ilə təltif olunublar.



*Bakı şəhəri, Binəqədi rayon prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*



*Bakı şəhəri, Yasamal rayon prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*






*Bakı şəhəri, Suraxanı rayon prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*



*Bakı şəhəri, Sabunçu rayon prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*

**Bakı şəhərinin rayon prokurorluqları**

# Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə tabe rayon (şəhər) prokurorluqlarında keçirilmiş tədbirlər

*Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə tabe rayon (şəhər) prokurorluqlarında tədbirlər keçirilib.*

## ABŞERON RAYON PROKURORLUĞU



1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan prokurorluq orqanlarının yaranmasının 100 illiyi münasibətilə sentyabrın 12-də Abşeron rayon prokurorluğunda rayon İcra Hakimiyyətinin rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları və prokurorluğun veteranlarının iştirakı ilə tədbir keçirilib.

Tədbirdə prokurorluq orqanlarının bütün işçilərini, təqaüddə olan veteranları Azərbaycan Prokurorluğunun 100 illik yubileyi və qarşıdan gələn peşə bayramı münasibətilə təbrik edən Abşeron rayon prokurorunun müavini Nail Əliyev bildirib ki, Azərbaycan Milli Prokurorluğunun yaranmasının 100-cü ildönümünü qeyd edən prokurorluq orqanları çətin və mürəkkəb, eyni zamanda şərəfli bir inkişaf yolu keçərək formalaşıb, hansı şəraitdə fəaliyyət göstərməsindən asılı olmayaraq son nəticədə millətinə və dövlətçilik ideyalarına sədaqətlə qulluq edib, qanunçuluğun möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizə işində müstəsna xidmətlər göstərib. Nail Əliyev qeyd edib ki, prokurorluq orqanlarının müstəqil dövlətimizə uyğun formalaşmasında xalqın ümummilli lideri Heydər Əliyevin müstəsna rolu olub. Prezident İlham Əliyev də prokurorluq işçilərinə hər zaman diqqət və qayğıkeşliklə yanaşıb. Bunun nəticəsidir ki, prokurorluq əməkdaşlarının əmək haqları xeyli artırılıb, şəxsi heyətin məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılıb.

Sonra prokurorluğun veteranları Munis Abuzərli, Hafiz Məmmədov və Səyyaf Qubadov çıxış edərək prokurorluq orqanları fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülən işlərdən, əldə edilən uğurlardan danışıblar.

***



1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan prokurorluq orqanlarının yaranmasının 100 illiyi münasibətilə oktyabrın 1-də Abşeron rayon prokurorluğunun işçiləri və hüquq-mühafizə orqanlarının rəhbərləri Heydər Parkına gələrək ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib qarşısına gül dəstələri qoyublar.

Abşeron rayon Heydər Əliyev Mərkəzində keçirilən toplantıda çıxış edən rayon İcra Hakimiyyə-





tinin başçısı İradə Gülməmmədova prokurorluq orqanlarının dövlətin hüquq sistemindəki yerindən və ölkədə qanunun aliliyinin təmin olunmasındakı rolundan danışıb. Bildirib ki, prokuror peşəsinə və bu vəzifəni daşıyan insanların zəhmətinə Heydər Əliyevdən dəqiq və yüksək qiymət vermək çox çətindir: "Ulu öndər deyirdi: "Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda, çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız".

Çıxışının sonunda rayon prokurorluğunun simasında ölkənin bütün prokurorluq orqanlarında çalışan insanları təbrik edən başçı çətin və şərəfli işlərində onlara uğurlar diləyib. Əmin olduğunu bildirib ki, Heydər Əliyevin təməlini qoyduğu strateji inkişaf konsepsiyasının prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsində prokurorluq orqanları, o cümlədən Abşeron rayon prokurorluğu qüvvələrini heç zaman əsirgəməyəcək.

Tədbirdə geniş məruzə ilə çıxış edən Abşeron rayon prokuroru Rahib Seyidov qeyd edib ki, Azərbaycan Prokurorluğu 100 illik fəaliyyəti dövründə şərəfli yol keçib. O, qeyd edib ki, prezident İlham Əliyev prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçirib. Prokurorluq orqanlarının fəaliyyəti və strukturu son dərəcə təkmilləşdirilib, kadr potensialı gücləndirilib, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlıqlarının artırılması, habelə əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi addımlar atılıb.

Toplantıda çıxış edən Abşeron rayon məhkəməsinin hakimi Şövkət Nəcəfova, Abşeron rayon Ağsaqqallar Şurasının sədri Nadir Ağayev, prokurorluğun veteranı Munis Abuzərli və başqaları prokurorluğun 100 ildə keçdiyi inkişaf yoluna nəzər salıb, prokurorluq orqanlarında qanunçuluğun qorunmasını, cəmiyyətdə bu dövlət təsisatına ictimai etimadın artdığını, nüfuzunun yüksəldiyini xüsusi qeyd edərək bu orqanlarda çalışan əməkdaşlara yeni-yeni nailiyyətlər arzulayıblar.

Sonda rayon prokurorluğunun xidmətdə fərqlənən bir neçə işçisinə Abşeron rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanları və pul mükafatı təqdim edilib.

## SUMQAYIT ŞƏHƏR PROKURORLUĞU



Azərbaycan Prokurorluğunun 100 illiyi və prokurorluq işçilərinin peşə bayramı münasibətilə oktyabrın 1-də Sumqayıt Dövlət Dram Teatrında tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə xalqın ümummilli lideri Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub xatirəsini ehtiramla yad ediblər.




Tədbiri giriş nitqi ilə açan Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov prokurorluq işçilərini peşə bayramı günü və prokurorluğun yaranmasının 100 illik yubileyi münasibətilə onları təbrik edib, çətin və şərəfli vəzifələrində uğurlar arzulayıb.





Vurğulanıb ki, Azərbaycan Prokurorluğu ötən 100 ildə çətin və şərəfli bir inkişaf yolu keçib, xalqının və müstəqil dövlətinin hərtərəfli dəstəyinə arxalanan, milli ənənələrə və mütərəqqi dünya standartlarına uyğun şəkildə daim təkmilləşməklə sivil və dünyəvi bir quruma çevrilib.

Qeyd olunub ki, respublika prokurorluğunun kollektivi dövlətçilik ideyalarına sarsılmaz inam və sadiqlik nümayiş etdirməklə fəal vətəndaşlıq mövqeyində dayanan mübariz bir təsisat kimi dövlətçiliyimizin maraqlarının və qanunun aliliyinin təmin edilməsi, cinayətkarlığa qarşı kəsərli mübarizə aparılması, vətəndaşların hüquqlarının etibarlı müdafiəsi işində öz xidmətlərini göstərir.

Sumqayıt şəhər prokuroru Sərdar İmanov Prezident İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi diqqət və qayğıdan söz açaraq, şəhər prokurorluğu üçün yeni binanın istifadəyə verilməsini prokurorluq əməkdaşlarının əməyinə verilən yüksək qiymət kimi dəyərləndirib.

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bektaşi, Şəhər Polis İdarəsinin rəisi Əkbər İsmayılov çıxış edərək prokurorluq işçilərinə peşə bayramı münasibətilə təbriklərini çatdırıblar.

Tədbirdə səmərəli fəaliyyətinə görə Sumqayıt şəhər prokurorluğunun bir qrup işçisinə və veteranlara fəxri fərmanlar, pul mükafatları təqdim edilib. Tədbir bədii hissə ilə davam edib.



## GƏNCƏ ŞƏHƏR PROKURORLUĞU

Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə sentyabrın 14-də Gəncə şəhər prokurorluğunda prokurorluğun veteranları, şəhər İcra hakimiyyəti, polis orqanları, Gəncə Dövlət Universiteti, Gəncə Dövlət Aqrar Universiteti, Azərbaycan Texnologiya Universiteti əməkdaşlarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə tədbir keçirilib.

Tədbirdən əvvəl Gəncə şəhərində yerləşən Heydər Əliyev Mərkəzində olaraq ümummilli liderin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanış olunub.






Tədbirdə prokurorluğun işçiləri, prokurorluğun veteranları Fazil Hüseynov, Adil İsgəndərov, İbrahim Həsənov, Gəncə Dövlət Universitetinin müəllimləri Asif Cavadov və Nərgiz Rəsulova tərəfindən Azərbaycan Respublikası prokurorluğunun tarixi, əsas fəaliyyət istiqamətləri və prokurorluqda aparılan islahatlar barədə geniş və ətraflı məruzə ilə çıxışlar edilib.

Şəhər prokuroru Fazil Həsənəliyevin "Azərbaycan Prokurorluğu islahatlar yolunda", prokuror köməkçisi Nazlı Abbasovanın "Azərbaycan Prokurorluğunun 100 illiyi" mövzusunda məqalələri yerli kütləvi informasiya vasitələrində dərc olunub.

## ŞƏMKİR RAYON PROKURORLUĞU



Oktyabrın 1-də Şəmkir rayonunda prokurorluq işçilərinin peşə bayramı təntənəli qeyd edilib.

Şəmkir rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov, rayonun hüquq-mühafizə orqanlarının, idarə müəssisə rəhbərləri iştirak etdikləri bayram tədbiri iştirakçıları əvvəlcə Şəmkir şəhərin mərkəzində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Daha sonra prokurorluq işçilərinin peşə bayramı Şəmkir Heydər Əliyev Mərkəzində keçirilən geniş toplantı ilə davam etdirilib.

Azərbaycanın dövlət himni səsləndirildikdən sonra Şəmkir rayon prokuroru Azər Hətəmov çıxış edərək peşə bayramı münasibətilə prokurorluq orqanlarında çalışan bütün işçiləri, veteranları, onların ailə üzvlərini təbrik edib.

Azər Hətəmov bildirib ki, peşə bayramını qeyd edən prokurorluq orqanları həmişə ölkəmizdə həyata keçirilən yeni məzmunlu mütərəqqi islahatların reallaşdırılması istiqamətində xidmət göstərəcək, ictimai-siyasi sabitliyin, dövlətçiliyimizin maraqlarının cinayətkar qəsdlərdən qorunması, cinayətkarlığa qarşı mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işində digər dövlət təsisatları ilə əlaqəli şəkildə yaxından iştirak edəcək.



Tədbirdə çıxış edən Şəmkir rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov qeyd edib ki, prokurorluq orqanlarının müstəqil dövlətimizə uyğun formalaşmasında xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin müstəsna rolu olub.

İcra başçısı bildirib ki, Prezident İlham Əliyev də prokurorluq işçilərinə hər zaman diqqət və qayğıkeşliklə yanaşıb. Bunun nəticəsidir ki, prokurorluq əməkdaşlarının bu gün məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılıb. Prezident İlham Əliyevin xüsusi diqqət və qayğıkeşliyi xüsusi vurğulanaraq bildirilib ki, Azərbaycan Respublikası Prokurorluğu qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət edir.



Tədbirin sonunda Şəmkir rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov tərəfindən rayon prokurorluğunun bəzi işçiləri fəxri fərmanlar verilib.

## ŞƏKİ ŞƏHƏR PROKURORLUĞU

Sentyabrın 29-da Şəki şəhərində "Azərbaycan Prokurorluğu və Heydər Əliyev irsi" mövzusunda konfrans keçirilib.



Əvvəlcə şəhər rəhbərliyi, Şəki şəhər prokurorluğunun işçiləri və ictimaiyyətin nümayəndələri ümummilli lider Heydər Əliyevin şəhər İcra Hakimiyyətinin binası qarşısında ucaldılan abidəsi önünə gül dəstələri düzərək xatirəsini etiramla anıblar.

"Marxal" müalicə-istirahət kompleksində keçirilən konfransı Şəki şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov açaraq Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi və 1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı münasibətilə bütün prokurorluq əməkdaşlarını təbrik edib.




Bildirilib ki, 1918-ci il oktyabrın 1-də Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının qərarı ilə əsası qoyulmuş milli prokurorluq orqanları mürəkkəb, eyni zamanda, şərəfli inkişaf yolu keçib. Ümummilli

lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıtmasından sonra həyata keçirilən tədbirlər nəticəsində ölkəmizdə prokurorluq orqanlarının statusunda köklü dəyişikliklər baş verib. Kadr siyasətində ciddi dönüş yaradılıb, şəffaflıq təmin edilib, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilib. Son illər prokurorluqda sağlam iş mühitinin yaradılması üçün ciddi işlər görülüb, dövlətçilik, qanunçuluq prinsipləri ön plana çəkilib, cəmiyyətimizdə prokurorluğa ictimai etimad artib və onun nüfuzu yüksəlib. Bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən prokurorluq






orqanlarına dövlət qayğısı və diqqət ən yüksək səviyyədədir.

Şəki şəhər prokuroru Elmar Camalov məruzəsində vurğulayıb ki, vaxtilə ulu öndər Heydər Əliyevin və hazırda Prezident İlham Əliyevin prokurorluq işçilərinin əməyinə verdikləri yüksək qiymət hər bir prokurorluq işçisində xalqına və dövlətinə sədaqət hissini gücləndirməklə böyük ruh yüksəkliyi və iftixar hissi yaradır və onları öz fəaliyyətlərinə daha tələbkar, məsuliyyətlə yanaşmağa səfərbər edir.

Digər iştirakçıların çıxışlarından sonra Şəki şəhərində ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizədə, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində yüksək peşəkarlıq göstərərək fərqləndiklərinə görə Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə Şəki şəhər prokurorluğunun işçiləri Şəki şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən fəxri fərmanlarla təltif edilib və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.



Konfrans Şəki Dövlət Regional Kollecinin və şəhər 3 №-li uşaq musiqi məktəbinin kollektivinin təbriki ilə başa çatıb.

***

Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə sentyabrın 19-da şəhər prokurorluğunda seminar keçirilib. Şəhər prokurorluğunun işçiləri Azərbaycan Prokurorluğunun tarixinə aid mövzularda çıxış ediblər. Şəhər prokuroru Elmar Camalovun yerli kütləvi informasiya vasitəsində “Azərbaycan Prokurorluğunun 100 illik şərəf yolu” mövzusunda məqaləsi dərc olunub.




Sentyabrın 29-da ağacəkmə kampaniyası təşkil olunub və rayon prokurorluğunun işçiləri Şəki şəhərində tikilməkdə olan Heydər Əliyev Mərkəzinin qarşısındakı ərazidə 100 ədəd şam ağacı əkiblər.



Oktyabrın 1-də şəhər İcra Hakimiyyətinin, məhkəmə, hüquq-mühafizə orqanlarının, ictimaiyyət nümayəndələrinin, ziyalıların iştirakı ilə Şəki şəhər İcra Hakimiyyətinin qarşısında ucaldılan ulu öndər Heydər Əliyevin abidəsi qarşısına gül dəstələri qoyulub, xatirəsi dərin etiramla anılıb.

## AĞCABƏDİ RAYON PROKURORLUĞU



Sentyabrın 13-də Ağcabədi rayon prokurorluğunda Azərbaycan Prokurorluğunun 100 illik yubileyinə həsr olunan tədbir keçirilib. Tədbirdə Prokurorluğun idarə və şöbə rəisləri, rayon polis şöbəsinin bir qurup əməkdaşları, rayon məktəblərinin direktorları, müəllim və şagird heyəti iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan rayon prokuroru Salman Səmədov Respublikası Prokurorluğunun yaranma tarixi, onun inkişafının əsas mərhələləri, qazandığı uğurlar, qanunçuluğun və dövlətçiliyin qorunmasında səmərəli fəaliyyəti və bütövlükdə respublikada hüquqi dövlətin qurulmasında və hüquq sisteminin möhkəmləndirilməsində artan rolu barədə ətraflı məlumat verib.

Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il may ayının 28-də Azərbaycanın dövlət müstəqilliyini bəyan etdiyi "İstiqlal Bəyannaməsi"ndə müəyyən etdiyi prinsiplərə sadiq qalmaqla konkret tarixi şəraiti nəzərə alaraq ölkənin ərazi bütövlüyünü və müstəqilliyini qoruyub saxlamaq, insan hüquq və azadlıqlarını dolğun təmin edən demokratik dövlət yaratmaq, hakimiyyətin üç qolunu – qanunvericilik, icra və məhkəmə orqanlarını formalaşdırmaq məqsədi ilə mühüm qanun və qərarlar qəbul etmişdir. Milli tələblərə və demokratik prinsiplərə cavab verən hakimiyyətin əsasını təşkil edən dövlət orqanları yaradılmış, o cümlədən Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli Qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq təsis edilməklə fəaliyyətə başlayıb. Xalqın ümummilli lideri Heydər Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə Referendumla qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkənin hüquqi, demokratik dövlət quruculuğu istiqamətində inkişafının təsisatlarını, dövlətin və idarəetmənin hüquqi əsaslarını, hüquq sisteminin bünövrəsini formalaşdırıb. Əsas Qanunda Azərbaycan Respublikası Prokurorluğuna xüsusi maddə həsr edilərək dövlət idarəetmə sistemində bu dövlət təsisatının yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyən edilməklə prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verilib. Prokurorluğun məhkəmə hakimiyyətinə aid edilməsi onun dövlət idarəetmə mexanizmində roluna və iştirakına dair məsələlərə Konstitusiya səviyyəsində aydınlıq gətirməklə yanaşı, müasir prokurorluq orqanlarının Azərbaycan Xalq Cümhuriyyətinin prokurorluq qurumunun hüquqi varisi olmasını təsdiq edib.

Xüsusi vurğulanıb ki, ulu öndər Heydər Əliyevin hər il oktyabr ayının 1-nin Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd edilməsinə dair imzaladığı 17 iyul 1998-ci il tarixli sərəncamı bu əlamətdar tarixi əbədiləşdirməklə, reallığı bərpa edib və prokurorluğun demokratik və hüquqi cəmiyyətdə statusu məsələsinə dövlət səviyyəsində münasibət bildirib. Azərbaycan Respublikası Prokurorluğu orqanlarının bu gün dünya standartlarına uyğun fəaliyyəti qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi, insan və vətəndaş hüquqlarının təmin olunması prinsiplərinə əsaslanan, demokratik cəmiyyətdə özünəməxsus yer tutan orqan kimi formalaşması və prokurorluq orqanlarının konstitusion statusa malik olmaqla dövlət idarəetməsində mühüm əhəmiyyət daşıması yalnız ulu öndər Heydər Əliyevin rəhbərliyi altında başlanan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən məhkəmə-hüquq islahatları və hərtərəfli dövlət dəstəyi nəticəsində mümkün olub.

Ağcabədi rayon prokurorunun müavini Taleh Osmanov tədbirdə prokurorluğun tarixi kökləri, prokurorluğun hüquqi statusu ilə bağlı elmi-nəzəri baxışlar və təcrübədə tətbiq olunan modelləri, prokurorluq orqanlarının cinayət mühakimə icraatında və ondan kənarda vəzifə və səlahiyyətləri, milli prokurorluğun ölkənin inkişaf strategiyasına uyğun olaraq institusional baxımdan təkmilləşdirilməsi istiqamətləri, prokurorluğun Azərbaycan Xalq Cümhuriyyəti dövründə məhkəmə orqanlarının tərkibində fəaliyyəti, müasir dövrdə qanunvericilik aktlarının layihələrinin hazırlanması və bu sahədə normayaradıcı prosesin yüksək tələblər səviyyəsində həyata keçirilməsi, eləcə də milli dövlətçiliyin möhkəmləndirilməsində prokurorluq orqanlarının rolu, korrupsiyaya qarşı mübarizənin prokurorluğun prioritet fəaliyyət istiqaməti və prokurorluğun kadr tərkibinin müasirləşdirilməsi mövzusunda çıxış edib.

Seminarda çıxış edən 1 saylı məktəbin direktoru Səadət Kazımova prokurorluğun son 100 il ərzində keçdiyi və dövlət səviyyəsində yüksək dəyərləndirilən inkişaf yolu və həyata keçirilən islahatlar barədə məlumat verməklə Azərbaycan Respublikası Prokurorluğu orqanlarında qanunçuluq prinsiplərinin daim ön plana çəkildiyi, cəmiyyətdə prokurorluğa ictimai etimadın artdığı və onun nüfuzunun yüksəldiyini xüsusi vurğulayaraq dövlətin bu mühüm təsisatının cəmiyyətin və dövlətin maraqlarının qorunmasında, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynadığını müsbət qiymətləndirib və bu istiqamətdə işlərin eyni intensivliklə davam etdiriləcəyinə inam ifadə olunub.

Ağcabədi rayon prokuroru Salman Səmədov tədbirə yekun vurmaqla onun Azərbaycan Prokurorluğunun 100 illik yubileyi ilə bağlı keçirilən vacib tədbirlərdən biri olduğunu qeyd edərək seminarın səmərəli, canlı müzakirələr və faydalı fikir mübadiləsi şəraitində keçdiyini bildirib.

***

Oktyabrın 1-də Ağcabədi rayon İcra Hakimiyyətində 1 oktyabr – Prokuror işçilərinin peşə bayramı münasibəti ilə tədbir keçirilib. Tədbirdən əvvəl iştirakçılar rayon İcra Hakimiyyətinin qarşısında ucaldılan ulu öndər Heydər Əliyevin abidəsinin önünə tər çiçəklər düzərək əziz xatirəsini yad ediblər.



Tədbirdə Ağcabədi rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov rayon prokurorluğunun işçilərini prokurorluq orqanlarının yaranmasının 100 illiyi münasibəti ilə təbrik edərək onlara çətin, məsuliyyətli və şərəfli peşələrində uğurlar arzu edərək cinayətkarlıqla mübarizə sahəsinə prokrorluq orqanlarının xüsusi rolundan danışıb.

Rayon prokroru Salman Səmədov çıxış edərək bildirib ki, müstəqil Azərbaycan dövlətində prokurorluq orqanlarının tarixi Azərbaycan Xalq Cumhurriyyətinin yaranması günündən sonra başlayıb. 1918-ci ilin noyabr ayının 18-də Nazirlər Şurası tərəfindən «Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə» təsdiq edilib. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının Prokurorluğu sinfi mənafelərə xidmət edən orqandan qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət edən orqana çevrilməklə sivil və demokratik inkişaf yolu keçmişdir.Müstəqillik yolunda uğurla irəliləyən Azərbaycanın bugünkü qələbələrinin siyasi və iqtisadi əsaslarını yaratmış ulu öndər Heydər Əliyevin həyat yolu, dövlətçilik fəaliyyəti xalqa fədakarcasına xidmət nümunəsi olmuş və daim nümunə olaraq qalacaqdır. Ulu öndər Heydər Əliyevin 17 iyul 1998-ci il tarixdə Azərbaycan Xalq Cumhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlamasını əsas tutaraq hər il oktyabr ayının 1-ni Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə imzaladığı sərəncam bu əvəzolunmaz şəxsiyyətin Azərbaycan dövlətinin bütün sahələrinə necə diqqət və qayğı ilə yanaşdığını bizlərə göstərir.

Tədbirdə prokurorluq orqanlarının qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət etdiyi vurğulanıb.

Sonda Ağcabədi rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov tərəfindən rayon prokuroru Salman Səmədova və prokurorluğun digər əməkdaşlarına fəxri fərman təqdim olunub.

## AĞSTAFA RAYON PROKURORLUĞU

Azərbaycan Respublikası Prokurorluğu orqanlarının 100 illiyi yubileyinin qeyd edilməsi ilə əlaqədar sentyabrın 13-də Ağstafa rayon prokurorluğunda rayon İcra Hakimiyyəti, məhkəmə, hüquq-mühafizə orqanlarının əməkdaşları və ictimaiyyət nümayəndələrinin iştirakı ilə tədbir keçirilib.

Tədbirdə Azərbaycan Prokurorluğunun inkişaf tarixi, hüquqi dövlət quruculuğunda, qanunçuluğun möhkəmləndirilməsində xüsusi əhəmiyyəti barədə söhbət açılıb.

Yubiley çərçivəsində ağacəkmə kampaniyası keçirilib və rayonun Dağ Kəsəm kənd ərazisindən keçən küçə massivi boyunca çinar, şam, sərv və digər növ ağaclar əkilib. Rayon prokuroru Aslan Surxayevin yerli kütləvi informasiya vasitəsində "Şərəfli və tarixi bir yol" məqaləsi dərc olunub.



***

Oktyabrın 1-də Ağstafa rayonu Heydər Əliyev Mərkəzində Prokurorluq işçilərinin peşə bayramı günü və milli prokurorluğun yaranmasının 100 illik yubileyi münasibətilə geniş tədbir keçirilib.





Tədbirdə Ağstafa rayonu İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və əməkdaşları iştirak edib. Tədbir iştirakçıları öncə Mərkəzin önündə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Mərkəzdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotolardan ibarət ekspozisiya zallarında dahi şəxsiyyətlə bağlı bir-birindən maraqlı fotolara tamaşa ediblər.

Tədbiri giriş sözü ilə açan Ağstafa rayonu İcra Hakimiyyətinin başçısı ilk öncə ölkəmiz üçün əlamətdar gün münasibətilə prokurorluq işçilərini təbrik edib. Qeyd olunub ki, müasir Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyev ölkənin bütün sahələrində, o cümlədən prokurorluq orqanlarında həyata keçirtdiyi hüquqi islahatlar nəticəsində Azərbaycan Prokurorluğu milli maraqlarımızın və qanunun aliliyinin təmin olunmasına şərəflə xidmət edən dövlət təsisatına çevrilmişdir. Bu gün də ulu öndərin müəyyən etdiyi strateji inkişaf konsepsiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna, insan hüquqlarının və azadlıqlarının qorunmasına, demokratik təsisatların yaradılmasına yönələn siyasət uğurla davam etdirilir.

Ağstafa rayon prokuroru Aslan Surxayev çıxış edərək bildirib ki, bu gün 100 illik yubileyini qeyd edən Azərbaycan Prokurorluğu əməkdaşları, məhz ulu öndərin 17 iyul 1998-ci ildə imzaladığı Sərəncamı ilə hər il oktyabr ayının 1-i peşə bayramı günü kimi qeyd edirlər. Bu bayram həm də biz prokurorluq işçilərinə göstərilən yüksək diqqət və qayğının təzahürüdür.

Ağstafa rayon Polis Şöbəsinin rəisi Elsevər Aslanov, rayon məhkəməsinin sədri İlqar Əliyev və digərləri çıxış edərək bildirblər ki, ölkəmizdə prokurorluğun hüquq-mühafizə orqanları ilə birgə həyata keçirilmiş məqsədyönlü tədbirlərin nəticəsidir ki, Azərbaycan Respublikası dünyada ən təhlükəsiz və sabit ölkələrdən biridir.

Fəaliyyətlərində fərlqləndiklərinə görə rayon prokurorluğunun bir sıra əməkdaşları Ağstafa Rayon İcra Hakimiyyətinin müvafiq fəxri fərmanları ilə  təltif olunublar.

## ASTARA RAYON PROKURORLUĞU

1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə Astara rayonunun prokurorluq işçiləri əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək dahi rəhbərin xatirəsini ehtiramla yad ediblər. Sonra Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlar və fotoşəkillərlə tanış olublar.



Tədbir rayon prokurorluğunun inzibati binasında davam etdirilib.

Astara rayon prokuroru Qabil Qasımov həmkarlarını peşə bayramı münasibətilə təbrik edərək bildirib ki, Azərbaycanda prokurorluq orqanlarının yarandığı gündən 100 il ötür. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının prokurorluğu qanunun aliliyinin, insan hüquq və azadlıqlarının



təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət edən mütəşəkkil quruma çevrilməklə sivil və demokratik inkişaf yolu keçib. Dövlətçilik ideyalarına sarsılmaz inam və sadiqlik nümayiş etdirən prokurorluq orqanları qanunun aliliyinin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, vətəndaşların hüquqlarının etibarlı müdafiəsində yorulmadan xidmət göstərir.

Bildirilib ki, ümummilli lider Heydər Əliyev prokurorluq orqanlarına həmişə diqqət və qayğı ilə yanaşıb, Azərbaycan Prokurorluğunun əməkdaşlarının sosial durumunun yaxşılaşdırılması istiqamətində mühüm fərman və sərəncamlar imzalayıb. Prokurorluq orqanları Prezident İlham Əliyev tərəfindən həyata keçirilən hüquq islahatları nəticəsində qanunçuluğu və insan azadlığını hərtərəfli təmin edən vətəndaş cəmiyyəti quruculuğu prosesində üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirlər.

## BİLƏSUVAR RAYON PROKURORLUĞU

Oktyabrın 1-də Biləsuvar rayonunda 1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı və Respublika Prokurorluğunun yaranmasının 100 illiyi münasibəti ilə tədbir keçirilib.

Tədbirdə Biləsuvar rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev, rayonun hüquq-mühafizə orqanlarının, idarə və təşkilatların rəhbərləri, rayon icra hakimiyyətinin və rayon prokurorluğunun işçiləri iştirak edib.

Yığıncaq iştirakçıları əvvəlcə Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət edərək önünə tər çiçəklər qoyub əziz xatirəsi yad ediblər.

Biləsuvar rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan prokurorluq orqanlarının yaranmasının 100 illiyi münasibətilə prokurorluq sahəsində çalışan bütün əməkdaşları təbrik edərək onlara bundan sonra da ölkəmizdəki digər dövlət təşkilatları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin, dövlətçiliyimizin maraqlarının cinayətkarlardan qorunması, cinayətkarlığa qarşı mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işində yeni-yeni uğurlar arzulayıb.



Bildirilib ki, prokurorluq orqanlarının müstəqil dövlətimizə uyğun formalaşmasında xalqın ümummilli lideri Heydər Əliyevin müstəsna rolu olub. Bu gündə Azərbaycan Respublikasının Prezident İlham Əliyev cənabları prokurorluq işçilərinə diqqət və qayğıkeşliklə yanaşır. Bunun nəticəsidir ki, prokurorluq əməkdaşlarının əmək haqları xeyli artırılıb, şəxsi heyətin məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılıb.



Biləsuvar rayon prokuroru Qabil Əliyev çıxış edərək "Prokurorluq orqanlarının yaranma tarixi, formalaşması və fəaliyyəti" mövzusunda geniş məlumat verib və qeyd edib ki, prokurorluq orqanları öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmaqla daim qanunun aliliyini rəhbər tutaraq cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsində, cəmiyyətin və dövlətimizin maraqlarının qorunmasında mühüm rol oynayır.

Rayon prokuroru onlara göstərilən yüksək diqqət və qayğıya, prokurorluq işçilərinə verilən dəyərə görə rəhbərlik etdiyi kollektiv adından dərin minnətdarlığını bildirib.

Sonda 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan prokurorluq orqanlarının yaranmasının 100 illiyi münasibətilə rayon prokurorluğunun əməkdaşları Biləsuvar rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanları ilə təltif olunublar.

***

Yubiley çərçivəsində rayon prokurorluğunun işçiləri prokurorluğun veteranları ilə görüşlər keçirib, rayonun hüquq-mühafizə orqanlarının əməkdaşları və ictimaiyyət nümayəndələrinin iştirakı ilə seminarlar təşkil edib, yerli kütləvi informasiya vasitələrində çıxışlar olunub.

## CƏBRAYIL RAYON PROKURORLUĞU

Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü və Azərbaycan Prokurorluğunun 100 illik yubileyi ilə əlaqədar oktyabrın 1-də Cəbrayıl rayonunda tədbir keçirilib.

Tədbirdə rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri və əməkdaşları, rayon ictimaiyyətin nümayəndələri iştirak edib.

İştirakçılar əvvəlcə ulu öndər Heydər Əliyevin adını daşıyan parkda Ümummilli Liderin abidəsini ziyarət edərək abidə önünə gül dəstələri düzdülər.

Tədbirdə Cəbrayıl rayon prokuroru vəzifəsini icra edən Maarif Hüseynov çıxış edərək bildirib ki, müasir tarixinin əlamətdar günlərindən birini yaşayan Azərbaycan Respublikası Prokurorluğunun kollektivi “1 Oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü”nü və milli prokurorluq orqanlarının yaranmasının 100-cü ildönümünü qeyd edir. Bu günün prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd olunması tarixi zərurətdən yaranmış və Azərbaycan Xalq Cumhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlamasını xalqın ümummilli lideri Heydər Əliyev əsas tutaraq hər il oktyabr ayının 1-nin Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli Sərəncam imzalanıb.



1918-ci ilin noyabr ayının 18-də Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası tərəfindən “Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə” təsdiq edilmiş, olduqca mürəkkəb və ağır şəraitdə fəaliyyət göstərən Məhkəmə palatasında, Bakı və Gəncə dairə məhkəmələrinin tərkibində fəaliyyət göstərən prokurorluq orqanları öz səlahiyyətləri daxilində böyük işlər görmüşlər. Müstəqil inkişaf tariximizin yaradıcısı və müasir Azərbaycan dövlətinin qurucusu ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilmiş hərtərəfli məhkəmə-hüquq islahatları nəticəsində mühüm dövlət təsisatı kimi tamamilə yenidən formalaşan, fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı sayəsində mütərəqqi standartlara uyğun şəkildə mütəmadi təkmilləşən Azərbaycan Prokurorluğu bu gün səlahiyyət hədləri daxilində xalqın və dövlətimizin maraqlarının müdafiə edilməsində, insan hüquq və azadlıqlarının qorunmasında öz xidmətlərini göstərir, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayır. Azərbaycan Respublikası Prokurorluğunun son illər ərzində əldə etdiyi böyük nailiyyətlər ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi müdrik dövlət siyasətinin məntiqi nəticəsi, Heydər Əliyev dövlətçilik konsepsiyasının düzgünlüyünün göstəricisidir. Prokurorluq orqanlarının tarixində yeni təkmilləşmə və müasirləşmə dövrünün əsasını qoymuş Dövlət başçısının 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilən “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı” prokurorluğun inkişafı üçün mühüm olub. Məhkəmə-hüquq islahatları nəticəsində tamamilə yeniləşmiş Azərbaycan Respublikasının Prokurorluğu fəaliyyətinin əsas prinsiplərinə sadiq olaraq, qanunla üzərinə qoyulmuş vəzifələri bundan sonra da uğurla yerinə yetirəcəkdir.

Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov tədbirdə çıxış edərək 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan prokurorluq orqanlarının yaranmasının 100 illiyi münasibətilə Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qarlov başda olmaqla prokurorluq sahəsində çalışan bütün əməkdaşları təbrik edib, ən xoş arzularını çatdırıb.

Sonra xidməti vəzifələrinin icrası zamanı fərqlənən rayon prokurorluğunun işçiləri İcra Hakimiyyətinin fəxri fərmanı ilə təltif olunublar.

## CƏLİLABAD RAYON PROKURORLUĞU

Oktyabrın 1-də Prokurorluq işçilərinin peşə bayramı Cəlilabadda qeyd olunub.

Cəlilabad rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalov, rayon prokurorluğunun işçiləri və hüquq-mühafizə orqanlarının əməkdaşları Heydər Əliyev Parkına gəlib ulu öndərin abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.









Bayram tədbiri rayon prokurorluğunun binasında davam etdirilib. Rayon prokuroru Taryel Ələkbərov tədbirdə çıxış edərək respublikanın prokurorluq orqanlarının keçdiyi 100 illik şərəfli yoldan danışıb. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən prokurorluq işçilərinə göstərilən qayğını minnətdarlıqla qeyd edilib, bu yüksək diqqətin dövlətçiliyə xidmətdə onlar üçün güclü stimul olduğu xüsusi vurğulanıb.

Cəlilabad rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalov prokurorluq işçilərini peşə bayramı münasibətilə  təbrik edib, çətin və şərəfli işlərində uğurlar arzulayıb. Qeyd edilib ki, prokurorluq işçiləri ölkəmizdə qanunun aliliyinin təmin edilməsi, cinayətkarlığa qarşı mübarizə aparılması, vətəndaşların hüquqlarının etibarlı müdafiəsi işində üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Şərəfli bir təkamül yolu keçmiş prokurorluq orqanları bu gün dövlətçilik ideyalarına sarsılmaz inam və sadiqlik nümayiş etdirir,vətəndaşların hüquqlarının etibarlı müdafiəsində öz xidmətlərini göstərir.

Tədbirdə çıxış edən digər rayon hüquq-mühafizə orqanlarının rəhbərləri prokurorluq orqanlarının insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə xidmət etdiyini vurğulayıb, prokurorluq işçilərini peşə bayramı münasibətilə təbrik ediblər.

Sonda 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan prokurorluq orqanlarının yaranmasının 100 illiyi münasibətilə rayon prokurorluğunun işçiləri Cəlilabad rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanları ilə təltif olunublar.

## DAŞKƏSƏN RAYON PROKURORLUĞU

Oktyabrın 1-də Daşkəsən rayon İcra Hakimiyyəti və Daşkəsən rayon prokurorluğunun birgə təşkilatçılığı ilə prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan Prokurorluğunun yaranmasının 100-cü ildönümü münasibətilə tədbir keçirilib.

Tədbirdən öncə rayon rəhbərliyi və tədbir iştirakçıları rayon mərkəzində xalqın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri qoyaraq ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Sonra bayram tədbiri Heydər Əliyev Mərkəzində davam edib. Tədbir iştirakçıları Daşkəsən rayon Heydər Əliyev Mərkəzində ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini özündə əks etdirən fotolara və eksponatlara baxış keçiriblər.

Tədbiri giriş sözü ilə açan Daşkəsən rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev Respublikanın Baş prokuroru Zakir Qaralovu, prokurorluq orqanlarının hər bir işçisini, veteranları və onların ailə üzvlərini 1 oktyabr prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan Prokurorluğunun yaranmasının 100-cü ildönümünü münasibətilə təbrik edib.

Qeyd olunub ki, məhz ulu öndər Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə oktyabr ayının 1-i respublikada prokurorluq işçilərinin peşə bayramı günü elan olunub. Prokurorluq orqanlarının qanunçuluğun və hüquq normalarının etibarlı təminatı sahəsində nüfuzlu təsisata çevrilməsi, yenidən təkmilləşdirilərək fəaliyyətini dövrün tələbləri səviyyəsində qurması məhz Heydər Əliyevin rəhbərliyi altında aparılmış mütərəqqi islahatlar nəticəsində mümkün olub. 26 aprel 2000-ci il tarixdə ulu öndərin prokurorluq orqanlarının rəhbər işçiləri ilə tarixi görüşündən sonra həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində prokurorluq orqanlarında köklü islahatlar və struktur dəyişiklikləri aparılmış, demokratik mahiyyətdə tamamilə yenidən formalaşdırılmış bu orqanın normal və səmərəli fəaliyyəti üçün qanunvericilik əsasları yaradılıb. Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı Prezident İlham Əliyevin prokurorluğa dövlət qayğısı və diqqəti ən yüksək səviyyədədir. Hər bir dövlətin müstəqilliyini şərtləndirən, onu əbədiləşdirən amillər ilk növbədə qanunların aliliyinin təminatından, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinin keyfiyyətindən və ədalət mühakiməsinin beynəlxalq tələblərə uyğunlaşdırılmasından asılıdır.



Daşkəsən rayon prokuroru Elman Süleymanov Azərbaycan prokurorluğunun yaranması və inkişafı yolundan danışaraq “Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018)” yubiley medalı ilə təltif edilməsinə görə Baş prokuror Zakir Qaralova təşəkkürünü ifadə edib, üzərilərinə düşən məsul və şərəfli vəzifələri layiqincə yerinə yetirmək üçün bundan sonra da daha böyük səy və fədakarlıqla çalışacaqlarını bildirib.

Digər çıxış edənlər də prokurorluq işçilərinin peşə bayramı münasibətilə öz səmimi təbriklərini çatdırıblar.

Tədbirin sonunda rayon Heydər Əliyev Mərkəzinin önündə xatirə şəkli çəkdirilib.

## GÖYÇAY RAYON PROKURORLUĞU

Sentyabrın 12-də Azərbaycan Prokurorluğunun 100 illik yubileyinə həsr olunan "Azərbaycan Respublikası Prokurorluğunun Azərbaycanın dövlətçilik tarixindəki izi" mövzusunda Göycay rayon prokurorluğunda raoyn İcra Hakimiyyətinin rəhbərliyi, rayon hüquq-mühafizə orqanlarının əməkdaşları və ictimaiyyət nümayəndələri iştirakı ilə tədbir keçirilib.



Tədbirdə rayon prokuroru Muxtar Eminov "Azərbaycan Respublikası Prokurorluğunun Azərbaycanın dövlətçilik tarixindəki izi" mövzusunda çıxış edərək prokurorluğun tarixi, inkişafı, islahatları və dövlət qayğısından danışıb.

Göycay rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə və digər çıxış edənlər – hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri Azərbaycan Prokurorluğunun şərəfli fəaliyyəti barədə çıxış edərək prokurorluq işçilərinə fəaliyyətlərində uğurlar arzulayıblar.

***

Oktyabrın 1-də Göyçay rayon İcra Hakimiyyəti ilə Göyçay rayon prokurorluğunun birgə təşkilatçılığı ilə prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan Prokurorluğunun yaranmasının 100-cü ildönümü münasibətilə təntənəli tədbir keçirilib.



Tədbirdən öncə rayon rəhbərliyi və tədbir iştirakçıları rayon mərkəzində xalqın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri qoyaraq ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər.



Sonra tədbiri YAP-Göyçay rayon təşkilatının inzibati binasında davam edib. Tədbir iştirakçıları Göyçay rayon Heydər Əliyev Mərkəzində ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini özündə əks etdirən fotolara və eksponatlara baxış keçiriblər.

Tədbiri giriş sözü ilə açan Göyçay rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə Respublikanın Baş prokuroru Zakir Qaralovu, prokurorluq orqanlarının hər bir işçisini, veteranları və onların ailə üzvlərini 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan Prokurorluğunun yaranmasının 100-cü ildönümünü münasibətilə təbrik edib.

Qeyd olunub ki, məhz ulu öndər Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə oktyabr ayının 1-i respublikada prokurorluq işçilərinin peşə bayramı günü elan olunub. Prokurorluq orqanlarının qanunçuluğun və hüquq normalarının etibarlı təminatı sahəsində nüfuzlu təsisata çevrilməsi, yenidən təkmilləşdirilərək fəaliyyətini dövrün tələbləri səviyyəsində qurması məhz Heydər Əliyevin rəhbərliyi altında aparılmış mütərəqqi islahatlar nəticəsində mümkün olub. 26 aprel 2000-ci il tarixdə ulu öndərin prokurorluq orqanlarının rəhbər işçiləri ilə tarixi görüşündən sonra həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində prokurorluq orqanlarında köklü islahatlar və struktur dəyişiklikləri aparılmış, demokratik mahiyyətdə tamamilə yenidən formalaşdırılmış bu orqanın normal və səmərəli fəaliyyəti üçün qanunvericilik əsasları yaradılıb. Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı Prezident İlham Əliyevin prokurorluğa dövlət qayğısı və diqqəti ən yüksək səviyyədədir.

Göyçay rayon prokuroru Muxtar Eminov Azərbaycan prokurorluğunun yaranması və inkişafı yolundan danışaraq "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilməsinə görə Baş prokuror Zakir Qaralova təşəkkürünü ifadə edib, üzərilərinə düşən məsul və şərəfli vəzifələri layiqincə yerinə yetirmək üçün bundan sonra da daha böyük səy və fədakarlıqla çalışacaqlarını bildirib.

Digər çıxış edənlər Polis İdarəsinin rəisi Sənan Əsədov, Göyçay Dövlət İdarəetmə və Texnolojiya Kollecinin drektoru Xəlil Orucov, əməkdar müəllimlər Tahirə Qurbanov, Qarakişi Quluzadə çıxış edərək, prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülən işlərdən, əldə olunan uğurlardan danışıblar.

Sonra prokurorluq sistemində səmərəli fəaliyyətinə görə rayon prokurorluğunun bir neçə işçisi rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanı və xatirə hədiyyəsi ilə təltif olunub.

## GƏDƏBƏY RAYON PROKURORLUĞU

Oktyabrın 1-də Gədəbəy rayon Heydər Əliyev Mərkəzində prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan Prokurorluğunun yaranmasının 100-cü ildönümü münasibətilə tədbir keçirilib.



Tədbirdən öncə rayon rəhbərliyi və tədbir iştirakçıları rayon mərkəzində ucaldılmış xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül çiçək dəstələri qoyaraq ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Heydər Əliyev Mərkəzində keçirilən tədbiri giriş sözü ilə açan Gədəbəy rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev prokurorluq orqanlarının dövlətçiliyin maraqlarının və qanunun aliliyinin təmin olunması, cinayətkarlığa qarşı mübarizə aparılması, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində əvəzsiz xidmətlərindən danışıb. Çıxışının sonunda prokurorluq işçilərini təbrik edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.



Gədəbəy rayon prokuroru Allahverdi Səfərov prokurorluq orqanlarının fəaliyyətindən, 100 il ərzində keçdiyi şərəfli yoldan danışıb və onların əməyinə verilən yüksək qiymətə görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib.

Daha sonra çıxış edən digər tədbir iştirakçıları da prokurorluq orqanlarının işçilərinə yubiley və peşə bayramı münasibətilə təbriklərini çatdırıblar.



## GÖYGÖL RAYON PROKURORLUĞU

Oktyabrın 1-də Göygöl rayonunda Prokurorluq orqanları işçilərinin peşə bayramı və Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibəti ilə Göygöl Rayon İcra Hakimiyyətinin akt zalında tədbir keçirilib.

Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidov, rayonun hüquq-mühafizə orqanlarının və idarə müəssisə rəhbərləri, kütləvi informasiya vasitələrinin nümayəndəli iştirak ediblər.

İştirakçılar Göygöl rayon İcra Hakimiyyətinin qarşısında ucaldılan ümummilli lider Heydər Əliyevin heykəli önünə gül dəstələri qoyaraq ulu öndərə hörmət və ehtiramını bildiriblər.

Göygöl rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidov çıxış edərək prokurorluq orqanlarının bütün işçilərini və bütövlükdə ölkənin hüquq ictimaiyyətini səmimi qəlbdən təbrik edib, işlərində uğurlar və gələcək fəaliyyətlərində yeni-yeni nailiyyətlər arzulayıb.

Göygöl rayon prokuroru İlqar Hacızadə ölkə başçısının prokurorluq orqanlarına və işçilərinə göstərdiyi qayğısı haqqında geniş və ətraflı məlumat verib və göstərilən bu diqqətə görə minnətdarlığını bildirib.

## XAÇMAZ RAYON PROKURORLUĞU





Sentyabrın 10-da Xaçmaz rayon prokurorluğunda Azərbaycan Prokurorluğunun 100 illik yubileyi münasibətilə tədbir keçirilib.

Prokurorluğun akt zalında təşkil olunan tədbiri Xaçmaz rayon prokuroru Elxan Əbdürrəhimov açaraq Azərbaycan Prokurorluğunun yaranma tarixinə qısaca nəzər salıb hüquq sistemində rolundan söz açıb. O, ulu öndər Heydər Əliyevin Azərbaycan Prokurorluğunun fəaliyyətinə verdiyi dəyəri xatırladaraq qeyd edib ki, dahi şəxsiyyətin "Mən Aəzbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram" kəlamı asayişin qorunmasında, insan hüquq və azadıqlarının təminatında, cinayətkarlığa qarşı mübarizə və hüquqi dövlət quruculuğunda, dövlətçiliyə xidmətdə onlara yüksək ruh verir.

Sonra rayon prokurorlğunun işçiləri Azərbaycan Prokurorluğunun 100 illik tarixi ilə bağlı geniş məruzə ilə çıxış ediblər. Natiqlər prokurorluğun yaranma tarixindən, sovet dövründə və müstəqillik illərində fəaliyyətindən, bu sahədə aparılan islahatlardan, ümummilli lider Heydər Əliyevin hüquq sahəsindəki önəmli rolundan danışıblar.

Tədbirdə iştirak edən Xaçmaz rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev çıxış edərək Azərbaycan Prokurorluğunun hüquqi sahədəki önəmli fəaliyyətindən danışıb, sabitliyin qorunmasında, demokratik-hüquqi dövlətçiliyin inkişafında rolunu xüsusi vurğulayıb. Rayon rəhbəri Xaçmaz prokurorluğu əməkdaşlarının çətin və məsuliyyətli işini xüsusi dəyərləndirərək, onları bu möhtəşəm yubiley münasibətilə təbrik edib, xoş arzularını bildirib.

Xaçmaz rayon məhkəməsinin sədri Xıdır Quliyev, millət vəkili Eldəniz Səlimov və başqaları da prokurorluq işçilərinə təbriklərini səsləndirərək çətin və şərəfli işlərində uğurlar arzulayıblar.

Tədbirin sonunda xatirə şəkli çəkdirildi.

## XOCALI RAYON PROKURORLUĞU

Sentyabrın 19-da xocalıların müvəqqəti məskunlaşdığı Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyinə həsr olunan tədbir keçirilib.

Tədbirdə Xocalı rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov, hüquq-mühafizə orqanlarının işçiləri və rayon ziyalıları iştirak ediblər.





Öncə "Heydər" parkında ucaldılan ümummilli lider Heydər Əliyevin büstü önünə tər çiçəklər düzülüb.

Xocalı rayon İcra Hakimiyyətinin akt zalında keçirilən tədbiri giriş sözü ilə Xocalı rayon İcra Hakimiyyəti başçısının müavini Lamiyə Qarayeva açaraq, Azərbaycanda prokurorluq orqanlarının fəaliyyətindən danışıb.

Xocalı rayon prokuroru Kamran Məmmədov çıxış edərək ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra prokurorluq orqanlarında aparılan islahatlar, dövlət başçısının və xalqın prokurorluğa göstərdiyi etimaddan danışıb. Çıxışının sonunda prokurorluq işçilərini milli prokurorluğun yaranmasının 100 illik yubileyi münasibətilə təbrik edib, doğma torpaqlarımıza qayıtmağı və fəaliyyətlərini orada davam etdirməyi arzulayıb.

Xocalı rayon Polis Şöbəsinin rəisi Eldar Bağırov çıxışında prokurorluq işçilərinin dövlətə və dövlətçiliyə sadiq olmalarından, cinayətkarlığa qarşı mübarizədə, dövlətə qarşı yönəldilən hər hansı cəhdin məhv edilməsində üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmələrindən, ictimaiyyətinin rəğbətini qazanmalarından danışıb.

Dövlət Təhlükəsizlik Xidmətinin Xocalı rayon bölməsinin rəisi Nəvai Hüseynov prokurorluq orqanlarının fəaliyyətində kifayət qədər uğurların olduğunu, Prezident İlham Əliyevin prokurorluq işçilərini daim diqqətdə saxlamasını, onların fəaliyyətini yüksək dəyərləndirməsini qeyd edib. Prokurorluq orqanlarında gənc kadrların vəzifədə önə çəkilməsini, onlara etimad göstərilməsini bildirib. Prokurorluq orqanlarında çalışan işçilərin öz mənəvi dəyərləri ilə seçilməkləri ilə yanaşı əxlaqi keyfiyyətlərini də nümayiş etdirirmələri, digər hüquq–mühafizə orqanlarının prokurorluq orqanları ilə sıx əməkdaşlıq etmələrinin nəticəsi olaraq ictimai sabitliyin bərqərar olunmasının təmin edilməsi vurğulayıb.

Xocalı RTŞ-nin müdiri Şakir Əliyev çıxışında milli prokurorluq orqanlarının yaranma tarixindən söz açıb, prokurorluğunun yüksək səviyyədə fəaliyyət göstərməsini deyib.

Yekunda Xocalı rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov prokurorluğun fəaliyyətindən danışaraq xidmətdə fərqlənən rayon prokurorluğunun işçilərini fəxri fərmanla təltif edib.

## İMİŞLİ RAYON PROKURORLUĞU

Oktyabrın 1-də İmişli rayonunda Prokurorluq işçilərinin 100 illik yubleyi ilə bağlı tədbir keçirilib.

Tədbirdən əvvəl İmişli rayon İcra Hakimiyyətinin başçısı və prokurorluq işçiləri əvvəlcə ümummilli lider Heydər Əliyevin İmişli şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub əziz xatirəsi anıblar.



Tədbirin rəsmi hissəsi İmişli şəhər Heydər Əliyev Mərkəzində davam etdirilib.

Tədbirdə çıxış edən İmişli rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə 1 oktyabr 1918-ci ildə yaradılan prokurorluq orqanlarının bir əsrlik şərəfli inkişaf yolu barədə və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin milli prokurorluğun demokratik və hüquqi cəmiyyətdə rolunu nəzərə alaraq 17 iyul 1998-ci ildə imzaladığı Sərəncamla oktyabr ayının 1-ni prokurorluq işçilərinin peşə bayramı günü kimi təsis etməsi barədə danışıb. Prokurorluq işçilərini Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə təbrik edib.

Prokurorluq işçiləri çıxış edərək prokurorluq orqanlarının tarixindən, fəaliyyətindən, dövlət tərəfindən bu quruma göstərilən diqqət və qayğıdan danışıb göstərilən etimada görə minnətdarlıqlarını bildiriblər.



## İSMAYILLI RAYON PROKURORLUĞU

Prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 100 ilik yubileyi münasibətlə oktyabrın 1-də İsmayıllı rayonunda yüksək səviyyədə qeyd olunub.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi rayon rəhbərliyi və prokurorluq işçiləri tərəfindən ziyarət edilib, abidənin üzərinə tər çiçəklər qoyulub.



Sonra isə tədbir rayon İcra Hakimiyyətinin iclas zalında davam etdirilib.

Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov prokurorluq işçilərini peşə bayramları və təşkilatın yaranmasının 100 illik yubileyi münasibətilə təbrik edib, onlara şərəfli, çətin və məsuliyyətli fəaliyyətlərində uğurlar arzulayıb. Ümummilli lider Heydər Əliyevin həmişə prokurorluq işçilərinin əməyinə yüksək qiymət verdiyini diqqətə çatdırıb. Heydər Əliyevin ideyalarını əməli fəaliyyətində reallaşdıran Prezident İlham Əliyevin bu sahəyə olan diqqət və qayğısından danışıb, ölkədə cinayətkarlığa, korrupsiyaya və rüşvətxorluğa qarşı ciddi mübarizə aparıldığını qeyd edib. Sonra başçı respublikada və rayonda həyata keçirilən sosial–iqtisadi inkişaf barədə məlumat verib.



Rayon prokuroru Tural Yusifov insan hüquq və azadlıqlarının təminatının müasir dünyada demokratik inkişafın ayrılmaz hissəsi olduğunu bildirib. Sonra prokurorluq orqanlarının Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə yarandığını, 100 il ərzində təkmilləşib inkişaf etdiyini söyləyib. Ölkəmizdə ulu öndər Heydər Əliyev ideyalarının inkişaf etdirildiyini, qanunçuluğun qorunmasının ali məqsəd daşıdığını bildirib.

İsmayıllı rayon məhkəməsinin hakimi Rəfayel Şirinov, rayon polis şöbəsinin rəisi Telman Ağasiyev, Dövlət Təhlükəsizliyi Xidməti rayon şöbəsinin rəis əvəzi Cavid Məmmədov, SHXÇDX-nin rəisi Xamis Bədəlov və başqaları peşə bayramları münasibətilə prokurorluq işçilərini təbrik edib, bu orqanların fəaliyyətinə verilən yüksək qiymətdən danışıblar.

Sonda rayon İcra Hakimiyyətinin başçısı tərəfindən rayon prokurorluğunun işçilərinə fəxri fərmanlar təqdim olunub.

## KƏLBƏCƏR RAYON PROKURORLUĞU





Oktyabrın 1-də Azərbaycan Prokurorluğunun yaranmasının 100 illiyi – peşə bayramı Kəlbəcər rayon İcra Hakimiyyətində qeyd edilib.

Tədbirdə Kəlbəcər rayon İcra Hakimiyyətinin başçısı Aqil Məmmədov, rayon prokuroru Rasim Musayev, hüquq-mühafizə orqanlarının rəhbərləri və əməkdaşları, rayon İcra hakimiyyətinin məsul işçiləri iştirak ediblər.

Tədbir iştirakçıları İcra Hakimiyyətində ulu öndər Heydər Əliyevin büstü önünə tər çiçəklər qoyublar.

Rayon başçısı Aqil Məmmədov tədbirdə çıxış edərək ümummilli lider Heydər Əliyevin 17 iyul 1998-ci il tarixdə imzaladığı Sərəncamla hər il oktyabr ayının 1-nin Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edildiyini bildirib, bütün prokurorluq işçilərini peşə bayramları və Azərbaycan Prokurorluğunun yaranmasının 100-cü ildönümünü münasibətilə təbrik edib, onlara məsul və şərəfli işlərində yeni-yeni uğurlar arzulayıb.

Geniş məruzə ilə çıxış edən rayon prokuroru Rasim Musayev prokurorluq orqanlarına göstərilən diqqət və qayğıya, fəaliyyətləri üçün yaradılan yüksək səviyyəli şəraitə görə Prezident İlham Əliyevə öz dərin minnətdarlığını bildirib.

Tədbirdə digər çıxış edənlər prokurorluq işçilərinin peşə bayramı münasibətilə öz səmimi təbriklərini çatdırıblar.

## KÜRDƏMİR RAYON PROKURORLUĞU

Oktyabrın 1-də rayonun Heydər Əliyev Mərkəzində Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə tədbir keçirilib.

Kürdəmir rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov, rayonun hüquq-mühafizə, idarə, müəssisə, təşkilat rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri, prokurorluq işçiləri Heydər Əliyev parkına gələrək ümummilli liderin abidəsi önünə gül dəstələri düzərək dahi rəhbərin xatirəsini dərin ehtiramla yad ediblər.



Sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində dahi rəhbərə həsr olunan guşələrlə, foto-stendlərlə tanış olublar.

Tədbirdə Kürdəmir rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov prokurorluq orqanları işçilərini peşə bayramı günü münasibətilə təbrik edib, onlara işlərində və xidməti fəaliyyətlərində uğurlar arzulayıb. Ceyhun Cəfərov öz çıxışında prokurorluğun yaranması tarixindən, prokurorluq orqanlarının dinamik inkişafının ulu öndərin hakimiyyəti dövrünə təsadüf etməsindən, məhz bundan sonra prokurorluq orqanlarının fəaliyyətində keyfiyyətcə yeni mərhələnin başlanmasından, qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində prinsipial addımlar atılmasından, qanunun aliliyinin təmin olunmasından və s. danışıb.



Tədbirdə iştirak edən qonaqlar çıxış edənlər prokurorluq orqanları işçilərini peşə bayramı günü münasibətilə təbrik ediblər.

Prokurorluq işçiləri çıxış edərək prokurorluq orqanlarına göstərilən diqqət və qayğıya, fəaliyyətləri üçün yaradılan yüksək səviyyəli şəraitə görə minnətdarlıqlarını bildiriblər. Bildirilib ki, məhz ümummilli lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən hər il oktyabrın 1-nin “Prokurorluq işçilərinin peşə bayramı günü” kimi qeyd edilməsinin tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğa dövlət qayğısının ifadəsi, ölkəmizdə prokurorluğun roluna rəsmi münasibətin dövlət səviyyəsində təzahürüdür. Ulu öndərin “Mən, Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram” kəlamı bu gün də hər bir prokurorluq işçisinin qürur mənbəyidir.

Tədbirin sonunda xidmətdə fərqlənən bir qrup prokurorluq işçisi rayon İcra Hakimiyyəti başçısı tərəfindən Fəxri Fərmanla təltif ediliblər.

## QAZAX RAYON PROKURORLUĞU

Sentyabrın 19-da Qazax rayonunda 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan prokurorluq orqanlarının yaranmasının 100 illiyi münasibətilə tədbir keçirilib.

Gənclər Mərkəzində keçirilən tədbirdə Qazax rayon İcra Hakimiyyəti başçısı aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilaların rəhbərləri, RİHB-nin İnzibati Ərazi Dairəsi üzrə nümayəndələri və bələdiyyə sədrləri, təhsil, səhiyyə, mədəniyyət işçiləri, BDU Qazax filialı və Qazax Dövlət Sosial-İqtisadi Kollecin tələbələri, ziyalılar, KİV nümayəndələri iştirak edib.



Tədbir iştirakçıları əvvəlcə Qazax şəhərinin mərkəzində ucaldılan ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq əziz xatirəsini böyük ehtiramla yad ediblər. Ümummilli liderin adını daşıyan Mərkəzdə dahi şəxsiyyətin həyat və fəaliyyəti ilə yaxından tanış olublar.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan prokurorluq orqanlarının yaranmasının 100 illiyi münasibətilə Baş prokuror Zakir Qaralov başda olmaqla prokurorluq sahəsində çalışan bütün əməkdaşları təbrik edib, ən xoş arzularını çatdırıb. Qeyd edib ki, ulu öndər Heydər Əliyevin hər il oktyabr ayının 1-nin Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd edilməsinə dair imzaladığı 17 iyul 1998-ci il tarixli Sərəncamı bu əlamətdar tarixi əbədiləşdirməklə, reallığı bərpa etmiş və prokurorluğun demokratik və hüquqi cəmiyyətdə statusu məsələsinə dövlət səviyyəsində münasibət bildirib. Azərbaycan Respublikası Prokurorluğu orqanlarının bu gün dünya standartlarına uyğun fəaliyyəti qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi, insan və vətəndaş hüquqlarının təmin olunması prinsiplərinə əsaslanan, demokratik cəmiyyətdə özünəməxsus yer tutan orqan kimi formalaşması və prokurorluq orqanlarının konstitusion statusa





malik olmaqla dövlət idarəetməsində mühüm əhəmiyyət daşıması yalnız ulu öndər Heydər Əliyevin rəhbərliyi altında başlanan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən məhkəmə-hüquq islahatları və hərtərəfli dövlət dəstəyi nəticəsində mümkün olub. Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən də prokurorluq orqanlarına yüksək etimad, dövlət səviyyəsində hərtərəfli diqqət və qayğı göstərilir, onun fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görülür.

Qazax rayon prokuroru Əlirza Babayev "Prokurorluq orqanlarının yaranma tarixi, formalaşması və fəaliyyəti" mövzusunda çıxış edərək prokurorluq orqanlarının yaranması tarixi barədə ətraflı məlumat verib.



Ümummilli lider Heydər Əliyevin prokurorluq işçilərinin peşə fəaliyyətini yüksək qiymətləndirdiyini bildirib və müdrik kəlamlarını xatırladıb: "Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu edərdim çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda, Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Azərbaycan Prezidenti kimi, mən Azərbaycan prokurorluğuna inanıram, güvənirəm və arxalanıram", "Mən prokurorluqda işləyən insanların əksəriyyətini sədaqətli və peşəkar işçi hesab edirəm. Təbiidir ki, belə adamlara etimad göstərmək, etibar etmək lazımdır...". Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən prokurorluq orqanlarına göstərilən yüksək etimad, dövlət səviyyəsində hərtərəfli qayğı və diqqət, onun fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün görülən tədbirlərdən danışıb. Yekunda bildirilib ki, dövlətinə, xalqına və Prezidentinə hər zaman sadiqlik nümayiş etdirən prokurorluq orqanları bundan sonra da üzərinə düşən bütün vəzifələri məsuliyyətlə yerinə yetirməklə, cinayətkarlığın bütün forma və təzahürlərinə qarşı mübarizədə prinsipial mövqe tutacaq, vətəndaşların azad və təhlükəsiz yaşamaq kimi fundamental hüququnun reallaşdırılması sahəsində bütün zəruri tədbirləri həyata keçirəcəklər.



Qazax rayon polis şöbəsinin rəisi Ədalət Əliyev, Qazax rayon məhkəməsinin hakimi Ağarza Səmədov, BDU Qazax filialının direktoru, coğrafiya elmləri doktoru, professor Vüsət Əfəndiyev, Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal, sərbəst güləş üzrə SSRİ idman ustası, əməkdar məşqçi, Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman xadimi Ramiz Tağıyev çıxış edərək Azərbaycan Prokurorluğunun 100 illik yubileyi münasibətilə dövlətimizin, xalqımızın qanununun keşiyində dayanan, öz peşəsini şərəflə yerinə yetirən prokurorluq işçilərini təbrik ediblər. Müstəqil Azərbaycanın çiçəklənməsi naminə gələcək işlərində uğurlar arzu ediblər.

Sonda 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan prokurorluq orqanlarının yaranmasının 100 illiyi münasibətilə rayon prokurorluğunun bəzi işçiləri Qazax rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanı ilə təltif olunublar, qiymətli hədiyyələr ilə mükafatlandırılıblar.

## QUSAR RAYON PROKURORLUĞU

Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyinin qeyd edilməsi ilə əlaqədar avqustun 17-də Qusar rayon prokurorluğunda "Daim müasirləşərək hər zaman dövlətçiliyin və qanunçuluğun keşiyində duran Azərbaycan Prokurorluğunun yaranmasının 100 illiyini qeyd edir" mövzusunda tədbir keçirilib.

Tədbirdə rayon məhkəməsi, hüquq-mühafizə orqanlarının rəhbərliyi, prokurorluq orqanlarının veteranları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan rayon prokuroru Mübariz Əhmədov prokurorluq orqanlarının yaradılması əsasından, bu əsası qoymuş ümummilli lider Heydər Əliyevin böyük rolundan, prokurorluğun fəaliyyətində qazandığı uğurların dövlət qayğısı ilə bağlılığından danışıb. Rayon prokurorluğunun dövlətçilik maraqları mövqeyindən çıxış edərək fəaliyyətini qurması, rayon hüquq-mühafizə orqanları ilə birgə sıx əməkdaşlığı nəticəsində rayonda insan hüquq və azadlıqlarının qorunması, cinayətkarlığa qarşı mübarizəsinin daim məqsədyönlü şəkildə aparılaraq cinayətlərin həm sayında, həm də ağırlıq dərəcələrində azalmanın müşahidə edilməsi bildirilib, konkret faktlar barədə məlumat verib.




Rayon məhkəməsinin sədri Adil Vəliyev, rayon polis şöbəsinin rəisi Zaur Bədəlov, prokurorluq orqanlarının veteranı Zahid Vəliyev, Qusar RİH Hüquq şöbəsinin müdiri Telman Kazımov, DTX rayon şöbəsinin rəisi Ramin Əliyev, Ədliyyə Nazirliyi rayon İcra və probasiya şöbəsinin rəisi Elnur Yusifov, "Qusar" qəzetinin redaktoru Vidadi Sevzixanov və digər natiqlər çıxış edərək prokurorluq işçilərinin digər əlaqədar dövlət təsisatları ilə birlikdə dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi istiqamətində fəaliyyətini təqdir edib, aşunlu yubiley, eyni zamanda peşə bayramı münasibətilə təbrik edib çətin və şərəfli işlərində uğurlar arzulayıblar.




Rayon prokuroru Mübariz Əhmədov səmərəli ictimai və hamilik fəaliyyətinə görə bir müddət öncə Qusar rayon prokuroru vəzifəsində çalışan prokurorluq orqanlarının veteranı Zahid Vəliyevə rayon prokurorluğunun fəxri fərmanını təqdim edib.

Tədbirə yekun vuran rayon prokuroru Mübariz Əhmədov rəhbərlik etdiyi qurumun hər bir işçisinin fəal vətəndaşlıq mövqeyində dayanaraq dövlət səviyyəsində prokurorluğa göstərilən etimadın məsuliyyətini dərindən dərk etdiyini, yüksəliş mərhələsini yaşayan və hərtərəfli sosial-iqtisadi işkişafa nail olan Qusar rayonunun tərəqqisi naminə öz səlahiyyətləri daxilində zəruri tədbirlər gördüklərini vurğulayıb.

Tədbir iştirakçılarana təşəkkürünü bidirərək Qusar rayon prokurorluğu kollektivinin öz fəaliyyətini Prezident İlham Əliyevin müəyyən etdiyi tələblər səviyyəsində qurmaqla, müstəqilliyin və suverenliyin təmin olunması, ictimai-siyasi sabitliyin və təhlükəsizliyin daha da möhkəmləndirilməsi, dövlətçiliyin qorunması istiqamətində davam etdirəcəyini əmin edib.

***

Oktyabrın 1-də Qusar şəhər Heydər Əliyev Mərkəzində "1 oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü" və prokurorluq orqanlarının yaranmasının 100 illik yubileyi münasibətilə tədbir keçirilib.



Tədbirdə Qusar rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov, rayon İcra Hakimiyyəti Aparatının işçiləri, Qusar rayon Prokurorluğunun əməkdaşları və rayonun idarə və təşkilat rəhbərləri iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan Şair Alxasov peşə bayramı münasibəti ilə bütün prokurorluq işçilərini təbrik edib, prokurorluq orqanlarının müstəqil dövlətimizə uyğun formalaşmasında ümummilli lider, ulu öndər Heydər Əliyevin müstəsna rolunun olduğunu qeyd edib.

Qusar rayon prokuroru Mübariz Əhmədov göstərilən diqqətə görə ölkə başçısı cənab İlham Əliyevə və rayon rəhbərliyinə öz təşəkkürünü bildirib.

Sonda rayon prokurorluğunun bir qrup işçisi prokurorluq sistemində səmərəli fəaliyyətinə görə rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanı və qiymətli hədiyyələri ilə mükafatlandırılıblar.

## LAÇIN RAYON PROKURORLUĞU

Sentyabrın 13-də Laçın rayon prokurorluğunda baş tutan toplantıda rayonun hüquq-mühafizə, həmçinin ədliyyə orqanlarının rəhbərləri ilə yanaşı Laçın rayon İcra Hakimiyyəti başçısının müavini İlqar İlyasov da iştirak edib.

İlk növbədə, prokurorluq orqanlarının bütün əməkdaşlarını, təqaüddə olan veteranları Azərbaycan Prokurorluğunun 100 illik yubileyi və qarşıdan gələn peşə bayramı münasibətilə təbrik edən Laçın rayon prokuroru vəzifəsini icra edən Ceyhun Almasov bildirib ki, bu gün Azərbaycan Milli Prokurorluğunun yaranmasının 100-cü ildönümünü qeyd edən prokurorluq orqanları çətin və mürəkkəb, eyni zamanda, şərəfli bir inkişaf yolu keçərək formalaşıb, hansı şəraitdə fəaliyyət göstərməsindən asılı olmayaraq son nəticədə millətinə və dövlətçilik ideyalarına sədaqətlə qulluq edib, qanunçuluğun möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizə işində müstəsna xidmətlər göstərib.

Natiq qeyd edib ki, prokurorluq orqanlarının müstəqil dövlətimizə uyğun formalaşmasında xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin müstəsna rolu olub, cənab Prezident İlham Əliyev də prokurorluq işçilərinə hər zaman diqqət və qayğıkeşliklə yanaşıb. Bunun nəticəsidir ki, prokurorluq əməkdaşlarının əmək haqları xeyli artırılıb, şəxsi heyətin məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılıb.

O, vurğulayıb ki, bu il 100 illiyini qeyd edəcək Azərbaycan prokurorluq orqanlarının yaranma tarixi Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli Qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq qurumunun təsis edilməsindən və məhkəmə orqanları sistemində fəaliyyətə başlamasından hesablanır. Ulu öndər Heydər Əliyev prokurorluğun fəaliyyətini daim yüksək qiymətləndirərək hər il oktyabr ayının 1-nin Azərbaycanda prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd edilməsinə dair 17 iyul 1998-ci il tarixli sərəncam imzalamaqla bu əlamətdar tarixi əbədiləşdirmişdir.

Sonra tədbirdə çıxış edənlər prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülən işlərdən, əldə edilən uğurlardan danışıblar.

***

Oktyabrın 1-də Laçın rayon prokurorluğunun əməkdaşları öz peşə bayramlarını və Azərbaycan Prokurorluğunun yaranmasının 100 illiyi qeyd ediblər.

Rayon prokurorluğunun işçiləri və rayon fəalları Laçın rayon İcra Hakimiyyətinin inzibati binasının qarşısındakı ulu öndər Heydər Əliyevin büstünü ziyarət edərək, abidə önünə tər güllər düzüblər.



Sonra tədbir Laçın rayon İcra Hakimiyyətinin akt zalında davam etdirilib. Laçın rayon İcra Hakimiyyəti başçısı Aqil Nəzərli prokurorluq işçilərini peşə bayramları münasibəti ilə təbrik edib, onlara uğurlar arzulayıb.

Laçın rayon prokuroru Ceyhun Almasov prokurorluq işçilərinin peşə bayramı günü və Azərbaycan Prokurorluğunun yaranmasının 100 illiyi ilə bağlı bütün prokurorluq işçilərini təbrik edib, prokurorluq işçilərinin ölkəmizdə bütün dövrlərdə dövlət müstəqilliyimizin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə önəmli rol oynamasından geniş söhbət açıb. O, həmçinin qeyd edib ki, ən çətin anda, ən dar məqamda prokurorluq işçiləri həmişə xalqın köməyinə çatıb, suverenliyin qorunmasında xalqa ləyaqətlə xidmət edib. Bu gün Azərbaycanın ən stabil, ən sabit bir məmləkət olduğunu bildirən rayon prokuroru Ceyhun Almasov xalqın ümummilli lideri Heydər Əliyevin, 2003-cü ildən isə ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunan prokurorluq işçilərinin öz

xidməti vəzifələrini ləyaqətlə yerinə yetirmələrindən fəxarətlə danışıb. Rayon prokuroru Ceyhun Almasov 1998-ci il 17 iyul tarixdə ölkə Prezidenti Heydər Əliyev tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1918-ci il 1 oktyabr tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlamasını əsas tutaraq hər il oktyabr ayının 1-nin Azərbaycan Respublikasının Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə imzaladığı sərəncamdan danışaraq, ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası Prokurorluğunun qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət edən orqana çevrilməklə, sivil və demokratik inkişaf yolu keçdiyini bildirib.

Tədbirdə çıxış edən rayon fəalları prokurorluq işçilərini peşə bayramı günü münasibəti ilə təbrik edib, ölkədə əmin-amanlığın qorunmasında prokurorluq orqanlarının əvəzolunmaz xidmətlərini yüksək qiymətləndirib, onlara gələcək işlərində uğurlar arzulayıblar.

Tədbirin sonunda rayon prokurorluğunun işçiləri Laçın rayon İcra Hakimiyyətinin fəxri fərmanları ilə təltif ediliblər.

## LƏNKƏRAN RAYON PROKURORLUĞU



Prokurorluq işçilərinin peşə bayramı günü Lənkəranda da qeyd edilib.

Sentyabrın 10-da rayon prokurorluğunda “Azərbaycan Respublikası Prokurorluğu orqanlarının 100 illik yubileyi” mövzusunda tədbir keçirilib.

Oktyabrın 1-də Lənkəran şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, hüquq-mühafizə orqanlarının rəhbərləri, prokurorluq işçiləri əvvəlcə Xatirə Parkında ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, ulu öndərin xatirəsini ehtiramla anıblar.

Prokurorluğun binasında keçirilən tədbirdə rayon prokuroru Elçin Məmmədov həmkarlarını əlamətdar gün münasibətilə təbrik edərək, respublikanın prokurorluq orqanlarının keçdiyi 100 illik şərəfli yoldan danışıb.





Elçin Məmmədov çıxışında ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin davamlı diqqəti və qayğısı sayəsində ölkəmizdə qanunçuluğun, vətəndaşların hüquq və azadlıqlarının qorunmasında, eləcə də cinayətkarlıqla mübarizədə böyük nailiyyətlərin əldə olunduğunu diqqətə çatdırıb.

Tədbirdə çıxış edənlər prokurorluq işçilərini peşə bayramı münasibətilə təbrik edərək, onlara çətin və şərəfli işlərində xoş arzularını çatdırıblar.

## MASALLI RAYON PROKURORLUĞU

Oktyabrın 1-də Masallı şəhərindəki Heydər Əliyev Mərkəzində prokurorluq işçilərinin peşə bayramına və Azərbaycan Prokurorluğunun 100 illiyinə həsr olunan toplantı keçirilib.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini ehtiramla yad ediblər.







Tədbiri giriş sözü ilə açan Masallı rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov prokurorluq işçilərini peşə bayramı münasibətilə təbrik edib. Qeyd edib ki, hər il oktyabrın 1-də prokurorluq əməkdaşları və eləcə də respublikanın hüquq-mühafizə ictimaiyyəti prokurorluq işçilərinin peşə bayramını təntənəli şəkildə qeyd edir. Bu il isə bu bayramın mahiyyəti daha da önəmlidir. Çünki müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin hüquq-mühafizə sistemində düz 100 il bundan öncə prokurorluq orqanları yaradılmışdır. Məhz həmin vaxt, yəni Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlaması müstəqil bir dövlət təsisatı olan Azərbaycan Prokurorluğunun yaranması və fəaliyyətə başlaması kimi tarixə düşmüşdür. Bu günün təntənəli şəkildə qeyd olunmasında isə bir Ümummlli lider Heydər Əliyevə borcluyuq. Məhz xalqımızın ümummilli liderinin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə yuxarıda qeyd edilən tarix əbədiləşdirilmiş və hər il oktyabr ayının 1-ni Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi qərara alınmışdır. Ümummilli liderin hüquqi dövlət quruculuğu sahəsində ən önəmli addımlarından biri də qanunun aliliyinin keşiyində dayanan hüquq-mühafizə orqanlarının işinin təkmilləşdirilməsi sahəsində qəbul etdiyi qərarlar, verdiyi göstəriş və tövsiyələrdir.

Sonra Masallı rayon prokuroru Allahverdi Novruzov məruzə ilə çıxış edib. Bildirilib ki, Masallı rayon prokurorluğu da qanunçuluğun bərqərar olunmasında, qanunun aliliyinin qorunmasında əhali arasında hüquqi təbliğatın aparmasında böyük işlər görür. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi hüquqi dövlət quruculuğu və strateji inkişaf konsepsiyasına uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən inamla həyata keçirilən ardıcıl və sistemli islahatlar, idarəetmə mexanizminin mütəmadi olaraq təkmilləşdirilməsi ilə müşayiət olunan müdrik və səmərəli dövlət idarəçiliyi, təhlükəsizliyin və sabitliyin gücləndirilməsi ilə bağlı vaxtında görülən tədbirlər ölkənin müstəqilliyinin daha da möhkəmləndirilməsinə, onun davamlı və dayanıqlı inkişafının təmin olunmasına, dövlətimizin qüdrətinin artmasına, xalqımızın əmin-amanlığının və rifah halının, vətəndaş həmrəyliyinin yüksəlməsinə zəmin yaratmışdır. Masallı rayon prokurorluğu bundan sonra da digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin, dövlətçiliyimizin maraqlarının qorunması, cinayətkarlığa qarşı kəskin, barışmaz mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işində daha da fəal olacaqlar.

Tədbirdə Masallı rayon Polis Şöbəsinin rəisi Habil Əmiraslanov, şəhər 2 nömrəli məktəbin direktoru Mehriban Əzizova, rayon veteranlar şurasının sədri Məmmədağa Şiriyev və Öncəqala ərazi nümayəndəsi Xudayar Həsənov və başqaları çıxış edərək qeyd ediblər ki, ulu öndər Heydər Əliyevin Sərəncamı ilə hər il oktyabrın 1-i Azərbaycanda prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Diqqətə çatdırılıb ki, ümummilli liderin prokurorluq işçilərinə göstərdiyi diqqət və qayğı bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prokurorluq işçiləri ölkədə qanunun aliliyinin təmin edilməsi, cinayətkarlığa qarşı mübarizə aparılması, vətəndaşların hüquqlarının etibarlı müdafiəsi işində üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər.

Tədbirin sonunda prokurorluq işçilərinin bir qrupuna fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim olunub.

## SABİRABAD RAYON PROKURORLUĞU




Azərbaycan Prokurorluğunun yaranmasının 100 illiyi münasibətilə sentyabrın 12-də Sabirabad rayon prokurorluğunda rayon məhkəmə, polis şöbəsinin rəhbərliyi və ictimaiyyət nümayəndələrinin iştirakı ilə tədbir keçirilib.

Oktyabrın 1-də yubiley tədbiri rayon İcra Hakimiyyətinin iclas zalında təntənəli şəkildə qeyd edilib.

Tədbirdən öncə ulu öndər Heydər Əliyevin rayonun Mərkəzi meydanında ucaldılan abidəsi yüksək ehtiramla yad edilərək önünə gül-çiçək dəstələri düzülüb.

Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov prokurorluq işçilərinin peşə bayramı



və Azərbaycan Prokurorluğunun yaranmasının 100 illiyi münasibətilə təbriklərini çatdırıb, xoş arzularını bildirib. Qeyd edilib ki, Prokurorluq dövlətin həyatında mühüm yer tutur, insan hüquq və azadlıqlarının təmin edilməsində müstəsna rol oynayır. Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə 1998-ci ildən etibarən prokurorluq işçilərinin peşə bayramı ölkədə qeyd edilir. Bu il xüsusilə əlamətdardır ona görə ki, Azərbaycan Prokurorluğunun yaranmasının 100 illiyidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin ənənələrinə sadiq qalaraq prokurorluq işçilərinə daim yüksək qayğı göstərir.

Rayon prokuroru Pərvin Quliyev respublikanın Baş prokuroru Zakir Qaralovun təbrik məktubunu oxuyub, prokurorluq orqanları işçilərinin qarşısında duran vəzifələrindən danışaraq həmkarlarını peşə bayramı münasibətilə təbrik edib.

Tədbirdə rayon Polis Şöbəsinin rəisi Namiq Camalov, rayon məhkəməsinin sədri Füzuli Pənahov, rayon ziyalılar cəmiyyətinin sədri Böyükağa Həmidov, rayon Gənclər və İdman İdarəsinin rəisi Nadir Quliyev çıxış edərək təbriklərini çatdırıblar.

Rayon rəhbəri Nazim İsmayılov bir qrup prokurorluq işçisini fəxri fərmanla təltif edib.

## ŞAMAXI RAYON PROKURORLUĞU

Oktyabrın 1-də Şamaxıda "1 Oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü" və Milli Prokurorluğun yaranmasının 100 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaq keçirilib.

Tədbirdə Şamaxı rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev, İcra Hakimiyyəti başçısının müavini, Aparatın şöbə müdirləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, rayon prokurorluğunun işçiləri iştirak ediblər.

İştirakçılar əvvəlcə müstəqil Azərbaycan Respublikasının yaradıcısı və qurucusu ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidəsinin önünə tər çiçəklər düzərək ulu öndərə məhəbbət və ehtiramlarını ifadə ediblər.

Yığıncaqda Şamaxı rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev çıxış edərək rayon prokurorluğunun işçilərini peşə bayramı günü münasibətilə təbrik edib. Bildirib ki, ümummilli lider Heydər Əliyev 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə oktyabr ayının 1-ni prokurorluq işçilərinin peşə bayramı günü elan edib və hər il bu əlamətdar hadisənin qeyd olunmasını rəsmiləşdirib. Ölkənin dövlət təsisatları sırasında xüsusi yeri və statusu olmaqla, fəaliyyəti Konstitusiya normaları ilə nizama salınan Azərbaycan prokurorluğu yarandığı gündən indiyədək mürəkkəb, lakin eyni zamanda şanlı bir inkişaf yolu keçmiş, zamanın çətin sınaqları ilə üzləşməsinə baxmayaraq, bütün imtahanlardan üzüağ çıxmış, doğma xalqına və müstəqil dövlətçiliyimizin maraqlarına xidmət edən sivil və demokratik bir quruma çevrilib. Prokurorluq orqanlarının məzmunca yeniləşməsi və işinin müasir tələblərə uyğun tam yeni müstəvidə qurulmasında dövlət başçısı İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə «Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsinin müstəsna əhəmiyyətini xüsusi vurğulanıb.

Şamaxı rayon prokuroru Müşfiq Səfərov respublika prokurorluq orqanlarının cəmiyyətimizdəki rolu, bu orqanın tarixi keçmişi və müstəqillik illərində gördüyü işlər barədə məruzə ilə çıxış edib. Dövlət başçısı İlham Əliyev tərəfindən prokurorluq işçilərinə göstərilən qayğı minnətdarlıqla qeyd edilərək bu yüksək diqqətin dövlətçiliyə xidmətdə onlar üçün güclü stimul olduğu xüsusi vurğulanıb və inamla bildirilib ki, Azərbaycan Prokurorluğunun kollektivi hər zaman öz məsuliyyətini dərindən dərk etməklə, fəaliyyətinin dövlət tərəfindən göstərilən etimada layiq səviyyədə qurulması üçün zəruri tədbirlərin görülməsini təmin edəcək, respublikamızın dinamik inkişafına istiqamətləndirilmiş yeni məzmunlu dövlətçilik siyasətinin reallaşdırılmasında öz xidmətlərini göstərəcəkdir.

Tədbir iştirakçıları sonda rayon prokurorluğunun əsaslı təmir olunmuş inzibati binası ilə tanış olublar.

## SAMUX RAYON PROKURORLUĞU



Oktyabrın 1-də Samux rayonu İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Prokurorluq orqanları əməkdaşlarının peşə bayramı" günü münasibətilə peşə bayramı tədbiri keçirilib.

Tədbirdə İcra Hakimiyyətinin məsul işçiləri, hüquq-mühafizə orqanlarının rayon şöbələrinin rəhbərləri, idarə, müəssisə və təşkilat rəhbərləri, o cümlədən rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbiri Samux rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev açaraq başda Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov olmaqla bütün prokurorluq orqanları işçilərini peşə bayramı münasibəti ilə təbrik edib, Azərbaycan Respublikasında prokurorluq orqanlarının rolu, tarixi, bu günü və ölkə başçısının prokurorluq orqanlarına və işçilərinə qayğısı haqqında geniş nitq söyləyib.

Samux rayon prokuroru Nurəddin Qasımov keçirilən peşə bayramı münasibəti ilə geniş məruzə edib. Məruzə ətrafında rayon ictimaiyyətinin nümayəndələri çıxış ediblər. Hüquq-mühafizə orqanlarının rayon şöbələrinin rəhbərləri də təbriklərə qoşulublar.

Sonda İcra Hakimiyyətinin başçısı tərəfindən rayonda öz işləri ilə fərqlənən prokurorluğun işçiləri hədiyyələrlə mükafatlandırılıblar.

## ŞUŞA RAYON PROKURORLUĞU

Şuşa rayon İcra Hakimiyyətinin və Şuşa rayon prokurorluğunun birgə təşkilatçılığı ilə sentyabrın 19-da "Azərbaycan Prokurorluğu Xalq Cümhuriyyətinin 100 illiyində" adlı tədbir keçirilib.

Tədbirdə Şuşa rayon İcra Hakimiyyətinin başçısı, "Azərbaycan Respublikas Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İdarə Heyətinin sədri-icmanın rəhbəri Bayram Səfərov, Milli Məclisin deputatı Flora



Qasımova, Şuşa rayon prokurorluq orqanının işçiləri, idarə, müəssisə rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak edib.



Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlayıb.

Tədbiri giriş sözü ilə açan Şuşa rayon İcra Hakimiyyətinin başçısı, "Azərbaycan Respublikas Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İdarə Heyətinin sədri-icmanın rəhbəri Bayram Səfərov Azərbaycan Respublikası Prokurorluğunun qazandığı uğurlar, qanunçuluğun və dövlətçiliyin qorunmasında səmərəli fəaliyyəti barədə ətraflı məlumat verib. Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 1 oktyabr tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq təsis edilməklə fəaliyyətə başlayıb. Ulu öndər Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamı ilə hər il oktyabr ayının 1-i Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd edilir. Demokratik cəmiyyətdə özünəməxsus yer tutan prokurorluq orqanlarının formalaşması və dövlət idarəetməsində mühüm əhəmiyyət daşıması Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən məhkəmə-hüquq islahatları və hərtərəfli dövlət dəstəyi nəticəsində mümkün olub.

Şuşa rayonunun prokuroru vəzifəsini icra edən Məmmədəli Rəhmətov prokurorluq orqanlarının yaranma tarixindən danışaraq prokurorluğun son 100 il ərzində keçdiyi yüksək inkişaf yolu və həyata keçirilən islahatlar barədə məlumat verib. Bildirilib ki, xalqın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə hazırlanan 1995-ci il Azərbaycan Respublikasının Konstitusiyası dövlətin və idarəetmənin hüquqi əsaslarını, hüquq sisteminin bünövrəsini formalaşdırıb. Əsas Qanunda Azərbaycan Respublikası Prokurorluğuna dövlət idarəetmə sistemində prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verilib. Müasir prokurorluq orqanlarının Azərbaycan Xalq Cümhuriyyətinin prokurorluq qurumunun hüquqi varisi olmasını təsdiqləyib.

Milli Məclisin deputatı Flora Qasımova, bir zamanlar Şuşa rayon prokuroru işləmiş Zahid Vəliyev Azərbaycan Respublikası Prokurorluğu orqanlarında qanunçuluq prinsiplərinin daim ön plana çəkildiyi, cəmiyyətdə prokurorluğa ictimai etimadın artdığı və onun nüfuzunun yüksəldiyini xüsusi vurğulayıblar.

Şuşa rayon İcra Hakimiyyəti tərəfindən rayon prokurorluğunun işçiləri fəxri fərmanla təltif ediliblər.

Bədii hissədə Şuşa rayon mədəniyyət müəssisələrinin prokurorluq orqanı işçilərinə bayram təbriki təqdim edilib.

## TƏRTƏR RAYON PROKURORLUĞU

1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan prokurorluq orqanlarının yaranmasının 100 illiyi münasibətilə Tərtər rayonunda tədbirlər keçirilib.

Sentyabrın 6-da Tərtər rayon prokurorluğunda ictimaiyyət nümayəndələri görüş təşkil edilib. Görüşə həmçinin Tərtər hərbi prokurorluğunun və rayon hüquq-mühafizə orqanlarının əməkdaşları dəvət ediliblər. Sentyabrın 19-da rayonun "Gənclər Mərkəzi"ndə ictimaiyyət nümayəndələri, orta məktəbin müəllim və şagird heyəti ilə geniş tərkibdə görüş keçirilib. Görüşdə prokurorluğun yaranma tarixi, inkişafı, 1993-cü ildən sonrakı dövrdə müstəqil Azərbaycan Respubliksında qanunçuluq və hüquq qaydasının təmin edilməsi, cinayətkarlığa qarşı qətiyyətli mübarizədə yeri və rolu barədə çıxış olunub.



***

Oktyabrın 1-də Tərtər rayonunda 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan prokurorluq orqanlarının yaranmasının 100 illiyi münasibətilə tədbir keçirilib.



Əvvəlcə tədbir iştirakçıları mərkəzi meydanda ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

Tədbir sonra Yeni Azərbaycan Partiyasının inzibati binasının akt zalında davam etdirilib.

Tədbirdə çıxış edən Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov prokurorluq işçilərini peşə bayramları və Azərbaycan prokurorluq orqanlarının yaranmasının 100 illiyi münasibəti ilə təbrik edib, işlərində uğurlar arzulayıb. Qeyd edilib ki, ulu öndər Heydər Əliyevin hər il oktyabr ayının 1-nin Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd edilməsinə dair imzaladığı 17 iyul 1998-ci il tarixli Sərəncamı bu əlamətdar tarixi əbədiləşdirməklə, reallığı bərpa etmiş və prokurorluğun demokratik və hüquqi cəmiyyətdə statusu məsələsinə dövlət səviyyəsində münasibət bildirib. Azərbaycan Respublikası Prokurorluğu orqanlarının bu gün dünya standartlarına uyğun fəaliyyəti qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi, insan və vətəndaş hüquqlarının təmin olunması prinsiplərinə əsaslanan, demokratik cəmiyyətdə özünəməxsus yer tutan orqan kimi formalaşması və prokurorluq orqanlarının konstitusion statusa malik olmaqla dövlət idarə-





etməsində mühüm əhəmiyyət daşıması yalnız ulu öndər Heydər Əliyevin rəhbərliyi altında başlanan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən məhkəmə-hüquq islahatları və hərtərəfli dövlət dəstəyi nəticəsində mümkün olub. Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən də prokurorluq orqanlarına yüksək etimad, dövlət səviyyəsində hərtərəfli diqqət və qayğı göstərilir, onun fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görülür.



Rayon prokuroru Şıxəli Alməmmədov çıxış edərək ölkəmizdə hüquqi dövlət quruculuğunda, insan hüquq və azadlıqlarının qorunmasında, cinayətkarlığa qarşı mübarizədə prokurorluq orqanlarının rolundan danışıblar. Qeyd olunub ki, çətin və şərəfli bir təkamül yolu keçmiş prokurorluq orqanları bu gün dövlətçilik ideyalarına sarsılmaz inam və sadiqlik nümayiş etdirir, qanunun aliliyinin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, vətəndaşların hüquqlarının etibarlı müdafiəsində öz xidmətlərini göstərir.

Tərtər hərbi prokuroru Hümbət Məmmədov, rayon məhkəməsinin hakimi Mübariz Məmmədov, Tərtər hərbi məhkəməsi İlqar Quluyev, Dövlət Təhlükəsizliyi Xidmətinin Tərtər rayon şöbəsinin rəisi Ülvü Kazımov, polis şöbəsinin rəis əvəzi İlqar Fərəcov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tərtər rayon şöbəsinin rəisi İslam Məmmədov, N saylı hərbi hissənin komandir müavini Babək Səmidli çıxış edərək prokurorluq işçilərini peşə bayramı münasibəti ilə təbrik ediblər.

Tədbirin sonunda Tərtər rayon İcra Hakimiyyəti tərəfindən xidmətdə fərqlənən bir qrup prokurorluq işçisinə fəxri fərman və qiymətli hədiyyələr təqdim olunub.

## TOVUZ RAYON PROKURORLUĞU



Oktyabrın 1-də Tovuz rayonu Heydər Əliyev Mərkəzində Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyinə həsr olunan tədbir keçirilib.

Rayon prokurorluğunun işçiləri və hüquq mühafizə orqanlarının rəhbərləri ilk öncə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül çiçək dəstələri qoymuş, xatirəsini ehtiramla yad ediblər.

Tədbiri giriş sözü ilə Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov açaraq qeyd edib ki, 1 oktyabr Azərbaycan Respublikasında Prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunur. Bu bayramın 1 oktyabr tarixində qeyd olunmasının tarixi kökləri vardır. Azərbaycan Xalq Cümhüriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Prokurorluq orqanları fəaliyyətə başlayıb. Azərbaycan Prokurorluğu həm Sovetlər dönəmində, həm də müstəqillik illərində çətin və şərəfli bir yol keçib. Dövlətçiliyimizin maraqlarının və qanunun aliliyinin təmin olunması, cinayətkarlığa qarşı mübarizə aparılması, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində əvəzsiz xidmətlər göstərib. Ulu öndər Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə "1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı günü" kimi təsis edilib və həmin vaxtdan etibarən bu gün prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunur. Bu il həm də prokurorluq orqanlarının fəaliyyətə başlamasının 100 illik yubileyidir.

Tovuz rayon prokuroru Elçin Qəhrəmanov çıxış edərək prokurorluq orqanlarının fəaliyyətindən, 100 il ərzində keçdiyi şərəfli yoldan danışıb və onların əməyinə verilən yüksək qiymətə görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib.

Tovuz rayon məhkəməsinin hakimi Nofəl Mustafayev, Tovuz rayon polis şöbəsinin rəis müavini İslam Əhmədov, Tovuz rayon Qeydiyyat şöbəsinin rəisi, rayon Qadınlar Şurasının sədri Kifayət İsmayılova, Tovuz rayon İcra Hakimiyyəti başçısının Qovlar şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Oruc Binnətov çıxış edərək prokurorluq orqanlarının fəaliyyətindən danışıb yubley və peşə bayramı münasibətilə təbriklərini çatdırıblar.

Tədbiri rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov yekunlaşdıraraq bildirib ki, bu gün Azərbaycan öz müstəqil inkişaf yolu ilə inamla irəlləyir. Xalqın firavan həyatı üçün möhkəm iqtisadi əsaslar yaradılıb. Həm ölkə miqyasında, həm də regionlar səviyyəsində inkişafımız yüksələn xətlə davam edir. Dünya dövlətləri birliyinə daha sıx inteqrasiya olunan ölkəmizin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artıb. Xalqın qazandığı bütün uğurlar 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkədə həyata kçirilən müasir dövlətçilik siyasətinin məntiqi nəticəsi, Heydər Əliyev siyasi kursunun təntənəsidir. Təbii ki, bu uğurların qazanılmasında Prokurorluq orqanlarının da özünə məxsus yeri vardır. Hörmətli Baş prokuror Zakir Qaralovun rəhbərliyi ilə prokurorluq əməkdaşları hər zaman qanunçuluğun keşiyində ayıq-sayiq dayanmış, müstəqilliyimizin möhkəm-



ləndirilməsinə, dövlət quruculuğuna öz dəyərli töhfələrini vermiş, vətəndaşların hüquqlarının etibarlı müdafiəsini təmin ediblər. Əminliklə deyə bilərik ki, bundan sonra da prokurorluq orqanları, o cümlədən onun mübariz dəstələrindən biri olan Tovuz rayon prokurorluğu hüquqi dövlət quruculuğu, ictimai-siyasi sabitliyin qorunması, əmin-amanlığın təmin olunması sahəsində üzərinə düşən vəzifələri layiqincə və şərəflə yerinə yetirəcəkdir.

Sonda Məmməd Məmmədov Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibəti ilə prokurorluq işçilərini təbrik edib gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

## UCAR RAYON PROKURORLUĞU






Azərbaycan Prokurorluğunun yaranmasının 100 illiyi Ucar rayonunda qeyd olunub.

Avqustın 31-də rayon prokurorluğunda rayon hüquq-mühafizə orqanları rəhbərlərinin və böyük rəis heyətinin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə tədbir keçirilib.

Tədbirdə rayon prokurorluğunun işçiləri "Prokurorluğun strukturu", "Prokurorluğun 100 illik tarixi", "Prokurorluğun cəmiyyətdə rolu" mövzularında çıxış ediblər.

Mövzular ətrafında rayon hüquq-mühafizə orqanlarının əməkdaşları və ictimaiyyət nümayəndələri prokurorluğun cəmiyyətdə rolu ilə bağlı fikirlərini bölüşüb, bütün prokurorluq işçilərini qarşıdan gələn bayram münasibətilə təbrik ediblər.

***

Oktyabrın 1-də Ucar rayon prokurorluğunun işçiləri hüquq-mühafizə orqanlarının rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri ilə birlikdə əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə gül dəstələri qoyub əziz xatirəsini dərin hörmətlə yad ediblər.

Rayon prokurorluğunun inzibati binasında keçirilən yubiley tədbirini açan rayon prokuroru Elşən Abdullayev Azərbaycan Prokurorluğunun bir əsrlik tarixinə nəzər salıb  yüz il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Bakı Dairə Məhkəməsinin nəzdində fəaliyyətə başlamış və uzunmüddətli və mürəkkəb inkişaf yolu keçmiş Azərbaycanın prokurorluq orqanlarının xalqın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə



həyata keçirilən möhtəşəm və hərtərəfli islahatlar nəticəsində, hazırda tamamilə yenidən qurularaq, mütərəqqi normativ-hüquqi bazaya, demokratik məzmunlu fəaliyyət prinsiplərinə və iş metodlarına malik olan, cəmiyyətdə statusuna uyğun yerini tutmuş təsisata çevrildiyini vurğulayaraq, müasir Azərbaycanın banisi ulu öndər Heydər Əliyevin siyasi irsinin ən azadlıqlarının təminatçısı olan yeni nəsil prokurorların yetişməsinə və hazırlıqlı, peşəkar gənc kadrların bu orqanlara irəli çəkilməsinə necə böyük önəm verildiyini elə rayon prokurorluğunun kollektivinin timsalında da aydın görmək olduğunu bildirib. Rayon prokurorluğunun kollektivini peşə bayramı münasibəti ilə təbrik edərək çox gərəkli fəaliyyətlərində uğurlar arzulayıb.



layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün də prokurorluğa dövlət qayğısı və diqqətin ən yüksək səviyyədə olduğunu, dövlətimizin başçısının müvafiq fərman və sərəncamları ilə təsdiq olunan Dövlət proqramlarının icrası nəticəsində prokurorluq orqanlarında bütün istiqamətlər üzrə işin səmərəliliyinin, əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, həmçinin yeni nəsil prokurorluq işçilərinin formalaşdırılması və onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində konkret tədbirlər həyata keçirildiyini diqqətə çatdırıb.

Tədbirdə respublikanın Baş prokuroru Zakir Qaralovun, Ucar rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədovun, bir sıra rayonların hüquq-mühafizə orqanları rəhbərlərinin rayon prokurorluğunun kollektivinə təbrik teleqramları oxunub.

Rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədov çıxış edərək 1 oktyabr tarixini prokurorluq işçilərinin həyatında unudulmaz gün adlandırıb. Mənsur Məmmədov Prokurorluğun yaranmasının 100 illiyi və peşə bayramı münasibəti ilə öz təbriklərini və səmimi arzularını çatdıraraq qeyd edib ki, prokurorluq orqanlarının fəaliyyətini daha da müasirləşdirmək üçün Prerzident İlham Əliyev tərəfindən respublikada hər cür şərait yaradılıb. İnsan və vətəndaş hüquq və

Rəsmi hissədən sonra tədbir bədii hissə ilə Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının xalq artisti Rəfayıl Bayramovun rəhbərliyi altında Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının Dövlət Kamera Orkestrinin bayram konserti ilə davam etdirilib.

***

Yubiley münasibətilə Ağdam, Ağdaş, Ağsu, Astara, Balakən, Beyləqan, Bərdə, Füzuli, Goranboy, Hacıqabul, Xızı, Xocavənd, Qax, Qəbələ, Qobustan, Qubadlı, Lerik, Mingəçevir, Neftçala, Saatlı, Şabran, Salyan, Siyəzən, Şirvan, Şuşa, Tovuz, Yardımlı, Yevlax, Zaqatala, Zəngilan, Zərdab rayon (şəhər) prokurorluqlarında da rayon rəhbərliyi, məhkəmə, hüquq-mühafizə orqanlarının əməkdaşları, prokurorluq orqanlarının veteranları, ziyalılar və ictimaiyyət nümayəndələri ilə görüşlər keçirilib, seminarlar təşkil olunub, ağacəkmə kampaniyaları təşkil olunub, kütləvi informasiya vasitələrində çıxışlar edilib, şəhid olan prokurorluq işçilərinin ailə üzvlərinə müvafiq qayğı göstərilib. Eyni zamanda yubiley tədbiri rayon İcra Hakimiyyətlərində təntənəli şəkildə qeyd olunub, rayon prokurorluqlarının bir sıra işçiləri rayon İcra Hakimiyyəti başçılarının fəxri fərmanları və xatirə hədiyyələri ilə təltif olunublar.

**Rubrikanın materialları tabe rayon (şəhər) prokurorluqları tərəfindən təqdim edilmişdir**

# Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə ərazi hərbi prokurorluqlarında keçirilmiş tədbirlər

*Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə ərazi hərbi prokurorluqlarında tədbirlər keçirilib.*

## TƏRTƏR HƏRBİ PROKURORLUĞU






Sentyabrın 6-da Tərtər hərbi prokurorluğunda rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə tədbir keçirilib.

Tərtər hərbi prokuroru vəzifəsini icra edən Hümmət Məmmədov Hərbi Prokurorluq orqanlarının yaradılması, tarixi, inkişafı, Silahlı Qüvvələrdə hüquq qaydasının möhkəmləndirilməsi istiqamətində görülən işlər barədə danışıb.

Tərtər rayon İcra Hakimiyyətinin başçısı, Tərtər hərbi məhkəməsinin sədri, Tərtər rayon məhkəməsinin sədri, Tərtər rayon polis şöbəsinin rəisi prokurorluq orqanları fəaliyyətinin əhəmiyyəti barədə çıxışlar edərək yubiley münasibətilə işçiləri təbrik edib şərəfli peşələrinin həyata keçirilməsində uğurlar arzulayıblar.

Sentyabrın 21-də ağacəkmə aksiyası təşkil olunaraq Tərtər rayonunun Şıxarx qəsəbəsi ərazisində 200 ədəd şam ağacı əkilib.

## QAZAX HƏRBİ PROKURORLUĞU







Sentyabrın 7-də və 11-də Qazax hərbi prokurorluğunda Azərbaycan Respublikası Hərbi Prokurorluğunun işçiləri, rayon hüquqmühafizə orqanlarının əməkdaşları və ictimaiyyət nümayəndələri ilə görüşlər təşkil edilib, seminarlar keçirilib. Sentyabrın 8-də ağacəkmə kampaniyası təşkil olunaraq rayon prokurorluğunun inzibati binasının həyətyani sahəsində şam ağacları və qızıl gül kolları əkilib.

## FÜZULİ HƏRBİ PROKURORLUĞU





Sentyabrın 1-də Füzuli hərbi prokurorluğunda tədbir keçirilib. Tədbirdə prokurorluq işçilərinin çıxışları dinlənilib. Sentyabrın 8-də DSX-nin Sərhəd Qoşunları hərbi hissəsinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Beyləqan rayon şöbəsinin və Müdafiə Nazirliyinin Təhqiqat Bölməsinin hərbi qulluqçuları ilə görüş təşkil edilib. Sentyabrın 13-də ağacəkmə aksiyası keçirilərək Beyləqan rayonunda yerləşən Müdafiə Nazirliyi N saylı hərbi hissəsinin ərazisində şam ağacları və qızıl gül kolları əkilib.

## ZAQATALA HƏRBİ PROKURORLUĞU

Sentyabrın 19-da Zaqatala hərbi prokurorluğunda tədbir keçirilib.

Tədbirdə Zaqatala rayon prokuroru, rayon İcra Hakimiyyəti başçısının birinci müavini, rayon məhkəməsinin sədri, rayon polis şöbəsinin rəisi, DİN BMİ-nin Zaqatala regionlar arası bölməsinin rəisi, DSX-nin Sərhəd Qoşunları N saylı hərbi hissələrinin komandirləri, rayon orta məktəb, gimnaziya, lisey direktorları, Yeni Azərbaycan Partiyasının Zaqatala rayon şöbəsinin sədri, rayon Müharibə və Əmək veteranları şurasının sədri, rayon Ağsaqqallar şurasının sədri və digər hakimiyyət nümayəndələri iştirak ediblər.

Zaqatala hərbi prokuroru Mustafa Əsgərov və digər natiqlər Azərbaycan Prokurorluğunun 100 illik tarixindən, bu orqanın keçdiyi şərəfli yoldan danışıblar.

Sentyabrın 15-də ağacəkmə kampaniyası təşkil olunaraq Zaqatala şəhərində yerləşən parkda ağaclar əkilib.





*Bakı hərbi prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*

***

Yubiley ilə əlaqədar Bakı, Sumqayıt, Lənkəran, Gəncə, Qarabağ hərbi prokurorluqlarında da hüquq-mühafizə orqanlarının əməkdaşları və ictimaiyyət nümayəndələrinin iştirakı ilə seminarlar, ağacəkmə kampaniyaları təşkil olunub, kütləvi informasiya vasitələrində çıxışlar edilib.



*Gəncə hərbi prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*



*Sumqayıt hərbi prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*





*Qarabağ hərbi prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*

**Ərazi hərbi prokurorluqlar**

# Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublikası Prokurorluğuna tabe prokurorluq orqanlarında keçirilmiş tədbirlər

Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə avqustun 28-də Naxçıvan şəhər prokurorluğunda, sentyabrın 4-də Babək rayon prokurorluğunda, sentyabrın 12-də Culfa rayon prokurorluğunda, sentyabrın 14-də Kəngərli, Şahbuz, Şərur rayon prokurorluqlarında, sentyabrın 15-də Sədərək rayon prokurorluğunda, sentyabrın 17-də Ordubad rayon prokurorluğunda seminarlar keçirilib.

Tədbirlərdə Azərbaycan Respublikası Prokurorluğunun keçdiyi tarixi inkişaf yolu barədə məlumatlar verilib.



*Naxçıvan şəhər prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*



*Babək rayon prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*



*Şərur rayon prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*



*Şahbuz rayon prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*



*Culfa rayon prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*



*Ordubad rayon prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*



*Sədərək rayon prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*



*Kəngərli rayon prokurorluğunda keçirilmiş tədbirin iştirakçıları*

**Naxçıvan Muxtar Respublikasının Prokurorluğu**

# Sumqayıt və Gəncə şəhər prokurorluqlarının yeni inzibati binaları istifadəyə verilib

## Sumqayıt şəhər prokurorluğunun yeni inşa olunmuş inzibati binası istifadəyə verilib

Sentyabrın 27-də Sumqayıt şəhər prokurorluğunun yeni inşa olunmuş inzibati binasının açılış mərasimində Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov, Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov və hüquq-mühafizə orqanlarının əməkdaşları iştirak etmişlər.









Əvvəlcə mərasim iştirakçıları yeni inzibati binanın foyesində ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq, dahi insanın unudulmaz xatirəsinə dərin hörmət və ehtiramlarını bildirmişlər.












Daha sonra Baş prokuror Zakir Qaralov məlumat verərək bildirmişdir ki, 4 mərtəbədən ibarət binanın foyesində ulu öndər Heydər Əliyevin və dövlətimizin prokurorluq orqanlarına qayğısını əks etdirən fotogüşə


AZƏRBAYCAN PREZİDENTİ
AZƏRBAYCAN PROKURORLU
İNANIRAM, GÜVƏNİRƏM VƏ ARX










yaradılmış, müasir standartlara uyğun tikilmiş inzibati bina bütün zəruri avadanlıq, kompüter sistemi, kommunikasiyalar və mühəndis qurğuları ilə təchiz edilmiş, mebel və digər inventarlarla təmin olunmuşdur.

Baş prokuror həmçinin qeyd etmişdir ki, son illər prokurorluq orqanlarında sağlam iş mühitinin yaradılması üçün ciddi işlər görülmüş, dövlətçilik, qanunçuluq prinsipləri önə çəkilmişdir. Nəticədə prokurorluğa ictimai etimad artmış, onun nüfuzu daha da yüksəlmişdir.

Prokurorluq orqanlarının formalaşmasında ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərindən danışan Baş prokuror son illər ölkəmizdə hüquq quruculuğu sahəsində həyata keçirilən məqsədyönlü tədbirlərdən söz açmış, demokratik cəmiyyətdə prokurorluğun rolunun artmasının vacibliyini vurğulamışdır.

Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov prokurorluq orqanlarının əməkdaşlarını Azərbaycan Prokurorluğunun yaradılmasının 100-cü ildönümü münasibətilə təbrik etmiş, onlara çətin və şərəfli işlərində uğurlar arzulamışdır. O, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, qanunçuluğun təmin edilməsində, cinayətkarlıqla mübarizədə prokurorluq orqanlarının rolunu yüksək qiymətləndirmişdir.

Prezident cənab İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi diqqət və qayğıdan söz açan Sumqayıt şəhər prokuroru Sərdar İmanov prokurorluq əməkdaşları üçün tikilən yeni binanın istifadəyə verilməsini prokurorluq əməkdaşlarının əməyinə verilən yüksək qiymət kimi dəyərləndirmişdir.

Sonra mərasim iştirakçıları Sumqayıt şəhər prokurorluğu üçün yeni tikilmiş binada yaradılan şəraitlə tanış olmuşlar.

## Gəncə şəhər prokurorluğunun yeni inşa olunmuş inzibati binası istifadəyə verilib

Sentyabrın 29-da Gəncə şəhər prokurorluğunun yeni inzibati binasının açılışında Baş prokurorun birinci müavini Rüstəm Usubov, Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və hüquq-mühafizə orqanlarının əməkdaşları, ədliyyə işçiləri iştirak etmişlər.






AZƏRBAYCAN PREZİDENTİ KİMİ MƏN
AZƏRBAYCAN PROKURORLUĞUNA
İNANIRAM, GÜVƏNİRƏM
VƏ ARXALANIRAM.
Heydər Əliyev


AZƏRBAYCAN RESPUBLİKASININ PROKURORLUĞU
GƏNCƏ ŞƏHƏR PROKURORLUĞU



Baş prokurorun birinci müavini Rüstəm Usubov prokurorluq orqanlarının yaradılmasının 100 illik yubileyi münasibəti ilə rayon prokurorluğunun əməkdaşlarını təbrik edərək məlumat verilmişdir ki, Xətai prospekti ilə Vaqif küçəsinin kəsişməsində inşa olunan bina 4 mərtəbədən ibarətdir. Müasir standartlara uyğun tikilmiş inzibati bina bütün zəruri avadanlıq, kompüter sistemi, kommunikasiyalar və mühəndis qurğuları ilə təchiz edilmiş, mebel və digər inventarlarla təmin olunmuşdur.

Rüstəm Usubov həmçinin qeyd etmişdir ki, Azərbaycan Prokurorluğunun demokratik məzmunda tamamilə yenidən formalaşması, milli maraqlarımıza xidmət edən bir təsisat kimi hərtərəfli təkmilləşməsi və müasirləşməsi məhz ulu öndər Heydər Əliyevin həyata keçirdiyi dövlətçilik siyasəti və onun gündəlik qayğısı nəticəsində mümkün olmuşdur.

Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov prokurorluğun əməkdaşlarını peşə bayramları münasibəti ilə təbrik edərək, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, qanunçuluğun təmin edilməsində, cinayətkarlıqla mübarizədə prokurorluq orqanlarının rolunu yüksək qiymətləndirmişdir.

Hər iki tədbirdə xüsusilə vurğulanmışdır ki, Sumqayıt və Gəncə şəhər prokurorluqlarının inzibati binalarının istifadəyə verilməsi çox əlamətdar bir dövrə – Azərbaycan Respublikasının prokurorluq orqanlarının yaradılmasının 100 illiyinə təsadüf edir.

Tədbirlərdə iştirak edən prokurorluq əməkdaşları dövlətin onlara göstərdiyi yüksək etimadı doğruldacaqlarına, qarşıya qoyulan vəzifələri bundan sonra da əzmlə yerinə yetirəcəklərinə inam ifadə etmişlər.

**Sumqayıt və Gəncə şəhər prokurorluqları**

# Gəncə hərbi prokurorluğunun yeni inzibati binası istifadəyə verilib

Sentyabrın 29-da Gəncə hərbi prokurorluğunun yeni inzibati binasının istifadəyə verilməsi münasibətilə mərasim keçirilib. Mərasimdən əvvəl Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının hərbi prokuroru Xanlar Vəliyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Gəncə Şəhər İcra Hakimiyyətinin qarşısındakı abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, böyük şəxsiyyətin xatirəsinə dərin ehtiramını bildirib.

Sonra hərbi qulluqçuların, hüquq-mühafizə orqanlarının, o cümlədən hərbi prokurorluq əməkdaşlarının, prokurorluğun veteranlarının, eləcə də şəhər ictimaiyyətinin iştirakı ilə Gəncə hərbi prokurorluğunun yeni inzibati binasının açılışı olub.

Əvvəlcə hərbi prokuror Xanlar Vəliyev və tədbir iştirakçıları yeni inzibati binanın foyesində ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq, dahi insanın unudulmaz xatirəsinə dərin hörmət və ehtiram ifadə ediblər. Sonra binada yaradılan şərait ilə tanış olublar. Tədbir iştirakçıları Heydər Əliyev guşəsinə, iş otaqlarına, kriminalistik laboratoriyaya, yeməkxanaya, idman zalına baxıblar. Bildirilib ki, müasir standartlara uyğun tikilmiş inzibati bina bütün zəruri avadanlıq, kompüter sistemi, kommunikasiyalar və mühəndis qurğuları ilə təchiz edilib, mebel və digər inventarlarla təmin olunub.



Daha sonra açılış mərasiminin iştirakçıları inzibati binanın akt zalında toplaşıblar. Ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə çıxış edən Hərbi prokuror Xanlar Vəliyev ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin müdrik siyasəti, qətiyyəti və yorulmaz fəaliyyəti ilə ölkəmizdə aparılan hərtərəfli islahatlar və əldə olunmuş böyük nailiyyətləri xüsusi vurğulayaraq, ordu quruculuğu sahəsində həyata keçirilən kompleks tədbirlərdən danışıb. Qeyd olunub ki, Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazası, intellektual potensialı möhkəmləndirilib, mənəvi-psixoloji hazırlıqlı, yüksək əhval-ruhiyyəli, bir sözlə, müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan ordu formalaşdırılıb.


ETİMAD ARTMIŞ VƏ ONUN NÜFUZU YÜKSƏLMİŞ






Prokurorluq işçilərini, o cümlədən hərbi prokurorluq əməkdaşlarını prokurorluğun 100 illik yubileyi və peşə bayramı münasibətilə təbrik edən Hərbi prokuror Xanlar Vəliyev ulu öndər Heydər Əliyev və onun dövlətçilik ənənələrinin layiqli davamçısı Prezident və Ali Baş Komandan İlham Əliyev tərəfindən prokurorluq orqanlarına göstərilən yüksək diqqət və qayğıdan bəhs edib.

Akademik Fuad Əliyev, I Ordu Birləşməsi komandirinin birinci müavini-qərargah rəisi Mübariz Rzayev, III Ordu Birləşməsi komandirinin birinci müavini-qərargah rəisi Polad Həşimov, Gəncə hərbi prokuroru Əmrah Mehtiyev çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın hərtərəfli inkişafından, ölkədə, o cümlədən Gəncə şəhərində davam etdirilən quruculuq, abadlıq işlərindən söz açaraq, bu uğurların davamlı olduğunu, hazırda prokurorluğun mövqeyinin daha da möhkəmlənməsindən və cəmiyyətdə nüfuzunun artmasından söz açıblar.

Sonra Gəncə hərbi prokurorluğunun xidmətdə fərqlənən əməkdaşları rütbə və medallarla təltif edilib, prokurorluğun veteranına hədiyyə təqdim olunub.

Mərasimə yekun vuran hərbi prokuror Xanlar Vəliyev bildirib ki, müdrik lider İlham Əliyevin mütəmadi olaraq verdiyi dəyərli tövsiyələr və göstərişlər əsasında Azərbaycan Respublikası Prokurorluğu orqanlarında yeni müstəvidə və yüksək intensivliklə davam etdirilən hərtərəfli islahatlar nəticəsində prokurorluğun fəaliyyətinin təkmilləşməsi və bunun üçün zəruri normativ hüquqi bazanın yaradılması, kadrların seçilməsinin yeni mütərəqqi formalarının tətbiqi təmin edilib, dövlətçiliyin, milli maraqların, insan hüquq və azadlıqlarının etibarlı qorunması, cinayətkarlığa qarşı mübarizə yüksək səviyyədə təşkil olunub. Azərbaycan Respublikası Hərbi Prokurorluğunun kollektivi də öz fəaliyyətində daim ümummilli lider Heydər Əliyevin ali ideyalarını və Prezident İlham Əliyevin idarəçilik prinsiplərini rəhbər tutmaqla, qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərini tələb edilən səviyyədə həyata keçirməklə Silahlı Qüvvələrdə qanunçuluğun və hərbi intizamın daha da möhkəmləndirilməsinə çalışacaq və bu istiqamətdə tələbkarlığı daim artıracaq.

**Hərbi Prokurorluq**

# Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları hərtərəfli dövlət qayğısı ilə əhatə olunub

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında

Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi və demoqrafik inkişaf hüquq institutlarının təkmilləşdirilməsini, insan hüquqlarının müdafiəsi mexanizmlərinin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasını, əhalinin yüksək keyfiyyətli hüquqi yardımla təmin edilməsini zəruri edir. Bu istiqamətdə tədbirlərin həyata keçirilməsi məqsədilə **qərara alıram:**

**1.** Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə və Prokurorluğuna tövsiyə edilsin, Ədliyyə Nazirliyinə tapşırılsın ki, ölkədə hüquq sisteminin müasirləşdirilməsi prosesinə uyğun olaraq insan hüquqlarının daha etibarlı müdafiəsinin təmin edilməsini, vətəndaşların hüquq institutlarına inamının artırılmasını, onların müraciət etmək imkanlarının asanlaşdırılmasını, fəaliyyətlərində şəffaflığı, yeni informasiya texnologiyalarının tətbiq edilməsini təmin etsinlər.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki:

**2.1.** Naxçıvan Muxtar Respublikasındakı birinci instansiya məhkəmələri hakimlərinin, ədliyyə orqanları işçilərinin və digər hüquqşünasların peşə hazırlığının artırılması məqsədilə müvafiq treninqlərin keçirilməsində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə kömək göstərsin;

**2.2.** Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan Filialının müasir avadanlıqla təchiz edilməsi və elmi tədqiqat işinin səmərəliliyinin artırılması üçün tədbirlər görsün;

**2.3.** Naxçıvan Muxtar Respublikasındakı birinci instansiya məhkəmələrinin normativ hüquqi aktlarla və hüquqi ədəbiyyatla təchiz edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə kömək göstərsin.

**3.** Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işinin təşkilində Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə metodik kömək göstərsin.

**4.** Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına tövsiyə edilsin ki, Naxçıvan Muxtar Respublikasında əhaliyə göstərilən hüquqi yardımın səmərəliliyinin və burada fəaliyyət göstərən vəkillərin sayının artırılması məqsədilə Vəkillər Kollegiyasına əlavə qəbul imtahanının Naxçıvan Muxtar Respublikasında keçirilməsini təşkil etsin.

**5.** Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsinin, Naxçıvan Şəhər Məhkəməsinin və Babək Rayon Məhkəməsinin hakimlərinin sayı 1 vahid artırılsın.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

**6.1.** Ağır Cinayətlərə dair İşlər üzrə Naxçıvan Muxtar Respublikası Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası İqtisad Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin, Kəngərli Rayon Məhkəməsinin yeni binalarının tikilməsi üçün vəsait ayırsın;

**6.2.** Kəngərli, Sədərək, Ordubad rayon prokurorluqlarının yeni binalarının tikilməsi, Şərur Rayon Prokurorluğunun binasının təmir edilməsi üçün vəsait ayırsın;

**6.3.** Naxçıvan Muxtar Respublikasında yeni yaradılmış İnsan hüquqları üzrə müvəkkil təsisatının fəaliyyətinin təmin edilməsi üçün vəsait ayırsın;

**6.4.** Naxçıvan Muxtar Respublikasında məhkəmə, prokurorluq və ədliyyə orqanlarının fəaliyyətinə zəruri şəraitin yaradılması üçün onların avadanlıq, rabitə, nəqliyyat vasitələri və digər ləvazimatlarla təmin edilməsi məqsədilə tədbirlər görsün;

**6.5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**6.6.** öz səlahiyyətləri daxilində həmin Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**7.** Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 noyabr 2006-cı il
№ 474




*Naxçıvan Muxtar Respublikası Prokurorluğunun inzibati binası*




*Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun  inzibati binası*



*Naxçıvan şəhər prokurorluğunun inzibati binası*




*Babək rayon prokurorluğunun inzibati binası*



*Ordubad rayon prokurorluğunun inzibati binası*




*Şərur rayon prokurorluğunun inzibati binası*



*Culfa rayon prokurorluğunun inzibati binası*



*Şahbuz rayon prokurorluğunun inzibati binası*




*Sədərək rayon prokurorluğunun inzibati binası*




*Kəngərli rayon prokurorluğunun inzibati binası*









**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyinə həsr edilmiş nəşrlər






“Azərbaycan Respublikası Prokurorluğunun normativ aktları” 3 cildlik toplu və “Maddi sübutların götürülməsi və qablaşdırılması taktikasına və ekspertizaların ardıcıllığına dair müstəntiqin yaddaş kitabçası” (Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən hazırlanıb).




“Telefon məlumat kitabçası” (Baş Prokurorluğun Təşkilat-analitik idarəsi tərəfindən hazırlanıb).



“Azərbaycan Respublikası Hərbi prokurorunun əsas əmr və göstərişləri” kitabçası (Hərbi Prokurorluq tərəfindən hazırlanıb).




“İnzibati xətalar haqqında qanunvericiliyin tətbiqi və icrasına prokuror nəzarətinin həyata keçirilməsinə dair metodik vəsait” (Baş Prokurorluğun Hüquqi təminat idarəsi tərəfindən hazırlanıb).





“Korrupsiyaya qarşı mübarizə: qabaqlayıcı tədbirlər, inzibati icraat və cinayət təqibi” məqalələr toplusu və “Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq”, “Hədəflər və nailiyyətlər” jurnalları (Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsi tərəfindən hazırlanıb).

**Baş Prokurorluq**

# Azərbaycan Prokurorluğu 100 illiyini yeni uğur və nailiyyətlərlə qeyd edir

*"Son illər prokurorluqda sağlam iş mühitinin yaradılması üçün ciddi işlər görülmüş, dövlətçilik, qanunçuluq prinsipləri ön plana çəkilmiş, cəmiyyətimizdə prokurorluğa ictimai etimad artmış və onun nüfuzu yüksəlmişdir"*

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

1 oktyabr 2018-ci ildə Azərbaycanda milli prokurorluq orqanlarının yaranmasının 100 ili tamam olur. Tarixi bir həqiqətdir ki, 1918-ci il may ayının 28-də Şərqdə ilk demokratik dövlət quruluşu olaraq yaranmış Azərbaycan Xalq Cümhuriyyəti bəşəriyyətin inkişaf salnaməsində yeni parlaq bir səhifə açmaqla xalqımızın dünya dövlətçilik irsinə, parlamentli dövlət quruculuğu prosesinə mühüm töhfəsi olmuşdur. Prokurorluq hər bir hüquqi dövlətin zəruri atributlarından biri olduğundan Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunun ilk aylarında həyata keçirilmiş dövlət orqanlarının strukturunun yaradılması prosesi çərçivəsində qəbul edilmiş ən mühüm qərarlardan biri də məhz prokurorluq orqanlarının təsis edilməsi ilə bağlı olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluğun təsis edilməsi yalnız o zaman üçün deyil, həmçinin sonrakı dövrlər üçün, bütövlükdə milli prokurorluq orqanlarımızın hazırkı yüksək inkişaf səviyyəsində formalaşdırılmasının əsasının qoyulması baxımından tarixi əhəmiyyətə malik bir hadisədir.

Olduqca mürəkkəb və ağır şəraitdə fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyətinin Məhkəmə Palatasında, Bakı və Gəncə dairə məhkəmələrinin tərkibində olan prokurorluq orqanları öz səlahiyyətləri daxilində böyük işlər görmüşlər.

Xalq Cümhuriyyətinin süqutundan sonra sovet hakimiyyəti illərində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 11 iyul 1922-ci il tarixli "Azərbaycan SSR-in dövlət prokurorluğu haqqında" dekreti ilə Azərbaycan SSR-də sovet prokurorluğunun əsası qoyulmuş, 1936-cı ilin iyul ayında isə Azərbaycan SSR Prokurorluğu Xalq Ədliyyə Komissarlığının tərkibindən çıxarılaraq birbaşa SSRİ Prokurorluğuna tabe edilməklə müstəqil qurum kimi fəaliyyətə başlamışdır.

Sovet hakimiyyəti dövrünün kütləvi siyasi repressiyaları prokurorluq orqanlarının kadrlarından da yan keçməmişdir. 1937-1938-ci illərdə Azərbaycanda "düşmən və cinayətkar ünsür kimi" 21 nəfər prokurorluq işçisi əsassız mühakimə edilmiş, onların arasında respublikanın baş prokurorları, baş prokurorun müavini, rayon prokurorları olmuşlar. Lakin ağır repressiya illərində də Azərbaycanın prokurorluq orqanları əməkdaşlarının böyük əksəriyyəti öz vəzifə borclarını namusla yerinə yetirərək xalqa xidmət göstərmişlər.

Böyük Vətən müharibəsi illərində digər dövlət strukturları kimi, prokurorluq orqanlarının da işi hərbi vəziyyətə uyğun qurulmuş, orduya 70 prokuror və 163 müstəntiq səfərbər olunmuşdur. Onlardan bir çoxu döyüşlərdə həlak olmuş, böyük əksəriyyəti orden və medallarla təltif edilmişdir.

Sovetlər dönəminin sonrakı illərində səlahiyyətləri hədsiz geniş olan prokurorluq orqanlarının fəaliyyəti uzun illər ərzində hakimiyyət bölgüsü prinsipi ilə uzlaşdırılmamışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hələ ölkəyə rəhbərliyinin birinci dövründə cəmiyyətdə haqq və ədalətin zəfər çalması uğrunda böyük əzm və fədakarlıqla çalışaraq insan hüquq və azadlıqlarının müdafiəsinin ən ali forması kimi qanunlara eyni cür, dürüst əməl edilməsinə nail olmuşdur. O dövrdə ulu öndərin təşəbbüsü ilə respublikada ali məktəblərin hüquq fakültəsinə qəbulda aparılan islahat nəticəsində sadə ailələrdən çıxan bilikli və istedadlı gənclər hüquqşünas ixtisası alaraq hüquq mühafizə sistemində, o cümlədən prokurorluq orqanlarında işləməyə başlamış, yüksək vəzifələrə irəli çəkilmişlər. Ulu öndər həmin hüquqşünaslar nəslinin bir çox nümayəndəsinin bu gün müstəqil dövlətçiliyimizə ləyaqətlə xidmət etməsi faktına sonralar münasibətini belə bildirmişdir: "Mən xüsusi qeyd etmək istəyirəm ki, 1960, 1970, 1980-ci il-

lərdə Azərbaycanda milli prokuror kadrları hazırlandı, yetişdi və bu gün Azərbaycan Prokurorluğunun əsasını təşkil edən kadrlar yüksək peşəkarlığa, hüquqi təhsilə malik olan və öz vəzifələrini yerinə yetirə bilən kadrlardan ibarətdir. Bunlar hamısı bir gündə, bir ildə hazırlana bilməzdi. Azərbaycanda prokurorluq orqanları on illər ərzində təşkil olunmuş, formalaşmış, inkişaf etmiş və bugünkü yüksək peşəkar səviyyəyə çatmışdır".

Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra milli prokurorluq orqanlarının ölkənin hüquq sisteminin inkişafında, insan hüquq və azadlıqlarının qorunmasında çox əhəmiyyəti olan, konstitusion statuslu, yüksək dünya standartlarına və müasir beynəlxalq tələblərə uyğun sivil təsisat kimi formalaşması yalnız ümummilli lider Heydər Əliyevin müəyyən edərək həyata keçirdiyi, hazırda onun layiqli davamçısı, müdrik və uzaqgörən dövlət başçısı İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla reallaşdırılan hüquqi dövlət quruculuğu konsepsiyasının gerçəkləşdirilməsi sayəsində mümkün olmuşdur.

### Prokurorluq müstəqil dövlətimizlə birgə inkişaf edir

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa uyğun olaraq dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən, hərtərəfli düşünülmüş və əsaslandırılmış dövlət quruculuğu və strateji inkişaf konsepsiyası nəticəsində respublikamızın iqtisadi və siyasi müstəqilliyi, hərbi qüdrəti ildən-ilə daha da möhkəmlənərək, ölkənin iqtisadiyyatı son 15 ildə 3,2 dəfə artmışdır ki, bu da dünya rekordu hesab olunur.

Əldə edilmiş nailiyyətlərə və görülmüş işlərə xalqımız tərəfindən verilən qiymətin göstəricisi cari ilin aprel ayında keçirilmiş, ən yüksək demokratik tələblərə cavab verən, azad, ədalətli və şəffaf, ən əsası isə Azərbaycan xalqının tam sərbəst şəkildə ifadə olunmuş iradəsini əks etdirən prezident seçkiləri olmuşdur. Seçkilərdə xalqımız son illər ərzində görülən işlərə yüksək dəyər verərək, ölkədə həyata keçirilən siyasi kursun, strateji inkişaf xəttinin, dövlət siyasətinin davamlılığına, tərəqqiyə, təhlükəsizliyə, stabilliyə səs vermişdir. Seçkilərdə iştirak edən seçicilərin 86 faizdən çoxunun yenidən cənab İlham Əliyevə etimad göstərməsi ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kursu, strateji inkişaf konsepsiyasını uğurla həyata keçirən dövlət başçımıza xalqın şəksiz və birmənalı inam və etibarının nəticəsi olmuşdur.

Respublikamızın gələcək inkişaf yolunu müəyyən etməklə ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi həyatında mühüm əhəmiyyətə malik hadisələrdən biri də Azərbaycan Respublikasının Konstitusiyasına 26 sentyabr 2016-cı ildə keçirilmiş ümumxalq səsverməsi (referendum) ilə edilmiş dəyişikliklərdir. Qəbul edilmiş yeni dəyişikliklər dövlət idarəetmə mexanizmini müasir dünya tələbləri səviyyəsində təkmilləşdirərək onun çevikliyinin və effektivliyinin artırılması, idarəçiliyin həyata keçirilməsində gənclərin rolunun əhəmiyyətli dərəcədə yüksəldilməsi, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi, vətəndaş cəmiyyəti quruculuğu prosesinin, müstəqilliyimizin əbədiliyinin, ölkənin hər hansı neqativ təsirlərdən asılı olmayaraq dayanıqlı və ardıcıl inkişafının təmin olunması məqsədi daşımaqla, respublikamızda dövlətçiliyin və qanunçuluğun, təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsinə, hüquqi dövlət quruculuğu prosesinin daha yüksək səviyyədə təmin olunmasına xidmət etmişdir.

Xüsusi olaraq qeyd etmək istəyirəm ki, referendum aktı ilə təsis edilmiş Birinci vitse-prezident vəzifəsinə tanınmış ictimai-siyasi xadim, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təyinatı son illərin ən önəmli, ölkənin bugünü, gələcəyi, xalqımızın sosial rifahının daha dinamik və təminatlı şəkildə yüksəlməsi üçün xüsusi əhəmiyyətə malik mühüm hadisəsi olmuşdur. Bu yüksək dövlət vəzifəsinə xalqımızın haqq səsini, Azərbaycan həqiqətlərini bütün dünya ictimaiyyətinə çatdıran, 4 amnistiya aktının təşəbbüskarı olmaqla 40 mindən artıq insanın bağışlanmasına, onların ailələrinə sevinc bəxş edilməsinə nail olan, Azərbaycanda keçirilən ən mötəbər tədbirlərdə Təşkilat Komitəsinə rəhbərliyi həyata keçirməklə çox yüksək təşkilatçılıq və idarəçilik qabiliyyətinə malik olan, dinlərarası, mədəniyyətlərarası münasibətlərin qurulmasında, multikultural dəyərlərin inkişafında, dövlətin sosial siyasətinin həyata keçirilməsində, o cümlədən çoxsaylı məktəblərin, uşaq bağçalarının, xəstəxanaların tikilib istifadəyə verilməsində mühüm rolu olan şəxsin bu vəzifəyə təyin olunması xalqın hədsiz sevincinə səbəb olmaqla ölkənin işıqlı gələcəyinə inamını daha da artırmışdır. Bu mühüm təyinatdan sonrakı dövr ərzində ölkədə görülən işlər, həyata keçirilən strateji əhəmiyyətə malik işlərin müsbət dinamikasının və intensivliyinin artması qeyd olunanların bariz təsdiqidir.

Müstəqil dövlətimizin müntəzəm irəliləyişlərlə müşahidə olunan dayanıqlı və davamlı tərəqqisi prokurorluqda adekvat dəyişikliyin baş verməsinə hərtərəfli şərait yaratmaqla bu dövlət təsisatının ardıcıl və sistemli inkişafına səbəb olmuşdur. Dövlət başçısı cənab İlham Əliyevin son dövrlərdəki tarixi nitqlərinin birində qeyd etdiyi, "Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır" sözləri danılmaz həqiqəti əks etdirir.

Ölkənin hazırkı inkişaf səviyyəsinə uyğun olaraq Azərbaycan Prokurorluğu da bu gün əvvəllki istənilən bir dövrdə olduğundan daha çox inkişaf etməklə müasirləşmiş və fəaliyyətini ən yüksək tələblər səviyyəsində təkmilləşdirmişdir. İnkişaf etmiş dünya dövlətlərinin bu qəbildən olan qurumlarına məxsus olan müsbət keyfiyyətləri özündə birləşdirən, prokurorluğun müasir dövrdə fəaliyyət istiqamətlərinə və roluna dair Avropa Şurasının, Beynəlxalq Prokurorlar Assosiasiyasının və digər nüfuzlu beynəlxalq təşkilatların müəyyən etdiyi standartlara cavab verən Azərbaycan Prokurorluğu, dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin təmin olunmasına və insan hüquq və azadlıqlarının ən ümdə dəyər kimi qorunmasına xidmət edən, sıralarında öz vəzifə öhdəliklərini layiqincə yerinə yetirən, yüksək mənəvi, əxlaqi və peşə keyfiyyətlərinə malik olan, etik davranış qaydalarına riayət etməklə cəmiyyətin etimadını qazanmış şəxsləri birləşdirən dövlət orqanı kimi fəaliyyət göstərir.

Prokurorluq orqanlarımız hazırkı vəziyyətdə olduğu səviyyədə formalaşanadək tarixin müxtəlif dövrlərindən heç də həmişə hamar olmayan, bəzən isə çətinliklərlə və mürəkkəbliklərlə müşahidə olunan inkişaf yolu keçmişdir. Lakin Azərbaycan Prokurorluğunun kollektivi əsas etibarı ilə xalqımızın öz müstəqilliyi uğrunda apardığı tarixi mübarizənin önündə olaraq şərəfli bir fəaliyyət yolu keçməklə inkişaf etməkdə davam etmiş, hansı şəraitdə fəaliyyət göstərməsindən asılı olmayaraq, son nəticədə xalqına və dövlətinə sədaqətlə qulluq etməyi bacarmış, dövlətçiliyimizin və sabitliyin qorunması, cinayətkarlığa və qanun pozuntularına qarşı mübarizə, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi işinə öz layiqli töhfəsini verə bilmişdir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə hazırlanaraq 12 noyabr 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası prokurorluğun fəaliyyətinə xüsusi maddə həsr edərək, onun yerini məhkəmə hakimiyyəti sistemində müəyyən etməklə statusunu, təşkili əsaslarını və fəaliyyət prinsiplərini, səlahiyyətlərini və vəzifələrini təsbit etmişdir. "Prokurorluq haqqında" Azərbaycan Respublikasının 1999-cu il tarixli qanunu qəbul olunmaqla prokurorluq sovetlər dönəminin məqsəd, vəzifə və funksiyalarından azad edilmiş, onun fəaliyyətinin demokratik prinsip, forma və metodları müəyyən edilmiş, sistemi və təşkili, kadr təminatı və işçilərin sosial müdafiəsi müasir beynəlxalq standartlara uyğun tənzimlənmişdir.

Ulu öndər Heydər Əliyevin 26 aprel 2000-ci ildə prokurorluğun rəhbər işçiləri ilə keçirdiyi müşavirədəki tarixi nitqində qeyd olunmuş, prokurorluq orqanları qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsi ilə bağlı aparılmış hərtərəfli islahatlar nəticəsində Azərbaycan Prokurorluğu həmin vaxtadək fəaliyyətində mövcud olmuş neqativ cəhətlərdən təmizlənməklə struktur və mahiyyət baxımından tam yenidən qurularaq müasir məzmunlu prinsip və metodlardan istifadə etməklə mütərəqqi normativ hüquqi baza əsasında fəaliyyət göstərən, xalqımızın və dövlətçiliyimizin maraqlarının qorunmasına, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edən dövlət təsisatına çevrilmişdir.

Həyata keçirilən ardıcıl və sistemli məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətini tənzim edən, beynəlxalq standartlara və milli dövlətçilik maraqlarına əsaslanan çoxsaylı normativ sənədlərin dövlət başçısı tərəfindən təsdiq edilməsi prokurorluğun normativ bazasını gücləndirmiş və hərtərəfli təmin etmişdir.

Sonrakı illərdə prokurorluğa etimad və inamın yüksəlməsinin nəticəsi olaraq prokurorluq orqanları qarşısında daha önəmli və mühüm vəzifələr qoyulmuş, Azərbaycan Respublikası Prezidentinin siyasi iradəsinə uyğun olaraq dövlətin fəaliyyətinin ən prioritet istiqamətlərindən biri kimi müəyyən edilmiş korrupsiyaya qarşı mübarizə ilə bağlı cinayətlər üzrə ibtidai istintaq və əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi işi bu dövlət təsisatına həvalə edilmiş, prokurorluğun fəaliyyətini tənzimləyən qanunvericiliyin daha da təkmilləşdirilməsi prosesi mütəmadi qaydada həyata keçirilmişdir.

Hüquq sisteminin inkişafında prokurorluğun rolunun gücləndirilməsi istiqamətində müntəzəm tədbirlər görülməklə, 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilmişdir.

Prokurorluq orqanlarına və prokurorluq işçilərinə böyük inam və etimadın, yüksək qayğının növbəti ifadəsi olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Prokurorluq orqanlarının müasir dövrün yüksək tələblərinə cavab verən dövlət təsisatı səviyyəsində təkmilləşdirilməsində xüsusi əhəmiyyətə malik olmuş bu dövlət proqramının həyata keçirilməsi prokurorluğun hüquq sisteminin inkişafı prosesində rolunun artırılmasına, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsinə, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunmasına, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılmasına, dövlət ittihamının müdafiəsində peşəkarlığın yüksəldilməsinə, beynəlxalq əlaqələrin genişləndirilməsinə, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılmasına səbəb olmuşdur.

Prokurorluğun ölkənin hüquq sistemində rolunun artmasının, dövlətimizin daha yüksək inkişaf mərhələsində prokurorluq orqanlarına daha böyük inam və etimad göstərilməsinin nəticəsi olaraq bu dövlət təsisatı qarşısında yeni vəzifələrin müəyyən olunması prosesi həyata keçirilir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının 2016-cı ilin martın 1-dən qüvvəyə minmiş yeni İnzibati Xətalar Məcəlləsində qanunçuluğun təmin olunmasında prokuror nəzarətinə xüsusi önəm verilərək prokuror nəzarəti qanunçuluq prinsipinin təminatı kimi nəzərdə tutulmuşdur.

Yeni İnzibati Xətalar Məcəlləsində prokurorun inzibati sahədə fəaliyyət dairəsi xeyli genişləndirilmiş, prokuror nəzarətinə xüsusi yer verilməklə prokurorluq orqanlarının üzərinə bir sıra yeni vəzifələr qoyulmuş, prokurorun inzibati xətalar haqqında işlər üzrə icraat zamanı baş vermiş qanun pozuntusunu aradan qaldırmaq üçün vaxtında tədbirlər görməsi və inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının tətbiqinə və icrasına prokuror nəzarətini həyata keçirməsi müəyyən edilmişdir. İnzibati xətalar haqqında qanunvericiliyin tətbiqi və icrası ilə bağlı prokurorluğun fəaliyyətinə nə dərəcədə əhəmiyyət verildiyini göstərmək üçün təkcə onu qeyd etmək kifayətdir ki, yeni məcəllənin xüsusi hissəsinin 60-a yaxın maddəsində nəzərdə tutulmuş, idarəçilik qaydaları, iqtisadi fəaliyyət qaydaları əleyhinə, əhalinin siyasi, sosial, əmək və digər hüquqlarının pozulması ilə bağlı, digər daha çox ictimai zərər vuran inzibati xətalar üzrə inzibati icraatın başlanılması prokurorun müstəsna səlahiyyətinə aid edilmişdir.

Son dövrlərdə Azərbaycan Respublikası Prokurorluğunun digər hüquq-mühafizə orqanları, ilk növbədə isə daxili işlər, ədliyyə və məhkəmə orqanları ilə əlaqəli şəkildə birgə fəaliyyətinin nəticəsi olaraq cinayətkarlığın dinamikasında və xarakterində ciddi keyfiyyət dəyişiklikləri baş verərək qeydə alınmış cinayətlərin, o cümlədən zorakı, ağır və xüsusilə ağır, cinayətkar qruplar tərəfindən törədilən cinayətlərin sayı ilbəil kəskin surətdə azalmış, mütəşəkkil dəstələr və cinayətkar birliklər tərəfindən törədilən cinayətlər bu xarakterli hadisələrin çox az faizini təşkil etmişdir. Görülmüş sistem xarakterli ardıcıl tədbirlərin nəticəsində kriminogen durum ciddi nəzarət altında saxlanılmaqla özbaşınalığın və qanunsuzluğun tüğyan etdiyi ötən əsrin 90-cı illərinin əvvəlləri ilə müqayisədə qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd cinayətlərinin sayı dəfələrlə azalmış, əvvəlki illərdə törədilməklə uzun müddət ərzində bağlı qalan bir çox ağır və xüsusilə ağır cinayətlərin açılması, çoxsaylı cinayətkar dəstələrin zərərsizləşdirilməsi və təqsirkar şəxslərin layiq olduqları məsuliyyətə cəlb edilməsi təmin olunmuşdur.

### Prokurorluq işçilərinin peşə bayramı yüksək səviyyədə qeyd olunur

Milli prokurorluq orqanları 1918-ci ildə yaranmasına və bu dövlət təsisatının tarixinin həmin vaxtdan hesablanmasına baxmayaraq, idarəetmənin digər sahələrində mövcud olsa da, prokurorluq işçilərinin peşə bayramı çox illər ərzində təsis edilməyərək qeyd olunmamışdır. Məhz ümummilli lider Heydər Əliyevin tarixi həqiqəti əbədiləşdirərək prokurorluğa və prokurorluq işçilərinə xüsusi diqqət göstəricisi olan 17 iyul 1998-ci il tarixli sərəncamı ilə milli prokurorluq orqanlarının yarandığı gün – oktyabr ayının 1-i prokurorluq işçilərinin peşə bayramı günü kimi təsis edilməklə qeyd olunmağa başlanmışdır. Prokurorluq işçilərinin peşə bayramı

gününün təsis edilməsi prokurorluq orqanlarına yüksək dövlət qayğısının ifadəsi olmaqla yanaşı, fəaliyyətimizə verilən böyük dəyərin təzahürüdür.

Ümummilli lider tərəfindən prokurorluq işçilərinin peşə bayramı təsis edildikdən sonra bu əlamətdar günün yüksək təntənə ilə keçirilməsinə başlanılmış və 1998-ci ildə respublikamızda ilk dəfə olaraq ulu öndərin şəxsi təşəbbüsü və rəhbərliyi ilə prokurorluq orqanlarının yaradılmasına həsr olunmuş geniş bayram tədbiri təntənəli şəkildə keçirilmişdir. Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda ümummilli lider tarixi çıxış edərək prokurorluq işçiləri üçün önəmli olan məsələlərə toxunmuş, onlara çox dəyərli tövsiyələr verərək prokurorluq orqanlarının həmin dövr üçün ümdə vəzifələrini qeyd etmişdir. Ulu öndərin öz nitqində qeyd etdiyi dərin mənalı "Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız" kəlamı prokurorluq işçilərində böyük ruh yüksəkliyi və iftixar hissi yaratmaqla yanaşı, onları öz fəaliyyətlərinə daha yüksək tələbkarlıqla və məsuliyyətlə yanaşmağa səfərbər edərək gündəlik fəaliyyət şüarına çevrilmişdir.

Həmin ildən başlayaraq hər il oktyabr ayının 1-i prokurorluq işçilərinin peşə bayramı günü təntənəli şəkildə qeyd olunur. 2008-ci ildə prokurorluq orqanlarının yaradılmasının 90 illik yubileyi yüksək təntənə ilə qeyd edildi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev prokurorluğun fəaliyyətinə böyük qayğı göstərərək prokurorluq əməkdaşları və veteranlarını yubiley münasibətilə təbrik etməklə bu dövlət qurumunda həyata keçirilən işləri yüksək qiymətləndirərək prokurorluqda son illər sağlam iş mühitinin yaradılması üçün ciddi işlərin görüldüyünü, dövlətçilik, qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi prinsiplərinin ön plana çəkildiyini, cəmiyyətdə prokurorluğun nüfuzunun yüksəldiyini, cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prokurorların prinsipiallıq və peşəkarlıq nümayiş etdirdiklərini, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynadıqlarını qeyd etmişdir.

Azərbaycan Prezidenti təbrik müraciətində, eyni zamanda, ölkəmizdə zamanın ruhuna, yeni siyasi, iqtisadi, sosial reallıqlara uyğun olaraq prokurorluq orqanlarının statusunda, səlahiyyətində və fəaliyyətində köklü dəyişikliklərin baş verdiyini, kadr siyasətində ciddi dönüşün yaradılması və şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində kompleks tədbirlər görüldüyünü göstərməklə yanaşı, prokurorluq orqanları qarşısında duran mühüm vəzifələri vurğulayaraq, əsas məqsədin prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması olduğunu xüsusi göstərmişdir.

Milli prokurorluq orqanlarımızın ölkəmiz və dövlətçiliyimiz üçün çox böyük və əlamətdar hadisə olan 100 illik yubileyi xüsusi təntənə ilə qeyd olunur. Azərbaycan Respublikasının 31 may 2018-ci il tarixli qanunu ilə "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018) Azərbaycan Respublikasının yubiley medalı" təsis edilməklə onun əsasnaməsinin təsdiq edilməsi bu tarixi hadisəyə dövlət başçısı səviyyəsində göstərilən qayğının təsdiqidir.

Prokurorluq orqanlarının bir əsrlik yubiley tarixinin qeyd olunması üçün Baş Prokurorluqda və onun struktur qurumlarında müzakirələr aparılmaqla sistemli və silsilə tədbirlər müəyyən edilərək onların təşkili və reallaşdırılması istiqamətində intensiv fəaliyyət həyata keçirilməkdə davam edir. Bu məqsədlə Baş Prokurorluq üzrə 9 avqust 2017-ci il tarixli sərəncamla Baş prokurorun müavininin rəhbərliyi ilə geniş komissiya yaradılaraq fəaliyyət göstərir.

Cari ilin sentyabr ayı ərzində Baş Prokurorluğun Elm-Tədris Mərkəzində və Respublika Hərbi Prokurorluğunda çoxsaylı dövlət qrurumlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə prokurorluğun 100 illik yubileyinə həsr olunmuş elmi-praktiki konfranslar keçirilmişdir. Sentyabr ayının 22-də isə Baş Prokurorluğun, Respublika Hərbi, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə ağacəkmə aksiyası keçirilmişdir.

Bununla yanaşı, Azərbaycan Prokurorluğunun 100 illiyi ilə əlaqədar Baş Prokurorluqda və tabe prokurorluqlarda prokurorluğun veteranları ilə görüşlərin keçirilməsi, şəhid olmuş prokurorluq işçilərinin ailə üzvlərinin ehtiyacları öyrənilərək zəruri məsələlərin həlli məqsədilə tədbirlər görülməsi, Baş Prokurorluqda, Naxçıvan Muxtar Respublikası,

Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı şəhər prokurorluqlarında yubiley tarixinə həsr edilmiş elmi-praktiki konfransların, seminarların keçirilməsi, yubileylə bağlı döş nişanları və xatirə medallarının hazırlanması və sair tədbirlər vardır.

**Ötən ilin peşə bayramından sonrakı dövr də çox uğurlu olmuşdur**

Ənənəvi olaraq hər il oktyabr ayının əvvəlində prokurorluq işçilərinin peşə bayramı qeyd olunarkən ötən ildəki eyni bayramdan sonra keçmiş bir il müddət ərzində prokurorluq orqanlarında görülmüş işlər, həyata keçirilmiş vacib tədbirlər, əldə edilmiş müsbət nəticələr barədə məlumat verərkən ilk növbədə qeyd etmək istəyirəm ki, dövlət başçısının "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli, ölkənin hüquq və qanunvericilik sisteminin daha yüksək müstəvidə inkişafının yeni mərhələsinin başlanğıcı olmaqla bu sahədə strateji hədəfləri müəyyən edərək həmin istiqamətdə görülən işlər üçün "yol xəritəsi" əhəmiyyətinə malik proqram xarakterli sərəncamının həyata keçirilməsi ilə əlaqədar prokurorluğun üzərinə düşən vəzifələrin vaxtında və tam icra edilməsi ilə bağlı bütün zəruri tədbirlərin görülməsi təmin edilmişdir. Prokurorluğun da yaxından iştirakı ilə hazırlanmış layihələr əsasında ötən ilin son aylarında cinayət qanunvericiliyinə 300-ə yaxın dəyişikliklərin, həmçinin cinayət-prosessual və cəzaların icrası qanunvericiliyinə müvafiq dəyişikliklərin edilməsinə dair demokratik məzmunlu və sosial mahiyyətli mütərəqqi qanunlar qəbul edilmişdir.

Qeyd olunan, cinayət qanunvericiliyinə dəyişikliklər edilməsinə dair 20 oktyabr 2017-ci il tarixdə qəbul edilmiş qanunun tətbiqi ilə bağlı prokurorluğun üzərinə düşən vəzifələrin icrasının təmin edilməsi məqsədilə Baş Prokurorluq üzrə təsdiq olunmuş 13 noyabr 2017-ci il tarixli geniş Tədbirlər planı vaxtında yerinə yetirilməklə yeni qanunun cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması baxımından əhəmiyyətinin izahı ilə əlaqədar televiziyada çıxışlar edilmiş, mətbuatda məqalələr dərc olunmuş, şəhər və rayon prokurorluqlarında bölgələr üzrə regional müşavirələr keçirilmiş, digər vacib tədbirlər görülməklə qanunun müddəalarının ibtidai araşdırma, cinayət işlərinə məhkəmədə mahiyyəti üzrə baxılması və məhkumlar barəsində hökm və ya digər yekun qərarın icrası qaydasında tətbiqi həyata keçirilmişdir.

Ötən dövrdə prokurorluq orqanlarının sahələr üzrə fəaliyyətində nəzərə çarpan irəliləyiş əldə olunaraq uğurlar qazanılmış, qarşıda duran vəzifələrin qanunun tələbi və ölkə Prezidentinin tövsiyələri səviyyəsində, müasir dövrün beynəlxalq standartlarına uyğun olaraq yerinə yetirilməsi istiqamətində lazımi tədbirlər həyata keçirilmiş, prokurorluğun fəaliyyət istiqamətləri üzrə səmərəliliyin daha da artırılması məqsədilə təkcə son bir il ərzində Baş Prokurorluq üzrə 15-ə yaxın normativ xarakterli əmr imzalanmış, gündəlik fəaliyyətdə istifadə edilməsi üçün nəzərdə tutulmuş bülleten və kitabçalar, prokurorluqda işin sahələr üzrə düzgün qurulmasına istiqamətverici əhəmiyyəti olan metodiki vəsaitlər, Baş Prokurorluğun qurumlarının fəaliyyətinə dair məlumat verən bukletlər və sair ədəbiyyat hazırlanıb nəşr edilərək istifadəyə verilmişdir.

Azərbaycan Prokurorluğunun inkişafı, onun qazandığı uğurlar, hüquq sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların, o cümlədən 177 ölkəni bir araya gətirən Beynəlxalq Prokurorlar Assosiasiyasının işində fəal iştirakı yüksək dəyərləndirilir. Təsadüfi deyildir ki, cari ilin sentyabr ayının 9-dan 13-dək Cənubi Afrika Respublikasının Yohannesburq şəhərində keçirilmiş Beynəlxalq Prokurorlar Assosiasiyasının 23-cü illik konfransı və ümumi yığıncağında Azərbaycan Respublikasının Prokurorluğu xüsusi mükafatla – Assosiasiyanın Fəxri Sertifikatı ilə təltif edilmişdir. Sertifikat ölkəmizdə prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı həyata keçirilmiş mütərəqqi islahatlar, Azərbaycan Respublikası Prokurorluğu ilə Assosiasiya arasında əməkdaşlıq, o cümlədən cari ilin 9-10 aprel tarixlərində Bakı şəhərində keçirilmiş Assosiasiyanın İcraiyyə Komitəsinin 45-ci iclasının yüksək səviyyədə təşkil olunduğu nəzərə alınmaqla verilmişdir.

Eyni zamanda, həmin konfrans çərçivəsində prokurorluğun nümayəndəsinin Beynəlxalq Prokurorlar Assosiasiyasının vitse-prezidenti vəzifəsinə seçilməsi prokurorluq orqanlarının yüksək beynəlxalq nüfuzunun əyani göstəricisidir.

**Korrupsiyaya qarşı mübarizə prokurorluğun fəaliyyətinin ən prioritet istiqamətidir**

Korrupsiyaya qarşı mübarizə prokurorluğun fəaliyyətinin ən prioritet istiqaməti olduğundan bu sahədə görülən işlərin səmərəliliyinin və effektivliyinin artırılması məsələlərinə xüsusi önəm verilir. Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı ardıcıl iş aparılaraq, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən vasitələrin davamlılığının təmin edilməsi, korrupsiyanın qarşısının alınmasında daha səmərəli nəticə verə bilən yeni mexanizmlərin tətbiqi, preventiv təsirə malik üsul və metodlardan daha geniş istifadə edilməsi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsi, əhalinin dövlət orqanlarına inam və etimadının artırılması istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Korrupsiyaya qarşı mübarizə sahəsində prokurorluq orqanlarına inamın artmasının nəticəsi olaraq ötən ilin peşə bayramından bu günə qədər olan dövrdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə vətəndaşların 8604 müraciəti daxil olmuşdur ki, onlardan da 4102-si ərizə və şikayət, 4502-si isə "161-Qaynar xətt" əlaqə mərkəzi üzrə qəbul edilmiş müraciətlər olmuşdur. "161-Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərdən prokurorluğun səlahiyyətinə aid olan 306 müraciət üzrə Baş idarədə və prokurorluğun digər struktur qurumlarında araşdırma aparılmış, onlardan 15-i üzrə cinayət işi başlanılaraq istintaq edilmişdir.

Həmin dövr ərzində Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət xarakterli material kimi baxılmış 279 müraciət və digər məlumatlardan 193-ü üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılaraq istintaq aparılmışdır. Baş idarənin fəaliyyətinin səmərəliliyinin artırılması üzrə görülmüş tədbirlər nəticəsində onun işinin göstəriciləri daha da yaxşılaşmaqla qeyd olunan dövr ərzində qurumda ibtidai araşdırılması aparılan 566 cinayət işindən 348 şəxs barəsində 234 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün ittiham aktı ilə aidiyyəti məhkəmələrə göndərilmişdir. Cinayət işlərinin istintaqı zamanı bütün təqsirli şəxslərin ifşa olunaraq məhkəmə məsuliyyətinə verilməsi ilə yanaşı, cinayəti doğuran səbəblər və şərait aşkarlanaraq qabaqlayıcı və profilaktik tədbirlərin görülməsi təmin edilmişdir.

**Yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması prosesi sistemli olaraq və davamlı şəkildə həyata keçirilir**

Ümummilli lider Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli, 509 nömrəli fərmanı ilə "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə" təsdiq edilməklə prokurorluq orqanlarına işə qəbulun şəffaf prosedurlar əsasında müsabiqə yolu ilə aparılması qaydaları müəyyən edilmişdir. Prokurorluq orqanlarına işə qəbulun müsabiqə əsasında həyata keçirilməsi prokurorluğun kadr tərkibinin hərtərəfli, savadlı və yüksək mənəvi keyfiyyətlərə malik, vətənpərvərliyi və dövlətçilik ideyalarına sədaqəti ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsinə şərait yaratmışdır. Bununla əlaqədar olaraq 2002-ci ildən başlayaraq prokurorluğa işə qəbul Dövlət İmtahan Mərkəzi (keçmiş Tələbə Qəbulu üzrə Dövlət Komissiyası) ilə əlaqəli şəkildə tam aşkarlıq şəraitində və şəffaf prosedurlar əsasında, dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları və beynəlxalq təşkilatlar, eləcə də kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə aparılmaqla, mütəmadi olaraq keçirilmiş 19 (Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 11 və Naxçıvan Muxtar Respublikasının Prokurorluğu üzrə 8) müsabiqə nəticəsində uğur qazanmış 873 gənc hüquqşünas prokurorluq orqanlarına qulluğa qəbul edilmişdir ki, bu da hazırda prokurorluq işçilərinin ümumi sayının 67 faizini təşkil etmişdir. Diqqətəlayiq haldır ki, müsabiqə yolu ilə qulluğa qəbul olunmuş gənclərin böyük əksəriyyəti yuxarı təsnifat vəzifələrə irəli çəkilməklə hazırda onlardan 125 nəfəri Baş Prokurorluqda, 44 nəfəri isə rəhbər vəzifələrdə çalışır.

Yaranmış ənənəyə uyğun olaraq prokurorluq orqanlarına yeni qulluğa qəbul edilmiş gənclərin andiçmə və onlara prokurorluq işçilərinin vəsiqələrinin təqdim edilməsi mərasimi prokurorluq işçilərinin peşə bayramı günü ərəfəsində həyata keçirilir. Əlamətdar haldır ki, belə bir tədbir Azərbaycan Prokurorluğunun 100 illiyi qeyd olunarkən də həyata keçirilmişdir. Baş Prokurorluq üzrə keçirilmiş sonuncu müsabiqənin hər üç mərhələsindən (test imtahanı, yazılı imtahan və şifahi müsahibə) uğur qazanmış 85 gənc hüquqşünas cari ilin avqust ayının 30-dan

Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında icbari təlimə cəlb edilərək, təlimin sonunda imtahan verməklə peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə aldıqdan sonra sentyabr ayının 28-də andiçmə mərasimi keçirilməklə onlar prokurorluq orqanlarına qulluğa qəbul edilərək stajor vəzifəsinə təyin edilmişlər.

Qeyd olunanlar ölkədə həyata keçirilən gənclər siyasətinin prioritet istiqamətlərindən irəli gələrək gənclərə hərtərəfli diqqət və qayğının göstərilməsinin, onların potensialından daha geniş istifadə edilməsinin təzahürü olmaqla, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanları qarşısında müəyyən etdiyi, dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması prosesinin həyata keçirilməsi üzrə görülən tədbirlərdir. Təsadüfi deyildir ki, bu sahədə dövlət səviyyəsində müntəzəm və ardıcıl tədbirlər görülməklə ölkə Prezidentinin 26 yanvar 2015-ci il tarixli sərəncamı ilə əsas məqsədi gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etməkdən ibarət olan "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" təsdiq edilərək icraya yönəldilmişdir.

Bu dövrdə prokurorluq işçilərinin xidməti fəallığının və məsuliyyət hissinin artırılması istiqamətində zəruri tədbirlər həyata keçirilmiş, kadrlarla iş sahəsində görülən tədbirlər nəticəsində tələbkarlıq daha da artmış, əmək və icra intizamına nəzarət gücləndirilmiş, fəaliyyətlərində qanunsuzluq hallarına, xidməti intizamın pozulmasına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol vermiş prokurorluq işçilərinə münasibətdə prinsipiallıq mövqeyindən yanaşılmışdır. Ötən ilin peşə bayramından sonrakı dövrdə 195 prokurorluq işçisi xidməti qaydada həvəsləndirilmiş, intizam məsuliyyətinə cəlb edilmiş 38 işçidən 25 nəfərə töhmət və şiddətli töhmət elan edilmiş, 2 nəfər aşağı vəzifəyə keçirilmiş, 6 nəfər vəzifədən azad edilmiş, 5 nəfər prokurorluq orqanlarından xaric olunmuşdur.

### Müraciətlərə baxılması və vətəndaşların qəbulu məsələlərinə xüsusi diqqət və qayğı göstərilir

Azərbaycan Respublikasında ölkə Prezidenti tərəfindən uğurla həyata keçirilən sosialyönümlü dövlət siyasətinə uyğun olaraq prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu məsələlərinə xüsusi diqqət və qayğı göstərilməklə, daxil olan ərizə və şikayətlərə həssaslıqla yanaşılmış, bu sahədə fəaliyyət dövlət başçımızın göstəriş və tövsiyələrinə müvafiq olaraq qurularaq "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun və digər qanunvericiliyin tələblərinə tam və dəqiq əməl edilməklə həyata keçirilmişdir.

Ötən ilin peşə bayramından sonrakı dövr ərzində Baş Prokurorluqda 1506 vətəndaşın qəbulu həyata keçirilmiş, onlardan 206 nəfəri Baş Prokurorluğun rəhbərliyi tərəfindən qəbul edilmişdir. Bununla yanaşı, ölkənin müxtəlif bölgələrində tərəfimdən əhalinin səyyar qəbulu keçirilməklə vətəndaşların qaldırdıqları məsələlərin yerində həll edilməsi və əsaslı müraciətlərin təmin olunması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər mütəmadi xarakter daşımaqla, ötən bir ilə yaxın müddət ərzində bölgələrdə 12 səyyar qəbul keçirilməklə ümumilikdə 291 vətəndaş qəbul edilərək daxil olmuş müraciətlərin hərtərəfli araşdırılması və qısa müddətdə qanuni həlli üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Sonda əminliklə qeyd etmək istəyirəm ki, prokurorluq işçiləri bundan sonra da ölkə Prezidentinin həyata keçirdiyi müdrik və uzaqgörən dövlət siyasətini tam dəstəkləyərək, respublikamızda həyata keçirilən hüquqi dövlət quruculuğu prosesində, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində fəal iştirak edərək, prokurorluğun fəaliyyətinin müasir dövrün standartlarına uyğun yeni keyfiyyət səviyyəsində qurulması istiqamətində səylərini daha da artıracaq, üzərlərinə düşən bütün vəzifələri yüksək məsuliyyət hissi ilə dərk etməklə, onların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə nail olaraq cinayətkarlığın bütün təzahürlərinə, digər qanun pozuntularına qarşı mübarizənin gücləndirilməsi, dövlət müstəqilliyimizin və suverenliyimizin müdafiəsi, ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunması, qanunçuluğun və təhlükəsizliyin möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi naminə tam gücləri ilə işləyərək respublikamızın daha da inkişafına xidmət edəcəklər.

**Zakir Qaralov,**
**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
"Azərbaycan" qəzeti, 28 sentyabr 2018-ci il

# İnsan hüquq və azadlıqlarının etibarlı müdafiəsi müqəddəs vəzifədir

*"Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiq xidmət edir"*

**Heydər Əliyev**
**Ümummilli lider**

*"Son illər prokurorluqda sağlam iş mühitinin yaradılması üçün ciddi işlər görülmüş, dövlətçilik, qanunçuluq prinsipləri ön plana çəkilmiş, cəmiyyətimizdə prokurorluğa ictimai etimad artmış və onun nüfuzu yüksəlmişdir"*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti,**
**Silahlı Qüvvələrin Ali Baş Komandanı**

### Azərbaycan Prokurorluğunun yaranması və inkişaf tarixi

Yarandığı vaxtdan bəri bütün fəaliyyəti prosesində Azərbaycan xalqına və dövlətinə sıx bağlılığı, sədaqətli xidməti ilə seçilən, ölkəmizdə ictimai-siyasi sabitliyin, qanunçuluğun və hüquq qaydalarının qorunmasında müstəsna əhəmiyyəti olan Azərbaycan Prokurorluğu bu gün yüz illik yubileyini qeyd edir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və onun dövlətçilik ənənələrinin mahir davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən prokurorluğa göstərilən yüksək diqqət və xüsusi qayğı dövlət qurumları sırasında bu orqanın mövqeyini daha da möhkəmləndirərək cəmiyyətdə nüfuzunu artırmaqla bərabər, üzərinə daha böyük məsuliyyət qoymuşdur. Bunun nəticəsidir ki, Azərbaycanın zəngin dövlətçilik tarixində xüsusi yerə və rola malik prokurorluq mühüm dövlət təsisatı kimi əhəmiyyətini qorumaqda davam edir.

Dövlət qurumlarımızın bir çoxu kimi milli prokurorluq orqanlarının da təsis edilməsi ötən əsrin əvvəllərində Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra mümkün olmuşdur. 1918-ci il iyunun 16-da tarixdə Azərbaycan Milli Şurasının üzvləri və AXC hökuməti Tiflisdən Gəncəyə köçdükdən sonra yeni təşkil olunan hökumətə başçılıq edən Fətəli xan Xoyskiyə həmçinin ədliyyə naziri vəzifəsinin icrası da həvalə edildi. Məhkəmə-istintaq orqanlarının formal fəaliyyət göstərdiyi bir dövrdə işinə başlayan Ədliyyə Nazirliyi təbii olaraq ciddi problemlərlə qarşılaşır, bununla yanaşı, barışıq məhkəmələri tədricən öz işlərini dayandırmağa başlayır, onların yerləşdiyi binaların əksəriyyəti talan edilərək yandırılır, həmçinin o dövrdə az sayda məhkəmələrdə istintaq funksiyalarını həyata keçirən barışıq hakimlərinin köməkçiləri üzərlərinə düşən vəzifələri yerinə yetirməyi bacarmır, yaradılmış Gəncə dairə məhkəməsi isə tam fəaliyyət göstərə bilmirdi. Milli məhkəmə-istintaq sisteminin təşkilindəki çətinliklər işçilərin maddi cəhətdən təmin edilməməsi, normal fəaliyyət üçün zəruri şəraitin olmaması, bu sahədə kadrların çatışmazlığı ilə əlaqədar olduğundan Azərbaycan Xalq Cümhuriyyətinin Ədliyyə Nazirliyi vakant hakim və müstəntiq vəzifələrinin hüquq təhsili olmayan, lakin bu sahədə təcrübəyə malik barışıq şöbələrinin katiblərinin və katib köməkçilərinin, məhkəmə pristavlarının və müstəntiq tərcüməçilərinin hesabına müvəqqəti komplektləşdirilməsinə razılıq verir. Bundan bir müddət sonra, əvvəllər mövcud olmuş məhkəmə və istintaq orqanlarının, eləcə də məhkəmə səlahiyyətli komissiyaların fəaliyyəti dayandırılır və Bakı Dairə Məhkəməsinin, habelə onun tabeliyindəki strukturların işi bərpa edilir. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanları fəaliyyətə başlayır və beləliklə də, Azərbaycan Prokurorluğunun əsası qoyulur. Bundan sonra, Azərbaycan Məhkəmə Palatası yanında Nəzarət Dairəsi, Azərbaycan Respublikasının bütün ərazisinə şamil olunan prokuror və prokuror müavini vəzifələri yaradılır. Azərbaycan Xalq Cümhuriyyəti Prokurorluğunun fəaliyyəti əsasən məhkəmədə dövlət ittihamını müdafiə etməkdən və qanunların düzgün tətbiqinə nəzarət funksiyalarını həyata keçirməkdən ibarət idi. Azərbaycan Demokratik Respublikasında prokuror nəzarətinə, eyni zamanda ədliyyə naziri kimi Ali Məhkəmə orqanlarının rəhbəri hesab edilən baş prokuror rəhbərlik edirdi. Başqa cür desək, ədliyyə naziri eyni zamanda baş prokuror vəzifəsini yerinə yetirirdi. Buna görə də, Azərbaycan Xalq Cümhuriyyətinin ədliyyə nazirləri olmuş F.Xoyski,

X.Xasməmmədov, A.Səfikürdiski və T.Makinski eyni zamanda demokratik respublikanın baş prokurorları hesab edilmişlər.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Demokratik Respublikanın mövcud olduğu dövrdə yaradılmış bütün struktur qurumların, o cümlədən prokurorluq və istintaq orqanlarının ləğv edilərək, yenidən yaradılması prosesi başladı. Azərbaycan İnqilab Komitəsinin 12 may 1920-ci il tarixdə qəbul etdiyi "Xalq məhkəməsi haqqında" dekret ilə Azərbaycan Məhkəmə Palatası, Bakı və Gəncə dairə məhkəmələri, onların yanında fəaliyyət göstərən prokuror nəzarəti və istintaq hissələri ləğv edilərək, cinayət işləri üzrə məhkəmədə ittiham və müdafiə funksiyalarının həyata keçirilməsi üçün qəza və quberniya sovetlərinin icraiyyə komitələri yanında ittihamçılar və müdafiəçilər kollegiyaları yaradıldı. 11 iyun 1922-ci il tarixdə Azərbaycan MİK-in qəbul etdiyi "Azərbaycan SSR-in Dövlət Prokurorluğu haqqında" dekretdə isə Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının tərkibində xalq ədliyyə komissarı olan baş prokurorun rəhbərlik etdiyi və kifayət qədər səlahiyyətlərə malik sovet prokurorluğu orqanının təsis edilməsi nəzərdə tuturdu.

17 noyabr 1923-cü il tarixdə, prokurorluğun təhqiqat və istintaq orqanlarının fəaliyyətinə nəzarət və məhkəmədə dövlət adından ittihamı müdafiə etmək funksiyalarına malik olduğunu özündə əks etdirən "Azərbaycan SSR-in məhkəmə quruluşu haqqında" 1922-ci il tarixli Əsasnaməsinə dəyişikliklər edilərək, həmin hüquqi akta dövlət prokurorluğu barədə xüsusi bölmə əlavə olunur, bununla da, Xalq Ədliyyə Komissarlığı nəzdində prokurorluq təsis edilir. 6 iyun 1927-ci il tarixdə Azərbaycan MİK və XKS-nin təsdiq etdiyi "Məhkəmə quruluşu haqqında" yeni Əsasnamədə bütöv bir bölmə prokurorluğa həsr olunmaqla, Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının tərkibində Respublika Prokurorluğu İdarəsi yaradılır və prokurorluğun ərazi orqanlarında dəyişikliklər edilərək, əvvəllər fəaliyyət göstərmiş mahal prokurorluqları birbaşa respublika prokuroruna tabe olan qəza və şəhər prokurorluqları ilə əvəz olunur. 1929-cu ilin iyun ayında Azərbaycan SSR-in inzibati-ərazi bölgüsündə dəyişiklik edilməsi ilə əlaqədar qəza prokurorluqlarının əvəzinə yenidən mahal prokurorluğu yaradılır.

Xalq Ədliyyə Komissarlığının ləğv olunması ilə əlaqədar, 8 avqust 1930-cu il tarixdə Azərbaycan SSR MİK və XKS-nin təsdiq etdiyi "Azərbaycan SSR Prokurorluğu haqqında" Əsasnaməyə müvafiq olaraq, prokurorluq birbaşa Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin tabeçiliyinə verilir. MİK və XKS-nin digər qərarı ilə respublikada mahal bölgüsünün əvəzinə rayonların yaradılması ilə əlaqədar mahal prokurorluqları əvəzinə rayon və şəhər prokurorluqları, əraziləri böyük olmayan rayonlar üzrə yurisdiksiyası iki rayonu əhatə edən rayonlararası prokurorluqlar yaradılır. Bundan sonra, Azərbaycanın da daxil olduğu Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının MİK və XKS tərəfindən qəbul edilmiş 22 avqust 1931-ci il tarixli "ZSFSR Prokurorluğu haqqında Əsasnamə"yə müvafiq olaraq federasiyanın tərkibinə daxil olan üç prokurorluğa bilavasitə rəhbərlik ZSFSR Prokurorluğuna həvalə edilir. Yeni sistemin özünü doğrultmaması prokurorluqda növbəti islahatların aparılmasına zəmin yaratdığından, 1933-cü ildə Xalq Ədliyyə Komissarlığı yenidən təsis edilir və respublika prokurorluğu onun tabeçiliyinə keçir, respublika prokurorunun vəzifəsinin icrası isə Xalq Ədliyyə Komissarına tapşırılır. SSRİ MİK və XKS-nin 20 iyun 1933-cü il tarixli qərarı ilə SSRİ Ali Məhkəməsi Prokurorluğu ləğv edilərək SSR İttifaqı Prokurorluğu yaradılır. 1936-cı ildən etibarən SSRİ-də mərkəzi hakimiyyətin gücləndirilməsi, müttəfiq respublikaların səlahiyyətlərini məhdudlaşdırmaqla asılılığın artırılması məqsədilə prokurorluq sisteminin də mərkəzləşdirilməsi prosesi həyata keçirilir və "SSRİ İttifaqı Xalq Ədliyyə Komissarlığının yaradılması haqqında" SSRİ MİK və XKS-nin 20 iyul 1936-cı il tarixli qərarı ilə bütün müttəfiq respublikaların, o cümlədən Azərbaycan SSR-in prokurorluq və istintaq orqanları xalq ədliyyə komissarlığının sturukturundan çıxarılaraq birbaşa SSRİ Prokurorluğunun tabeliyinə verilir. İkinci dünya müharibəsi dövründə digər dövlət qurumları kimi prokurorluğun da fəaliyyəti hərbi məqsədlərə, daha dəqiq desək ölkənin hərbi gücünə xələl gətirə biləcək mübarizəyə yönəldilir. 24 may 1955-ci il tarixdə "SSRİ-də prokuror nəzarəti haqqında Əsasnamə" təsdiq edilir və orada prokurorluğun əsas təyinatının qanunçuluğun təmin edilməsindən ibarət olması vurğulanmaqla, vəzifələr və fəaliyyət istiqamətləri konkret müəyyən edilir. Nəhayət 30 noyabr 1979-cu il tarixdə "SSRİ Prokurorluğu haqqında" Qanun qəbul olunur və həmin vaxtadək qüvvədə olan normativ hüquqi aktlardan fərqli olaraq yeni qanunla prokurorluğun səlahiyyətləri xeyli genişləndirilərək fəaliyyət istiqamətləri və funksiyaları uzunmüddətli, daha dəqiq və əhatəli tənzim edilir.

### Prokurorluğun müasir dövlət təsisatına çevrilməsi

Məlum olduğu kimi, istər Azərbaycan Demokratik Respublikasının mövcudluğu zamanı, istərsə də ölkəmizin SSRİ-nin tərkib hissəsi olduğu dövrdə milli prokurorluq orqanları tam formalaşa, cəmiyyətdə və dövlətdə öz layiqli yerini tuta bilməmiş, onun milli maraqlara və insan hüquqlarını layiqincə müdafiə edən təsisata çevrilməsi mümkün olmamışdır. Müstəqilliyimizin ilk illərində isə ölkədə yaranmış

özbaşınalıq, anarxiya, xaos, hakimiyyət zəifliyi, xalq ilə iqtidar arasında olan uçurum səbəbindən prokurorluq hakimiyyət uğrunda gedən mübarizələrdə bir alətə çevrilmişdir.

Müstəqilliyin ilk illərində ictimai münasibətlərin əhəmiyyətli dəyişməsi yeni qanunların qəbul edilməsini zəruri etsə də, bu prosesin qısa bir zamanda və əlverişsiz ictimai-siyasi şəraitdə baş tutması mümkün olmadığı üçün, müvəqqəti olaraq əvvəlki qanunlardan istifadə edilməsinə zərurət yarandığından, 18 oktyabr 1991-ci il tarixdə qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktının 4-cü maddəsində müvafiq qanunlar qəbul edilənədək keçmiş SSRİ qanunlarının respublikanın suverenliyinə və ərazi bütövlüyünə zidd gəlməyən həddə Azərbaycan Respublikasında qüvvəsini saxlamasına dair müddəalar təsbit edildi. Ulu Öndər Heydər Əliyevin xalqın israrlı tələbi ilə hakimiyyətə qayıdışından sonra respublikamızda bütün sahələrdə olduğu kimi, məhkəmə-hüquq sistemində də köklü islahatlar həyata keçirilməyə başlanıldı. Çətin dövrlərdə, eləcə də ölkəmizdə separatçılıq meyillərinin və dövlət çevrilişinə cəhdlərin qarşısının alınmasında prokurorluq əməkdaşları da üzərlərinə düşən vəzifələri layiqincə icra edərək, dövlətimizin suverenliyinə və müstəqilliyinə qarşı ağır cinayətlər törətmiş şəxslərin tez bir zamanda müəyyən edilib məsuliyyətə cəlb olunmasına bütün güclərini səfərbər etməklə cəmiyyətin və dövlətin onlara olan etimadını doğrultdu. Beləliklə də, Azərbaycanı bütün bəlalardan və çətinliklərdən məharətlə qorumaqla, qısa zaman ərzində ölkəsini olduqca çətin vəziyyətdən xüsusi peşəkarlıqla çıxarmış ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə dövlət qurumlarının, o cümlədən prokurorluğun yenidən qurulması və müasir dövlət təsisatına çevirilməsi istiqamətində əhəmiyyətli işlər görülərək, onun demokratik orqan kimi tamamilə yenidən formalaşdırılmaqla dövlətçiliyimizin əsas sütunlarından birinə çevrilməsinə və dövlət orqanları sırasında öz layiqli yerini tutmasına nail olundu. Hər kəsə məlumdur ki, prokurorluq orqanlarında aparılan hərtərəfli islahatların əsasını və onun hüquqi bazasının təməlini ulu öndərin təşəbbüsü əsasında 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası təşkil etmiş və ali qanunda ilk dəfə olaraq cinayət mühakimə icraatında mühüm funksiyaları yerinə yetirməsi nəzərə alınmaqla ölkəmizin məhkəmə hakimiyyəti sistemində prokurorluğun layiqli yeri müəyyənləşdirilmiş, onun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri qanunvericilik qaydasında təsbit edilmişdir. Bir müddət sonra ümummilli lider Heydər Əliyevin təşəbbüsü əsasında qəbul edilmiş "Prokurorluq haqqında" Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli Qanunu qarşıda duran bu və ya digər vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmaqla, prokurorluq orqanlarının daha da demokratikləşdirilməsini, onun qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin etdi. Beynəlxalq hüquq normalarına və demokratik prinsiplərə uyğun hazırlanmış "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" Azərbaycan Respublikası qanunlarının və digər hüquqi aktların qəbul edilməsi nəticəsində prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənməsi prosesi dövrün tələblərinə və beynəlxalq standartlara cavab verən səviyyəyə yüksəldi. 19 sentyabr 2002-ci il tarixdə qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" referendum aktı ilə prokurorluğa qanunvericilik təşəbbüsü hüququnun verilməsi isə dövlətdə və cəmiyyətdə prokurorluğun rolunu daha da artırdı.

Həyata keçirilən möhtəşəm islahatlar çərçivəsində görülən nəhəng işlər sayəsində və təməl prinsiplərin mövcud tələblərlə uzlaşdırılması ilə hazırlanmış hüquqi baza əsasında Azərbaycan Prokurorluğu struktur və mahiyyət baxımından tamamilə yenidən qurularaq, yüksək nəzəri bilikli və peşəkar kadrlarla komplektləşdirilməklə, səlahiyyətləri, vəzifələri və fəaliyyəti beynəlxalq standartlara uyğun formalaşdırılmış müasir dövlət təsisatına çevirildi.

## Prokurorluq sistemində Hərbi Prokurorluğun yeri və rolu

Prokurorluq sisteminə daxil olan Azərbaycan Respublikasının Hərbi Prokurorluğu ixtisaslaşdırılmış prokurorluq olmaqla Azərbaycan Respublikasının Silahlı Qüvvələrində qanunvericiliklə hərbi prokurorluqlara aid edilmiş səlahiyyətləri həyata keçirir. SSRİ prokurorluq sisteminə daxil olan Hərbi Prokurorluğun strukturunu, funksiya və səlahiyyətlərini müəyyən edən 14 dekabr 1966-cı il tarixli "Hərbi Prokurorluq haqqında Əsasnamə" xeyli müddət ərzində Hərbi Prokurorluğun fəaliyyətini tənzimləmişdir. "Hərbi Prokurorluq haqqında" 4 avqust 1981-ci il tarixli Əsasnamə isə uzun müddət, hətta ölkəmiz müstəqillik əldə etdikdən sonra belə, müəyyən dövr ərzində Hərbi Prokurorluğun fəaliyyətini nizamlamışdır. Azərbaycan Respublikasının Hərbi Prokurorluğu yarandığı zamanadək ölkəmizdə SSRİ Baş Hərbi Prokurorluğunun tərkibində Zaqafqaziya Dairə Hərbi Prokurorluğunun tabeçiliyində olan Hərbi Dəniz Qüvvələrinin hərbi prokurorluğu, habelə Gəncə, Lənkəran və Naxçıvan qarnizon hərbi prokurorluqları fəaliyyət göstərmişlər. Yeni yaranan milli hərbi

prokurorluq orqanları qeyd olunduğu kimi, bir müddət sovetlər dönəmindən qüvvədə olmuş qanunlar əsasında fəaliyyət göstərir, digər tərəfdən isə maddi-texniki təchizat və maliyyə məsələləri baxımından Silahlı Qüvvələrdən asılı idi ki, bu da fəaliyyətdə obyektivliyə və prinsipiallığa öz mənfi təsirini göstərirdi. Sirr deyil ki, müstəqil Azərbaycanın Prokurorluq, o cümlədən Hərbi prokurorluq orqanlarının formalaşması prosesində, fəaliyyət istiqamətlərinin və səlahiyyətlərinin qanunvericiliklə müəyyən edilməsində yeni mərhələ ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə başladı. Prokurorluq sistemindəki bütün qurumlarda olduğu kimi, Hərbi Prokurorluq orqanlarının da fəaliyyətində ardıcıl uğurlar əldə edildi. Prokurorluğun, o cümlədən Hərbi Prokurorluğun fəaliyyətini tənzimləyən qanunlar qəbul edildi və milli hərbi prokurorluq orqanlarının təkmilləşdirilməsi üçün bir sıra digər mühüm əhəmiyyətli işlər görüldü. Hərbi Prokurorluq orqanlarının işinin daha səmərəli təşkil olunması, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizənin müasir tələblərə uyğun aparılmasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr ediməsi haqqında" 30 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Hərbi Prokurorluğa Silahlı Qüvvələrdə törədilən və hazırlanan cinayətlərin qarşısının alınmasında mühüm əhəmiyyətə malik əlavə səlahiyyətlərin verilməsi və buna uyğun olaraq mövcud strukturda müvafiq dəyişikliklər edilməklə yeni qurumların yaradılması Hərbi Prokurorluğun fəaliyyətinə verilən növbəti yüksək dəyərin təzahürü idi. Qəti əminliklə demək olar ki, möhtərəm Prezidentimiz İlham Əliyevin dəyərli tövsiyələri və hərtərəfli dəstəyi ilə Azərbaycan Prokurorluğunda, eləcə də Hərbi Prokurorluqda həyata keçirilən islahatlar bu orqanın milli dövlətçilik ənənələrinə və beynəlxalq standartlara uyğun hərtərəfli müasirləşdirilməsi, səmərəli fəaliyyəti üçün bütün imkanların yaradılması ilə nəticələndi. Ötən illər ərzində Azərbaycan Respublikası Hərbi Prokurorluğunun maddi-texniki bazasının gücləndirilməsi, o cümlədən ardıcıl olaraq, Hərbi Prokurorluğun mərkəzi aparatının, Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun, Qazax, Zaqatala və Gəncə hərbi prokurorluqlarının ən müasir standartlara uyğun tikilməklə bütün zəruri avadanlıqla təchiz olunmuş inzibati binalarla təmin olunması, əksər hərbi prokurorluqların inzibati binalarının əsaslı təmir edilməsi, əməkdaşlarının hərtərəfli dövlət qayğısı ilə əhatə olunması görülmüş böyük işlərin bəhrəsidir. Bütün bunlar hərbi prokurorluq əməkdaşlarını xidməti vəzifələrinə vicdanla və daha məsuliyyətlə yanaşmağa sövq edir. Hərbi Prokurorluğa və onun işçilərinə dövlət səviyyəsində verilən yüksək dəyərin məntiqi nəticəsi olaraq, 2005-ci ildən başlayaraq, xüsusən də son dövrlərdə bu qurum fəaliyyətində ardıcıl uğurlar qazanmışdır. Hərbi Prokurorluğun əldə etdiyi nailiyyətlərdən söz açarkən xüsusi vurğulanmalıdır ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində 1992-2004-cü illərdə törədilmiş qəsdən adam öldürməyə cəhd, qəsdən adam öldürmə və digər ağır, xüsusilə ağır cinayət hadisələri ilə bağlı həmin dövrdə başlanılmış, uzun müddət istintaq aparılmasına baxmayaraq, səriştəsizlik və bəzi hallarda isə yarıtmaz fəaliyyət ucbatından iş üzrə ibtidai araşdırmanın yekunlaşdırılması mümkün olmadığından təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin müəyyən edilməməsi əsası ilə icraatı dayandırılmış cinayət işlərinin 2005-ci ildən başlayaraq təcrübəli əməkdaşlar tərəfindən öyrənilməklə, bir neçəsi üzrə icraatın təzələnərək ibtidai istintaqın davam etdirilməsi, yekun qərarların qəbul olunması, bununla da ibtidai araşdırmanın yekunlaşması təmin edilmişdir. Belə ki, icraatı təzələnmiş işlər üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində məharətlə həyata keçirilmiş prosessual rəhbərlik, düzgün qurulmuş istintaq metodikası və taktikası, səriştəli aparılan istintaq hərəkətləri, eləcə də istintaqçıların peşəkarlığı və əzmi sayəsində 25-dən artıq cinayət işinin ibtidai araşdırmasının yekunlaşdırılmasına, o cümlədən cinayət törətmiş şəxslərin ifşa olunmasına, faktlara və şəxslərin əməllərinə hüquqi qiymət verilməsinə nail olunmuşdur.

Sözügedən işlərin əksəriyyəti üzrə müxtəlif şəxslərə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham irəli sürülərək cinayət işləri baxılması üçün məhkəməyə göndərilmiş, bir neçəsinin icraatına CPM-nin 39.1.2-ci (əməldə cinayət tərkibinin olmaması), 39.1.3-cü (cinayət məsuliyyətinə cəlb etmə müddətinin keçməsi) və 39.1.5-ci (şəxsin cinayət törətdikdən sonra ölməsi) maddələrinin tələblərinə əsasən xitam verilmişdir. Vurğulanmalıdır ki, məhkəməyə göndərilmiş qeyd olunan işlər üzrə təqsirləndirilən şəxslərdən bəraət alan olmamış, həmin işlər üzrə ittiham hökmləri çıxarılmışdır. Qeyd etmək lazımdır ki, sadalanan işlər üzrə nöqsanlara və qanun pozuntularına yol vermiş prokurorluq işçiləri müvafiq məsuliyyətə cəlb edilmişlər. Yeri gəlmişkən o da qeyd olunmalıdır ki, 2005-ci ildən etibarən Silahlı Qüvvələrdə baş vermiş səbəbindən asılı olmayaraq istənilən ölüm faktı üzrə cinayət işi başlanılmış, iş üzrə hərtərəfli, tam, obyektiv və vaxtında ibtidai araşdırmanın aparılması, təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb edilmələri, eləcə də hər bir fakta və əmələ hüquqi qiymət verilməsi təmin edilmişdir. Eyni zamanda hər bir cinayət işi üzrə ibtidai araşdırmanın aparılması zamanı cinayətin törədilməsinə imkan yaradan səbəb və şərait müəyyən edilməklə, müvafiq vəzifəli şəxsin ünvanına belə

halların aradan qaldırılması üçün tədbirlər görülməsi barədə təqdimat göndərilərək həmin halların qarşısının alınması, eləcə də iş üzrə əməllərində cinayət tərkibi olmayan, lakin başqa hüquq pozuntusuna yol vermiş şəxslərin digər müvafiq hüquqi məsuliyyətə cəlb edilməsi təmin edilmişdir.

Sözsüz ki, sadalananlar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun fəaliyyətinin müəyyən bir hissəsini təcəssüm etdirir və ötən dövr ərzində hərbi prokurorluq orqanları tərəfindən kifayət qədər işlər görülərək, Silahlı Qüvvələrdə qanunun aliliyi prinsipi rəhbər tutulmaqla hüquq pozuntularına və cinayətkarlığa qarşı ciddi mübarizə aparılmışdır. Belə ki, Azərbaycan ordusunda və başqa silahlı birləşmələrdə insan hüquq və azadlıqlarına riayət olunmasını, qanunçuluğun və hüquq qaydasının qorunmasını təmin etmək məqsədilə hər il Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və digər hərbi qurumlarla birgə hazırladığı "Hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsinə dair", "Cinayətkarlığa qarşı mübarizəyə dair", "Cinayət hadisələrinin qarşısının alınmasına dair", "Hərbi qulluqçularda vətənpərvərlik hisslərinin gücləndirilməsinə dair" və sair mövzular üzrə tədbirlər planları əsasında adıçəkilən qurumların yüksək vəzifəli əməkdaşlarının iştirakı ilə səmərəli işlər görülmüş, eləcə də, mütəmadi olaraq hərbi qulluqçuların fərdi qəbullarının keçirilməsi təmin olunmuşdur. Eyni zamanda milli və rəsmi dövlət bayramlarında, digər əlamətdar günlərdə hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların icra hakimiyyəti orqanları ilə birgə hərbi qulluqçular və valideynlərinin iştirakı ilə bayram mərasimləri, o cümlədən konsertlər təşkil edilmiş və xidmətdə fərqlənən hərbi qulluqçulara hədiyyələr təqdim olunmuşdur.

Silahlı Qüvvələrdə ayrı-ayrı cinayətlərin qarşısının alınması məqsədilə hər il məhkəmə və istintaq təcrübəsi ümumiləşdirilərək Respublika Hərbi Prokurorluğunun kollegiyalarında silahlı birləşmələrin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə müzakirə edilməklə, kollegiyaların qərarlarına əsasən, həmin cinayətləri doğurmuş səbəb və şəraitin aradan qaldırılması üçün zəruri qabaqlayıcı tədbirlərin görülməsinə dair Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və başqa struktur qurumların rəhbərlərinə məlumat məktubları, silahlı birləşmələrin komandanlıqlarına təqdimatlar, ərazi hərbi prokurorlarına icmal məktublar göndərilmişdir. Qeyd olunanlarla bərabər, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsini və bununla əlaqədar görülən işlərin səmərəliliyini artırmaq məqsədilə müxtəlif istiqamətlər üzrə bir neçə metodiki tövsiyələr və digər maarifləndirici vəsaitlər hazırlanmış və hərbi qulluqçulara çatdırılmışdır:

– hərbi qulluqçuların qəbulu işini daha da təkmilləşdirmək, o cümlədən onların qayğı və problemləri ilə yerində maraqlanmaq, rastlaşdıqları çətinliklər barədə zamanında məlumat əldə etmək, eləcə də müraciətlərin operativliyini artırmaq məqsədi ilə "Ərazi hərbi prokurorluqlarının əməkdaşları tərəfindən hərbi qulluqçuların bilavasitə hərbi hissələrdə qəbulunun təşkili və keçirilməsinə dair";

– hərbi hissələrdə intihara meyilli hərbi qulluqçuların, belə şəxslərə mənfi təsir edə biləcək halların, onlarda psixi-emosional gərginlik yaradacaq amillərin vaxtında aşkar edilməsi və baş verə biləcək hadisələrin ən qısa zamanda qarşısının alınması məqsədi ilə preventiv və profilaktik tədbirlərin icrasını nəzərdə tutan "Silahlı Qüvvələrdə suisid hallarının qarşısının alınması məqsədilə profilaktik tədbirlərin həyata keçirilməsinə dair";

– hauptvaxtlarda saxlanılan hərbi qulluqçuların qanunvericilikdə nəzərdə tutulmuş hüquqlarının və qanuni mənafelərinin qorunmasına, onların üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsinə nəzarəti artırmaq, bu sahədə baş verə biləcək qanun pozuntularını vaxtında aşkar etməklə aradan qaldırılmasını təmin etmək məqsədilə "Hərbi qulluqçuların hauptvaxtlarda saxlanılması zamanı qanunlara əməl edilməsinə nəzarət qaydasında keçirilən yoxlamalara dair";

– təhqiqat üzərində prosessual rəhbərliyin səmərəliliyini artırmaq, o cümlədən bu mühüm fəaliyyət istiqamətində işin daha da təkmilləşdirilməsini, nəzarətin gücləndirilməsini, baş verə biləcək pozuntu, nöqsan və çatışmazlıqların vaxtında müəyyən edilməklə, təxirəsalınmadan aradan qaldırılmasını təmin etmək məqsədilə "Müdafiə Nazirliyinin təhqiqat orqanlarında hərbi qulluqçuların zədə almaları faktları ilə bağlı araşdırmaların aparılmasına prokuror nəzarətinin xüsusiyyətlərinə dair" və digər metodiki tövsiyələr hazırlanmış və istifadə üçün aidiyyatı üzrə paylanılması təmin edilmişdir.

Bundan əlavə, əsgərlərin, xüsusən də hərbi xidmətə yeni başlayan şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hüquq və vəzifələri barədə tam məlumatlandırılmasını, o cümlədən bir-birinə münasibətdə həmişə nəzakətli və təmkinli olmasını, nizam-intizamın daha da möhkəmləndirilməsini və onların hərtərəfli maarifləndirilməsini təmin etmək məqsədilə "əsgər kitabçası" broşürləri hazırlanaraq, əsgərlərə çatdırılmışdır.

Sadalananlarla yanaşı, hərbi qulluqçuların, xüsusilə gənc əsgərlərin müraciət hüququnu həm asanlaşdırmaq, həm də real təmin etmək məqsədilə hərbi hissələrin ərazisində ən münasib yerlərdə "Etimad qutuları" qoyulmuş və onların üzərində müvafiq ərazi hərbi prokurorluqlarının məsul işçilərinin, növbətçi

hissələrinin, habelə Respublika Hərbi Prokurorluğunun növbətçi hissəsinin əlaqə nömrələri yerləşdirilmişdir. Qeyd olunmalıdır ki, həmin nömrələr vasitəsilə edilən müraciətlərə və hərbi prokurorluq əməkdaşları tərəfindən qutulardan götürülmüş ərizələrə qanunvericiliklə müvafiq qaydada qeydə alınmaqla baxılması təmin edilmişdir.

Xüsusi vurğulanmalıdır ki, müstəqilliyin ilk illərində ordunun siyasiləşmiş ayrı-ayrı silahlı dəstələrdən ibarət olması, vahid komandanlıq tərəfindən deyil, konkret şəxslər tərəfindən idarə olunması Silahlı Qüvvələrdə baş verən minlərlə cinayət hadisələrinin latent qalmasına şərait yaratmaqla, onların dəqiq uçotunu aparmağa imkan vermədiyindən, bununla əlaqədar qabaqlayıcı tədbirlərin görülməsində, cinayətkarlığa qarşı adekvat mübarizənin aparılmasında ciddi çətinliklər yaranırdı. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və onun layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurla davam etdirdiyi ordu quruculuğu sahəsində həyata keçirilən kompleks tədbirlərin nəticəsi olaraq, bugün Azərbaycan Silahlı Qüvvələri vahid mərkəzdən idarə olunan, maddi-texniki bazası, intellektual potensialı möhkəmləndirilmiş, mənəvi-psixoloji hazırlıqlı, yüksək əhval-ruhiyyəli, bir sözlə, müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan silahlı birləşmələrdən ibarətdir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik siyasəti, gərgin əməyi, yorulmaz fəaliyyəti və qətiyyəti sayəsində dövlətimizin qüdrətlənməsi, ölkə iqtisadiyyatının durmadan artması Silahlı Qüvvələrə kifayət qədər maddi vəsait ayrılmasına imkan vermişdir ki, bu da şəxsi heyətin təminatının və sosial müdafiəsinin daha da güclənməsinə zəmin yaratmışdır. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər edərək hərbi qulluqçularla görüşməsi, onlara mübarizə əzmi aşılayan qətiyyətli çıxışları və düşmənə ünvanlanmış tutarlı ismarıcları şəxsi heyətdə sarsılmaz ruh yüksəkliyi yaratmışdır.

Təsadüfi deyil ki, Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu arasındadır. Böyük iftixar hissi ilə vurğulamalıyıq ki, ordumuz öz gücü və qüdrətini 2016-cı ilin “aprel” və 2018-ci ilin “may” döyüşlərində bir daha sübut etdi. Hər kəsə məlumdur ki, dövlətimizin və xalqımızın təhlükəsizliyini, habelə əmin-amanlığı ləyaqətlə qoruyan ordumuz, 2016-cı ilin aprel ayında mövqelərimizə doğru irəliləməklə, işğal altında saxladıqları əraziləri bir qədər də genişləndirməyə ciddi cəhd göstərən düşmənin layiqli cavabını verdi və qəhrəman hərbiçilərimiz böyük şücaət göstərməklə nəinki öz mövqelərini qoruya bildi, hətta düşməni öz əvvəlki mövqelərindən geri çəkilməyə məcbur etməklə, bir sıra mühüm strateji məntəqələri işğaldan azad etdi. 2018-ci ilin may ayında da atəşkəsi ciddi şəkildə pozaraq öz işğalçı niyyətini davam etdirmək istəyən düşməni növbəti dəfə uğursuzluğa düçar edən rəşadətli ordumuz Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisini, o cümlədən Şərur rayonunun Günnüt kəndini düşməndən azad edərək dövlət sərhədi boyunca əlverişli əraziləri öz nəzarətinə götürdü. Hər iki döyüş əməliyyatlarında Azərbaycan hərbçilərinin göstərdiyi peşəkarlıq və qəhrəmanlıq ordumuzun yüksək döyüş ruhunu və qabiliyyətini, torpaqlarımızı azad etməyə hər an qadir olduğunu və qələbə əzmini əyani nümayiş etdirdi. Haqqında fəxrlə danışdığımız bu uğurlar Ali Baş Komandan cənab İlham Əliyevin müdrik siyasətinin və qətiyyətinin, dövlətimizin qüdrətinin, ordumuzun gücünün, hərbi qulluqçularımızın qəhrəmanlığının və xalqımızın mübarizliyinin sıx vəhdətinin nəticəsi idi. Bütün bunlar xalqımızı tam əmin edir ki, işğal altında olan torpaqlarımız Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə tezliklə düşmənlərdən təmizlənəcək və doğma yurdumuzun hər bir guşəsində Azərbaycan bayrağı dalğalanacaqdır.

Beləliklə də, yuxarıda sadalananların, yəni prokurorluğa, o cümlədən hərbi prokurorluğa dövlət səviyyəsində göstərilən xüsusi diqqət və yüksək etimadın, prokurorluq əməkdaşlarının işə vicdanlı və daha məsuliyyətlə yanaşmasının və Silahlı Qüvvələrdə aparılmış köklü islahatların nəticəsində ölkədə hərbi xidmət əleyhinə olan cinayətlərin sayı əhəmiyyətli dərəcədə azalmış, fərarilik cinayətinin kökü isə, demək olar ki, tamamilə kəsilmişdir. Belə ki, ayrı-ayrı illərdə Azərbaycan Respublikası Hərbi Prokurorluğu üzrə qeydə alınmış müxtəlif qəbildən olan cinayətlərin müqayisəli təhlili aparılarkən məlum olmuşdur ki, 2017-ci ildə qeydə alınmış hərbi xidmət əleyhinə olan cinayətlər 1998-ci illə müqayisədə 7 dəfə, 2005-ci illə müqayisədə 2 dəfə, tabeçilik qaydaları əleyhinə olan cinayətlər 2005-ci illə müqayisədə 29 faiz, hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə cinayətləri 2005-ci illə müqayisədə 1,8 dəfə, xidmətdən yayınma cinayətləri 1998-ci illə müqayisədə 31 dəfə, 2006-cı illə müqayisədə 3,4 dəfə, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayətləri 1998-ci illə müqayisədə 26 dəfə, 2005-ci illə müqayisədə 2,8 dəfə, müharibə vaxtı və ya döyüş şəraitində hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayətləri 1998-ci illə müqayisədə 2999 dəfə, fərarilik cinayətləri 1998-ci illə müqayisədə 325 dəfə, 2006-cı illə müqayisədə 57 dəfə, hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən qəsdən istifadə etməmə cinayətləri 2005-ci illə müqayisədə 4 dəfə, qulluğa

səhlənkar yanaşma cinayətləri 2005-ci illə müqayisədə 3 dəfə, silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma cinayətləri 1998-ci illə müqayisədə 5 dəfə, 2005-ci illə müqayisədə 2,4 dəfə, qeyri-hərbi cinayətlər 2005-ci illə müqayisədə 9 faiz, qəsdən adam öldürmə cinayətləri 1994-cü illə müqayisədə 11 dəfə, özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma hadisələri 1995-ci illə müqayisədə 2 dəfə, qəsdən sağlamlığa ağır zərər vurma cinayətləri 1994-cü illə müqayisədə 5 dəfə; mülkiyyət əleyhinə olan cinayətlər 1994-cü illə müqayisədə 22 faiz, xuliqanlıq cinayətləri 1994-cü illə müqayisədə 16 dəfə, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə cinayətləri 1994-cü illə müqayisədə 4 dəfə, təqsirləndirilən şəxs qismində cəlb edilmiş şəxslərin sayı 1998-ci illə müqayisədə 6 dəfə, ümumi törədilmiş cinayətlər nəticəsində həlak olan şəxslərin sayı 1994-cü illə müqayisədə 8 dəfə azalmışdır.

Bundan başqa, ötən dövr ərzində görülmüş ciddi tədbirlərin nəticəsində əsassız olaraq cinayət işlərinin başlanılması hallarının qarşısı alındığından, 2017-ci il ərzində xitam edilmiş cinayət işlərinin sayı 1998-ci illə müqayisədə 42 dəfə, 2005-ci illə müqayisədə 5 dəfə, icraatı dayandırılmış cinayət işlərinin sayı 1998-ci illə müqayisədə 111 dəfə, 2006-cı illə müqayisədə 3 dəfə azalmışdır.

Hərbi prokurorluğun fəaliyyətinin mühüm önəm kəsb edən bir hissəsi də Ermənistan Respublikası MN-nin, habelə Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində qanunsuz fəaliyyət göstərən erməni silahlı bandit dəstələrinin törətdikləri cinayətlərin ibtidai araşdırmasının aparılmasıdır. Bütün dünyaya məlumdur ki, ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq təcavüzkar erməni millətçiləri tərəfindən Azərbaycan Respublikasına qarşı əsassız ərazi iddialarının irəli sürülməsi və qondarma Dağlıq Qarabağ probleminin ortaya atılması xalqımıza qarşı soyqırımı törədilməsi, azərbaycanlıların kütləvi şəkildə qırğını, əsrlər boyu yaşadığı tarixi ərazilərindən, doğma torpaqlarından deportasiyası, şəhər və rayonlarımızın talan edilməsi, mədəniyyət abidələrimizin dağıdılması və milli genofondumuzun məhvinə yönəlmiş digər qəsdlərlə nəticələnmişdir. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində törədilmiş sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq və digər cinayətlərin istintaqı və onlara hüquqi qiymət verilməsi, həmin cinayətlərin təşkili və törədilməsində iştirak etmiş şəxslərin müəyyən edilib mövcud qanunvericiliyə əsasən cinayət məsuliyyətinə cəlb edilməsi, habelə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədi ilə 2003-cü il dekabrın 18-də Azərbaycan Respublikası Baş prokurorunun, Daxili İşlər və Milli Təhlükəsizlik nazirlərinin vahid əmri ilə birgə istintaq-əməliyyat qrupu yaradılmış, 2005-ci mayın 5-dən həmin cinayət işinin istintaqı və ibtidai araşdırmaya prosessual rəhbərlik Respublika Hərbi prokuroruna həvalə edilməklə, Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna tapşırılmışdır. Odur ki, qanunsuz erməni silahlı birləşmələrinin üzvləri tərəfindən 1988-1992-ci illərdə törədilmiş eyni xarakterli cinayət faktları ilə bağlı müxtəlif vaxtlarda başlanılmış və cinayət törətmiş şəxslərin və ya onların olduqları yerin müəyyən edilməməsi əsası ilə icraatları dayandırılmış hər bir cinayət işi öyrənilmiş, onlardan 152 cinayət işinin icraatı təzələnərək vahid bir icraatda birləşdirilmiş və istintaq aparılmışdır. Cinayət işinin ibtidai araşdırması əvvəlki illərdən fərqli olaraq, cinayət işinin vahid istintaq-əməliyyat planına əsasən ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, beynəlxalq hüquq normalarına, eləcə də Azərbaycan Respublikası CM-nin, CPM-nin tələblərinə tam uyğun və baş vermiş cinayət hadisələrinin hər birinin mahiyyəti üzrə aparılmış, cinayət təqibi üzrə toplanmış materialların həcminin böyüklüyü, araşdırılmalı olan xüsusatların çoxluğu, eyni zamanda cinayətlərin törədilmə üsul və vasitələri, xarakteri nəzərə alınaraq, araşdırmanın səmərəliliyini və operativliyini təmin etmək məqsədi ilə iş üzrə 4 əsas istiqamət – soyqırımı, əsir və girov götürülmüş şəxslərə qarşı işgəncə, terror və dövlətə, vətəndaşlara vurulmuş ziyanın müəyyənləşdirilməsi kimi istiqamətlər müəyyənləşdirilmişdir. Qeyd olunmalıdır ki, iş üzrə ümumilikdə 75000-dən artıq istintaq hərəkəti icra edilmiş, o cümlədən 25000 nəfərə yaxın şəxs zərərçəkmiş şəxs və zərərçəkmiş şəxsin hüquqi varisi qismində tanınaraq dindirilmiş, 6000 nəfərə yaxın şəxs şahid qismində dindirilmiş, 18000 nəfərdən çox şəxs mülki iddiaçı qismində tanınmış, 1000-dən artıq müxtəlif növ ekspertiza keçirilmiş, digər çoxsaylı zəruri istintaq hərəkətləri yerinə yetirilmişdir. Eyni zamanda, cinayət nəticəsində dövlətə və vətəndaşlara dəymiş zərərin – mənəvi, fiziki və maddi ziyanın miqdarının və bunun müqabilində ödənilməli olan kompensasiyanın məbləğinin beynəlxalq standartlara əsasən müəyyən edilməsi məqsədilə, cinayət işi üzrə 16 sentyabr 2014-cü il tarixli qərarla kompleks məhkəmə-qiymətləndirmə ekspertizası təyin edilmiş və rəy verilməsi Azərbaycan Respublikası ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupuna həvalə edilmişdir.

Sözügedən cinayət işi ilə bərabər, 2005-ci ildən etibarən düşmənlə təmas xəttində Ermənistan ordusu

və digər qanunsuz silahlı dəstələr tərəfindən hərbi qulluqçularımıza, eləcə də mülki əhaliyə qarşı törədilən bütün cinayətlər də qeydə alınmaqla, ümumilikdə 803 cinayət işinin hər biri üçün qanunvericiliyə uyğun ibtidai istintaqın aparılması təmin edilmişdir. Cinayət işləri üzrə sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətlərini törətmiş şəxslərdən 39-u Xocalı soyqırımı, 12-i Qaradağlı soyqırımı, 18-i Bağanıs-Ayrım soyqırımı, 9-u Meşəli soyqırımı, 47-i Kərkicahan soyqırımı, 35-i əsir və girov götürülmüş şəxslərə qarşı işgəncə, 3-ü terrorçuluq cinayətləri, 85-i digər epizodlar və 57-i ümumi cinayətlər kateqoriyasına aid banditizm, qəsdən adam öldürmə və sair cinayətlər üzrə olmaqla, ümumilikdə 305 şəxsin Azərbaycan Respublikası CM-nin 103, 107, 113, 115, 116, 120, 214 və digər maddələrində nəzərdə tutulan cinayətləri törətmələri sübuta yetirildiyindən, onların müvafiq maddələrlə təqsirləndirilən şəxs qismində cəlb edilmələrinə dair qərarlar qəbul edilmiş, barələrində məhkəmə qərarlarına əsasən həbs qətimkan tədbiri seçilmiş, onlardan 2 nəfər tutularaq barələrindəki cinayət işinin istintaqı başa çatdırılmaqla məhkəmə məsuliyyətinə verilmiş, digərlərinin isə axtarışlarının təmin edilməsi üçün müvafiq sənədlər İnterpolun Azərbaycan Respublikasındakı Milli Bürosuna və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinə göndərilmişdir. Hazırda hərtərəfli istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Yeri gəlmişkən qeyd olunmalıdır ki, qanunsuz erməni silahlı birləşmələri tərəfindən törədilən cinayətlərin istintaqı zamanı aşkar edilmiş fakt və sübutların, xalqımızın tarixi torpaqlarından zorla çıxarılması üçün həyata keçirilmiş deportasiya siyasətinin, azərbaycanlılara qarşı xüsusi amansızlıqla və qəddarlıqla törədilən kütləvi qırğınların tarixin yaddaşına həkk olunması, obyektiv həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, bu barədə gələcək nəsillərin ixtiyarına tutarlı dəlillərin və ətraflı məlumatların verilməsi, gənclərin və hərbi qulluqçuların hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi, Ulu öndər Heydər Əliyev tərəfindən 26 mart 1998-ci il tarixdə imzalanmış «Azərbaycanlıların soyqırımı haqqında» fərman və «Xocalı soyqırımının 20-ci ildönümü haqqında» Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2012-ci il tarixli sərəncamı ilə qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi məqsədilə, qısa müddətdə toplanmış zəngin tarixi sənədlər, faktlar və istintaq materialları əsasında, Hərbi prokurorun təşəbbüsü ilə Azərbaycan Respublikasının Baş prokuroru cənab Zakir Qaralovun müvafiq əmri əsasında Hərbi Prokurorluğun mərkəzi aparatının inzibati binasında 24 fevral 2014-cü il tarixdə açılışı olmuş Memorial Soyqırımı Muzeyi yaradılmışdır. Yaradıldığı vaxtdan hazıradək muzey xarici vətəndaşlar da daxil olmaqla 20.000 nəfərə yaxın şəxs tərəfindən ziyarət edilmiş, ziyarətçilərə ətraflı məlumatların verilməsi təmin olunmuşdur. Bundan başqa, Azərbaycan Respublikasının Hərbi Prokurorluğu ilə Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun birgə layihəsi olan "Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları" və "Soyqırımı muzeyi" kitablarının nəşr edilməsi təmin edilmişdir. Qeyd olunanlarla bərabər, iş materialları əsasında Xocalı soyqırımına dair "Əsrin faciəsi" filmi çəkilmiş, ingilis dilinə dublyaj olunmuş, həmçinin soyqırımına dair şəkillər toplanılaraq vahid diskdə cəmləşdirilmişdir.

## Prokurorluğa dövlət qayğısı

Hakimiyyətdə olduğu bütün dövrlərdə prokurorluğa böyük dəstək, yüksək diqqət və xüsusi qayğı göstərmiş ümummilli lider Heydər Əliyev deyirdi:

"...Əsas məqsədimiz-prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır. Azərbaycan prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır....". Qısa zaman ərzində bu dəyərli sözlər reallığa çevrilməklə davamlı xarakter aldı.

Hər kəsə, o cümlədən bütün prokurorluq işçilərinə məlumdur ki, Azərbaycan prokurorluğunun dövlətçiliyin maraqlarına, qanunun aliliyinin, insan və vətəndaş hüquqlarının müdafiəsinə xidmət edən sivil və demokratik bir qurum kimi formalaşması, eləcə də onun fəaliyyətinin hərtərəfli və müasir tələblərə uyğun təminatı üçün hüquqi, maddi və sosial bazanın yaradılması ölkəmizdə həyata keçirilən möhtəşəm islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının banisi ümummilli lider Heydər Əliyevin xüsusi qayğı və dəstəyi sayəsində mümkün olmuşdur.

Azərbaycan Prokurorluğu 80 il ərzində dövlətin etibarlı sütunlarından biri kimi fəaliyyət göstərsə də, prokurorluq işçilərinin peşə bayramının qeyd edilməsinə dövlət tərəfindən heç bir təşəbbüs göstərilməmiş, bununla əlaqədar hər hansı rəsmi tədbir görülməmişdir. Böyük fəxarət hissi ilə qeyd olunmalıdır ki, ulu öndər Heydər Əliyevin imzaladığı 17 iyul 1998-ci il tarixli Sərəncam ilə "1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı günü"nün təsis edilməsi tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğa dövlət qayğısının ifadəsi, prokurorluğun roluna rəsmi münasibətin dövlət səviyyəsində təzahürü olmuşdur. Dahi lider Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"nin qəbul edilməsi və onun icraya yönəl-

dilməsi Azərbaycan Respublikası Prokurorluğunda aparılan islahatların ən böyük uğurlarından olmaqla, prokurorluğun kadr tərkibinin yenidən formalaşdırılması kimi mühüm məsələnin əsasını təşkil etmişdir. Prokurorluq orqanlarına işə qəbulun demokratik prinsiplər əsasında, şəffaf prosedurlarla müsabiqə yolu ilə həyata keçirilməsinin nəticəsində prokurorluğun kadr tərkibinin hərtərəfli inkişaf etmiş, yüksək mənəvi keyfiyyətlərə və dərin biliyə malik, geniş dünyagörüşü olan, vətənpərvər, dövlətçilik prinsiplərinə sadiq gənc hüquqşünaslardan formalaşmasına və mütəmadi olaraq yenilənməsinə nail olunmuşdur. Ümummilli liderin prokurorluq işçilərinin rifahına xidmət edən "Azərbaycan Respublikası Prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 8 oktyabr 2002-ci il tarixli sərəncamı prokurorluq işçiləri tərəfindən razılıqla qarşılanmış, onlarda böyük ruh yüksəkliyi yaratmışdır.

Qürur doğuran haldır ki, Azərbaycana ümummilli lider Heydər Əliyevin zəngin dövlət idarəçiliyi təcrübəsinin əsaslarını dərindən mənimsəmiş, xalqına xidməti həyat amalına çevirmiş və ulu öndər siyasətinə sadiqliyini öz müstəsna xidmətləri ilə əyani şəkildə sübuta yetirmiş İlham Əliyev kimi müdrik lider, qətiyyətli şəxsiyyət və hərtərəfli biliklərə malik siyasətçi rəhbərlik edir. Uzaqgörən strateji inkişaf kursunu yeni müstəvidə zənginləşdirməklə müasir dövrün tələblərinə uyğun şəkildə reallaşdıran möhtərəm Prezidentimiz İlham Əliyev təvazökarlığı, sadəliyi və əməli fəaliyyəti ilə xalqın sonsuz rəğbətini qazanmışdır.

Prezident İlham Əliyevin mükəmməl elmi biliyi, uzaqgörən düşüncəsi, möhkəm siyasi iradəsi, sarsılmaz qətiyyəti, peşəkar idarəçilik qabiliyyəti və misilsiz xidmətləri sayəsində bu gün Azərbaycan dünyada böyük nüfuz qazanaraq ən qüdrətli dövlətlər sırasında özünəməxsus yerini müəyyən etməklə əsl söz sahibinə çevrilmişdir. Sözsüz ki, ölkəmizin əldə etdiyi möhtəşəm uğurlarda yüksək erudisiyaya və zəngin idarəçilik qabiliyyətinə malik olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın da müstəsna rolu vardır. Onun, ölkəmizdə təhsilin, elmin, mədəniyyətin, səhiyyənin, idmanın və digər sahələrin inkişafında xidmətləri, milli-mənəvi dəyərlərin qorunması və dünyada geniş təbliği istiqamətində gördüyü mühüm işlər, sadalamaqla bitməyən çoxşaxəli zəngin fəaliyyəti dövlətçiliyimizin qüdrətlənməsinə töhfələr verməkdə davam edir. Mehriban xanım Əliyevanın tükənməz xeyirxah əməlləri, davranışı, mənsub olduğu xalqın milli-mənəvi dəyərlərinə sadiqliyi, millətinə, dövlətinə sədaqəti və əsl azərbaycanlı xanıma xas digər nümunəvi xüsusiyyətləri ona Azərbaycan xalqının sonsuz məhəbbətini qazandırmışdır.

Dərin minnətdarlıq hissi ilə xüsusi vurğulanmalıdır ki, əsası müasir Azərbaycanın qurucusu Heydər Əliyev tərəfindən qoyulan bütün hüquq mühafizə orqanlarına, o cümlədən prokurorluğa hərtərəfli diqqət və dövlət qayğısı göstərilməsi ənənəsi bu gün də, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" da bu qayğının bariz təzahürü olmuşdur. Azərbaycan Prokurorluğunun tarixində inkişafın, təkmilləşmənin və hərtərəfli müasirləşdirmənin təməlini qoyan bu proqramda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi, hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, fəaliyyətinin daha səmərəli təşkili, digər hüquq mühafizə orqanları ilə əlaqələrin genişləndirilməsi, eləcə də, prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üçün hərtərəfli zəmin yaratdı ki, bu da prokurorluq işçilərində özünəgüvən hissini bir qədər də artırdı.

Müdrik lider cənab İlham Əliyevin mütəmadi olaraq verdiyi səmərəli tövsiyələr və dəyərli göstərişlər əsasında Azərbaycan Respublikası Prokurorluğu orqanlarında yeni müstəvidə və yüksək intensivliklə davam etdirilən hərtərəfli islahatlar nəticəsində prokurorluğun fəaliyyətinin təkmilləşməsi və bunun üçün zəruri normativ-hüquqi bazanın yaradılması, kadrların seçilməsinin yeni mütərəqqi formalarının tətbiqi təmin edilmiş, dövlətçiliyin, milli maraqların, insan hüquq və azadlıqlarının etibarlı qorunması, cinayətkarlığa qarşı mübarizə yüksək səviyyədə təşkil olunmuşdur.

Dövlətimizin prokurorluğun çətin və şərəfli işini, həmçinin dövlətçiliyə olan sədaqətini dəyərləndirməklə, onun fəaliyyətinə yüksək qiymət verməsi hər bir prokurorluq işçisini qürurlandırmaqla bərabər, onların üzərinə daha böyük məsuliyyət qoyur. Odur ki, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun kollektivi öz fəaliyyətində daim ümummilli lider Heydər Əliyevin ali ideyalarını və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin idarəçilik prinsiplərini rəhbər tutmaqla, qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərini tələb edilən səviyyədə həyata keçirməklə Silahlı Qüvvələrdə qanunçuluğun və hərbi intizamın daha da möhkəmləndirilməsinə çalışır və bu istiqamətdə tələbkarlığı daim artırır.

**Xanlar Vəliyev,**
**Azərbaycan Respublikası Baş prokurorunun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı**
"Xalq" qəzeti, 30 sentyabr 2018-ci il

# 100 illik yubileyini qeyd edən Azərbaycan Prokurorluğu ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi və xüsusi diqqət, qayğısı ilə böyük inkişaf yolu keçmişdir

*"Azərbaycan Prokurorluğu bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olaraq, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və Azərbaycanda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini göstərəcəkdir"*

**Ümummilli lider Heydər Əliyev**

Şərqdə ilk demokratik, hüquqi və dünyəvi Respublika olmuş Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanın təsis edilməsi ilə əsası qoyulan və bu gün Respublikamızın hüquq sistemində xüsusi rolu olan Milli Azərbaycan Prokurorluğunun 100 illik yubileyi qeyd edilir.

Xalq Cümhuriyyəti dövründə Məhkəmə palatası yanındakı Prokuror Nəzarətinin hakimiyyəti Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilmiş, prokurorluq cinayət prosesində ittihamı müdafiə və məhkəmə orqanlarında qanunların düzgün tətbiqinə nəzarət funksiyalarını həyata keçirmiş, çətin və mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq insan və vətəndaş hüquq və azadlıqlarının qorunması və cinayətkarlığa qarşı mübarizə sahəsində üzərinə düşən vəzifələri uğurla yerinə yetirmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti süquta yetirildikdən sonra sovet hakimiyyətinin ilk dövrlərində xüsusi dövlət orqanı olan Azərbaycan SSRİ sovet prokurorluğunun əsası qoyulmuşdur. Həmin illərdə prokurorluq orqanları bolşevik-totalitar rejimin təsirlərinə məruz qalmış, ağır repressiya illərində milli düşüncə və əqidələrinə görə onlarca prokurorluq işçisi əsassız mühakimə edilərək güllələnmiş, sürgün edilmiş və digər təqiblərə məruz qalmışdır.

Böyük vətən müharibəsi illərində prokurorluq orqanları fərariliklə mübarizə, cəbhəyə yardım və arxa cəbhənin möhkəmləndirilməsi, hərbi məhsulların tədarükü haqqında qanunların icrasının təmin edilməsi üçün fədakarlıqla fəaliyyət göstərmiş, yüzlərlə prokurorluq əməkdaşı döyüşən orduya səfərbər olunmuş, onlardan çoxu döyüşlərdə həlak olmuş, bir çoxu isə orden və medallarla təltif olunmuşlar.

1969-cu ildə ulu öndər Heydər Əliyevin Azərbaycan SSRİ-nin birinci katibi kimi hakimiyyətə gəlişi ilə o dövrdə digər ittifaq ölkələrindən bütün göstəriciləri ilə geridə qalan Respublikamızda həyatın bütün sahələrində başlanan inkişaf prokurorluq orqanlarını da əhatə etmiş, digər hüquq-mühafizə orqanları kimi prokurorluq orqanlarının da fəaliyyətində keyfiyyətcə yeni mərhələ başlanmış, cəmiyyətdə qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsi sahəsində prinsipial addımlar atılmışdır.

Ulu öndərin rəhbərliyi altında prokurorluq orqanlarının digər hüquq-mühafizə orqanları ilə birgə fəaliyyəti nəticəsində o dövrdə vüsət almış korrupsiya və rüşvətxorluğa qarşı ciddi mübarizə aparılmış, korrupsiyaya qurşanmış şəxslər cinayət məsuliyyətinə cəlb olunmuş, qanunçuluq, hüquq qaydalarının möhkəmləndirilməsi və qanunun aliliyi təmin edilmişdir. Məhz Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə nəhəng imperiyada ilk dəfə respublikamızda rüşvətxorluğa və korrupsiyaya qarşı ciddi mübarizə tədbirləri həyata keçirilmişdir. Həyata keçirilən tədbirlər sayəsində prokurorluq xalqın inam və etibarını qazanan dövlət orqanına çevrilmişdir.

Qeyd olunmalıdır ki, həm keçmiş SSRİ dövründə, həm də müstəqillik əldə edildikdən sonrakı dövrdə xalqımızın ümummilli lideri Heydər Əliyev xalqına, vətəninə sonsuz məhəbbətlə bağlı olduğunu əvəzolunmaz xidmətləri ilə sübut etmişdir. Heydər Əliyev bütün fəaliyyəti dövründə qanunların aliliyi, hüququn üstünlüyü, insan hüquq və azadlıqlarına hörmət prinsiplərini əsas tutmuşdur. "Qanunun aliliyi təmin edilməlidir və hər bir vətəndaş qanuna tabe olmalıdır. Biz öz tərəfimizdən qanunun aliliyini

təmin etməyə çalışacağıq və hər bir vətəndaşı qanuna tabe olmağa dəvət edirəm" deyən ümummilli liderimiz qanunçuluğun qorunmasını dövlətçiliyin başlıca məqsədinə çevirmiş, cinayətkarlığa qarşı mübarizə və hüquq qaydalarının möhkəmləndirilməsi onun dövlət quruculuğu siyasətinin vacib hissəsi olmuşdur.

1993-cü il iyunun 15-də ulu öndərimizin ölkə rəhbərliyinə qayıdışı ilə müstəqil respublikamızda vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu proseslərinin yeni mərhələsi başlandı. Son dərəcə çətin, ziddiyyətli və mürəkkəb siyasi şəraitdə ilk növbədə vətəndaş müharibəsi təhlükəsini aradan qaldıran ümumilli liderimiz ölkədə hökm sürən özbaşınalığa son qoydu. Ölkədə bəzi şəxslərin əlində olan müxtəlif silahlı birləşmələr Müdafiə Nazirliyinin tabeliyinə verilərək vahid komandanlıq altında birləşdirildi. Xalqın böyük dəstəyi, ulu öndər Heydər Əliyevin qətiyyəti və düzgün qərarları əsasında dövlət çevrilişinə cəhdlərin qarşısı məharətlə alındı, məhz onun rəhbərliyi altında prokurorluq və digər hüquq-mühafizə orqanlarının fəaliyyəti nəticəsində dövlətçilik üçün təhlükə törədən mütəşəkkil cinayətkar qruplar, o cümlədən qanunsuz silahlı birləşmələr yaradan şəxslər zərərsizləşdirildi, qanunsuz silahlı dəstələr tərəfindən törədilən cinayətlərin üstü açıldı, cinayətkarların cinayət məsuliyyətinə cəlb edilmələri təmin edildi.

Beləliklə, ümumilli liderimizin zəngin dövlətçilik təcrübəsi, güclü siyasi iradəsi və ağır zəhməti sayəsində Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət yaradıldı, möhkəm ictimai-siyasi sabitlik bərqərar olundu, eyni zamanda, milli dövlətçilik ənənələrinə və beynəlxalq standartlara uyğun köklü hüquqi islahatlara başlandı. Vətənin müstəqilliyi, xalqın azadlığı naminə yorulmaz fəaliyyət göstərən ulu öndərimiz "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, daimidir və dönməzdir" deyə bəyan edərək Azərbaycanı tərəqqi yoluna çıxartdı.

Ümumilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə demokratik meyarlar, beynəlxalq prinsip və milli xüsusiyyətləri özündə birləşdirən, 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi-referendum yolu ilə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyası ən yüksək hüquqi qüvvəyə malik olmaqla hüquq sisteminin əsasını təşkil etmişdir. Konstitusiyamızda dövlət quruluşu sistemində prokurorluğun layiqli yeri müəyyənləşdirildi, məhkəmə hakimiyyəti sisteminə daxil olan prokurorluq orqanlarının statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri təsbit edildi. Beləliklə, xalqına və dövlətinə on illiklər boyu xidmət edən, konstitusion statusa malik, ölkənin hüquq sistemində vacib rolu olan və demokratik cəmiyyətdə özünəməxsus yer tutan Azərbaycan Prokurorluğu sivil bir orqan kimi yeni inkişaf mərhələsinə uyğun formalaşmağa başladı.

Prokurorluq orqanlarına xüsusi diqqət göstərən ümummilli liderimizin 17 iyul 1998-ci il tarixli sərəncamına əsasən hər il oktyabr ayının 1-nin prokurorluq işçilərinin peşə bayramı kimi təsis edilməsi prokurorluq əməkdaşlarının fəaliyyətinə layiqincə qiymət verilməsinin təzahürü olmaqla onun prokurorluğa böyük qayğısının ifadəsidir. Heç də təsadüfi deyil ki, böyük dövlət xadiminin təşəbbüsü və rəhbərliyi ilə 28 noyabr 1998-ci il tarixdə keçirilmiş Azərbaycan Prokurorluğu orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda dərin məzmunlu nitq söyləyən ulu öndər Heydər Əliyev demişdir: "İlk dəfədir ki, Azərbaycanda prokurorluğa belə diqqət və qayğı göstərilir və prokurorluq günü, prokurorların peşə bayramı müəyyən olunubdur. Hesab edirəm ki, müstəqil Azərbaycan Prokurorluğu və prokurorluq orqanlarının əməkdaşları belə bir bayrama layiqdirlər".

Konstitusiyada təsbit edilmiş müddəalar əsasında prokurorluq orqanlarının fəaliyyətini tənzimləyən 7 dekabr 1999-cu il tarixdə qüvvəyə minmiş "Prokurorluq haqqında" Qanunun müstəsna əhəmiyyəti də xüsusi olaraq vurğulanmalıdır. Qanunla nəzərdə tutulmuş qaydada cinayət işi başlamaq, ibtidai istintaq aparmaq, cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik və qanunlara riayət edilməsini təmin etmək, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icra və tətbiqinə nəzarət etmək, məhkəmədə iddia qaldırmaq, cinayət işlərinə baxılmasında dövlət ittihamçısı kimi iştirak, dövlət ittihamının müdafiəsi, məhkəmə qərarlarından və inzibati xəta haqqında iş üzrə qərardan protest vermək, inzibati xəta haqqında iş üzrə icraata başlamaq haqqında qərar qəbul etmək, habelə məhkəmə tərəfindən təyin olunmuş cəzaların məqsədinə nail olunmasında iştirak etmək prokurorluğun əsas fəaliyyət istiqamətləri, qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi, hüquq və azadlıqlara əməl və hörmət edilməsi, obyektivlik, qərəzsizlik, faktlara əsaslanma, vahidlik və mərkəzləşdirmə, ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikası Baş prokuroruna tabe olması və siyasi bitərəflik əsas prinsipləri kimi bu mütərəqqi ruhlu Qanunda təsbit edilməklə prokurorluğun fəaliyyətinin

forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması təmin edilmişdir.

Ulu öndər Heydər Əliyev prokurorluq işçilərinin sosial müdafiəsi və maddi təminatına da xüsusi diqqət göstərmiş, 29 iyun 2001-ci il tarixdə qəbul edilmiş "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunda prokurorluq işçiləri üçün yüksək maddi və sosial təminatı nəzərdə tutan müddəaların təsbit edilməsi, "Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 8 oktyabr 2002-ci il tarixli sərəncamla prokurorluq əməkdaşlarının əmək haqlarının əhəmiyyətli dərəcədə artırılması və sosial təminatlarının digər əsaslarının yüksək səviyyədə yaxşılaşdırılması prokurorluq işçilərinə Heydər Əliyev qayğısının növbəti təzahürü olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin respublika prokurorluğunun rəhbər işçiləri ilə 26 aprel 2000-ci ildə keçirdiyi görüşdə verdiyi tövsiyə və tapşırıqlar əsasında həyata keçirilən tədbirlər bu orqanda neqativ təzahürlərin aradan qaldırılmasına, müasir tələblərə cavab verən, yüksək nəzəri-təcrübi hazırlığı olan kadr korpusunun formalaşdırılmasına, cinayətkarlığa qarşı mübarizənin, insan hüquq və azadlıqlarının müdafiəsi işinin zəruri tələblər səviyyəsində qurulmasına səbəb olmuşdur. Həmin tarixi tədbirdə ulu öndərimizin proqram xarakterli çıxışı prokurorluqda həyata keçirilən demokratik məzmunlu hərtərəfli islahatların əsasını təşkil etmişdir. Dahi şəxsiyyətin həmin çıxışında səsləndirdiyi "Azərbaycan Prokurorluğunda ciddi təmizləmə getməlidir. Azərbaycan Prokurorluğunda sağlam mənəvi mühit yaratmaq lazımdır. Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir." tövsiyələri hər bir prokurorluq əməkdaşının məsuliyyətini daha da artırmış, həyat və fəaliyyət meyarına çevrilmişdir.

Eyni zamanda, Ümumilli liderimizin həmin tövsiyə və tapşırıqları əsasında prokurorluğun kadr tərkibinin sağlamlaşdırılması, xidməti fəaliyyətlərində qanunsuzluq halları və prokurorluq işçisi adına ləkə gətirən mənəvi və iş keyfiyyətlərinə görə prokurorluqda işləməyə layiq olmayan əməkdaşlardan təmizlənməsi təmin edilmiş, prokurorluq orqanlarında yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması prosesi dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşə, yüksək nəzəri biliklərə malik gənc hüquqşünaslar hesabına, obyektivlik və ədalətlilik meyarları əsasında həyata keçirilmişdir. Azərbaycan Respublikası prezidenti tərəfindən təsdiq edilmiş 19 iyun 2001-ci il tarixli "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi qaydaları haqqında" Əsasnamə əsasında 2002-ci ildən etibarən prokurorluğa işə qəbul şəffaf və ədalətli müsabiqələr yolu ilə aparılır.

Ölkəmizdə dövlət quruculuğu prosesinin dərinləşməsi prokurorluğun cəmiyyətdə və idarəçilik sistemində rolunu daha da artırmaq zərurəti yaratmışdı. Bu baxımdan 2002-ci ilin sentyabr ayının 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən prokurorluğa həm də qanunvericilik təşəbbüsü hüququnun verilməsi ulu öndər Heydər Əliyevin prokurorluğa və onun dövlətçiliyimizin inkişafı istiqamətində fəaliyyətinə verdiyi yüksək dəyərin təzahürüdür.

Ümummilli liderin müəyyən etdiyi strateji inkişaf konsepsiyasını yeni müstəvidə uğurla reallaşdıran Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə və həyata keçirdiyi dövlət gənclər siyasətinin tələblərinə uyğun olaraq prokurorluğun kadr korpusunun yeniləşdirilməsi şəffaf prosedurlar əsasında intensiv olaraq davam etdirilir. Dövlət başçısının gənclərin əməyindən geniş istifadə olunması barədə göstərişlərinin icrası nəticəsində yüzlərlə gənc hüquqşünasın prokurorluq orqanlarında işə qəbul olunması Respublikamızda sosialyönümlü dövlət siyasətinin əsas istiqamətlərindən biridir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 27 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" prokurorluq orqanlarının hərtərəfli müasirləşməsi və işinin yeni müstəvidə qurulması baxımından müstəsna əhəmiyyət daşımışdır. Bu proqram ölkənin hüquq sistemində prokurorluğun rolunun artırılması, digər hüquq-mühafizə orqanları ilə əlaqəli fəaliyyətin təkmilləşdirilməsi, bütün istiqamətlər üzrə işin səmərəliliyin yüksəldilməsi, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, beynəlxalq əlaqələrin genişləndirilməsi, prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması istiqamətində konkret tədbirlərin həyata keçirilməsi ilə nəticələnmişdir.

Ulu öndərimizin layiqli davamçısı cənab preziden-

timiz İlham Əliyev Azərbaycan Prokurorluğuna xüsusi diqqət göstərməklə prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı qarşıda duran vəzifələri müəyyənləşdirərək demişdir: "Əsas məqsədimiz-prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının yetişdirilməsidir. Əminəm ki, Azərbaycan Respublikası Prokurorluğu bu məqsədə çatmaq üçün səylərini davam etdirəcək və qarşısında qoyulan vəzifələri layiqincə yerinə yetirəcəkdir".

Dövlətimiz tərəfindən prokurorluq orqanlarına göstərilən diqqət və qayğıdan məxsusi payını almış Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu da bu illər ərzində böyük inkişaf yolu keçmişdir. 01 fevral 2007-ci il və 20 oktyabr 2009-cu il tarixli Azərbaycan Respublikasının Qanunları ilə "Prokurorluq haqqında" və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunlara edilmiş əlavələrə əsasən həmin dövrədək adi ixtisaslaşdırılmış hərbi prokurorluq kimi fəaliyyət göstərən Naxçıvan Hərbi Prokurorluğuna Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu statusu verilməklə Azərbaycan Respublikası Prokurorluğu sisteminə ayrıca qurum kimi daxil edilmiş, Naxçıvan Muxtar Respublikası Hərbi prokuroru Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kollegiyasının tərkibinə daxil edilmiş, Prokurorluğun strukturu və səlahiyyət dairəsi müəyyənləşdirilmiş, şöbələr və digər struktur qurumların yaradılmasının mümkünlüyü təsbit olunmaqla Naxçıvan Muxtar Respublikası Hərbi prokuroruna Prokurorluğun işçilərinin vəzifəyə təyin olunması və vəzifədən azad edilməsi barədə Azərbaycan Respublikası Baş prokuroruna təqdimat verməsi, prokurorluq əməkdaşlarına ilk hərbi rütbə verildikdən sonra ədliyyə mayoru rütbəsi də daxil olmaqla növbəti hərbi rütbələrin verilməsi, Silahlı Qüvvələrin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hərbi birləşmələrində əmlakın talanması, hərbi xidmət əleyhinə və hərbi qulluqçular tərəfindən hazırlanan və törədilən digər cinayətlər barədə daxil olmuş məlumatlar əsasında yoxlamalar aparılması kimi səlahiyyətlər verilmiş və vəzifə təsnifatları yüksəldilmişdir.

Azərbaycan Respublikası Baş prokurorunun 21 noyabr 2007-ci il tarixli əmrinə əsasən Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun yeni strukturu və ştat tərkibi müəyyən edilməklə tərkibində İstintaq şöbəsi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hərbi birləşmələrdə Təhqiqat orqanları və əsgər dustaqxanalarında qanunların icrasına nəzarət şöbəsi, Dövlət ittihamının müdafiəsi üzrə şöbə və maddi-texniki təminat xidməti yaradılmış, ştat sayı üç dəfəyə yaxın artırılmışdır. Gösərilən yüksək dövlət qayğısı nəticəsində Prokurorluğa müasir memarlıq üslubunda inşa edilmiş 6 mərtəbədən ibarət yeni inzibati bina 2014-cü il aprel ayının 7-də Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən təntənəli açılışı edilərək Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun əməkdaşlarının istifadəsinə verilmişdir.

Dövlət qayğısı nəticəsində Prokurorluğun xidmətdə fərqlənən əməkdaşlarına medallar və məharət dərəcələri verilmişdir. Bütün bunlar əməkdaşları xidməti vəzifələrinin icrasına vicdanla münasibət bəsləməklə qanunların aliliyinin təmin olunması uğrunda daim barışmaz və prinsipial mübarizə aparmağa böyük stimul yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun hərbi qurumlarla qarşılıqlı, sağlam, işgüzar əlaqələr yaradaraq orduda nizam-intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin və digər neqativ halların qarşısının alınması istiqamətində məqsədyönlü, qabaqlayıcı profilaktik tədbirlər aparması nəticəsində cinayətlərin dinamika və strukturunda müsbət dəyişikliklərə nail olunmuşdur. Belə ki, Prokurorluğun əməkdaşları tərəfindən Silahlı Qüvvələrin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hərbi birləşmələrində cinayət və digər qanun pozuntularının qarşısının alınması istiqamətində ciddi mübarizə tədbirlərinin görülməsi nəticəsində əvvəlki illərlə müqayisədə qeydə alınmış cinayətlərin, o cümlədən ağır və xüsusilə ağır cinayətlərin sayı dəfələrlə azalmış, törədilən cinayətlərin vaxtında və isti izlərlə açılması tam təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu bundan sonra da ulu öndər Heydər Əliyev ideyalarına sədaqət nümayiş etdirərək ordumuzda qanunçuluğun və nizam-intizamın möhkəmləndirilməsi sahəsində fəaliyyətini daim gücləndirəcək, insan hüquq və azadlıqlarının pozulması hallarına və cinayətkarlığa qarşı barışmaz mövqe tutmaqla qanunla üzərinə qoyulmuş bütün vəzifələri layiqincə yerinə yetirməyə çalışacaqdır.

**Yaşar Həsənov,**
**Naxçıvan Muxtar Respublikasının Hərbi prokuroru**
**ədliyyə general-mayoru**

# Dövlətçiliyin və qanunçuluğun keşiyində

*Bu il may ayının 28-də müsəlman Şərqində ilk demokratik və parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam oldu. 100 il əvvəl cümhuriyyətin elan edilməsi imperiya əsarətində ağır məşəqqətlərə məruz qalmış xalqımızın milli azadlıq mübarizəsinin qanunauyğun nəticəsi, dərin tarixi kökləri olan milli dövlətçilik ənənələrimizin davamı idi.*

**Tariximizə ehtiramın nümunəsi**

Tarixə nəzər salanda 1918-ci ildə Azərbaycanı müstəqilliyə aparan yolların heç də asan və hamar olmadığı aydın görünür. Amma ömrü boyu xalqının işıqlı sabahını düşünərək bütün həyatını bu müqəddəs amala həsr edən, müstəqil dövlətçilik ideyasını gerçəkləşdirmək arzusu ilə alışıb yanan, yazdığı məqalələrdə, ictimai və siyasi fəaliyyətində bu hislərini fəxarətlə büruzə verən vətənpərvər insanların yorulmaz səyləri nəticəsində müstəqilliyə aparan yollardakı maneələr dəf edildi. Məhz o insanların müstəqil dövlətçiliyin bərpa olunmasına xidmət edən əqidə və məslək birliyi son nəticədə öz sözünü dedi və 1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən "İstiqlal Bəyannaməsi" qəbul edildi.

Prezident İlham Əliyevin hələ ötən il may ayının 16-da imzaladığı "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" sərəncamına əsasən Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş qeyd edilməkdədir.

Nazirlər Kabinetinin bu il yanvarın 10-da keçirilən iclasında isə Prezident İlham Əliyev 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etdi və müvafiq sərəncam imzaladı. Hər kəs bu sərəncamı ölkə rəhbərinin milli dövlətçilik tariximizə olan xüsusi diqqəti və ehtiramı kimi dəyərləndirir və təşəkkürünü ifadə edir. Prezident İlham Əliyevin ötən 15 illik fəaliyyətində diqqəti çəkən məqamlardan biri dövlətçilik tariximizin öyrənilməsi, araşdırılması və gələcək nəsillərə çatdırılmasıdır. Bu sırada Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı görülən işlər xüsusi qeyd edilməlidir. Tarixçilərə bu istiqamətdə verilən göstərişlərlə yanaşı, Bakıda "İstiqlal Bəyannaməsi" abidəsinin ucaldılması, hər il Respublika Gününə həsr olunmuş qəbulun keçirilməsi Prezident İlham Əliyevin tariximizə, dövlətçilik irsimizə olan böyük ehtiramının göstəricisidir.

Prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasında bu barədə söylədiyi fikirlər xalqımıza, onun tarixinə və bugününə verilən ən gözəl dəyərdir: "Bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq".

Təəssüf ki, 1920-ci ilin aprelində yaranmış tarixi şərait xalqımıza istiqlal mücadiləsini sonadək davam etdirməyə imkan verməmişdir. Lakin qarşısına müstəqil, azad və demokratik respublika qurmaq kimi şərəfli vəzifə qoymuş ilk milli hökumətimiz cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu əyani şəkildə bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, onun şüurlara aşılamış olduğu müstəqillik ideyaları, bütün məhrumiyyətlərə baxmayaraq, xalqımızın yaddaşından heç vaxt silinmədi. Azərbaycanın dövlətçilik tarixində bu varislik ənənəsini xalqımız cümhuriyyətin süqutundan sonrakı 70 illik sovet hakimiyyəti dövründə də qəlbində və şüurunda yaşatmışdır.

Ötən əsrin 70 ili ərzində Azərbaycanda mövcud olan dövlət quruluşunun da xalqımızın milli-mədəni tərəqqisində özünəməxsus rolu inkar edilə bilməz. Tarixçilərin və politoloqların haqlı olaraq "ikinci respublika" adlandırdıqları, formal müstəqilliyə malik həmin dövlətin, xüsusən 1969-1982-ci illərdəki nailiyyətləri yaxın tariximizin səhifələrinə pozulmaz sətirlərlə yazılmışdır. Əlbəttə, bu nailiyyətlər Heydər Əliyevin möhtəşəm və çoxşaxəli fəaliyyəti ilə bağlıdır. Respublikamıza rəhbərlik etdiyi həmin dövrdə Heydər Əliyev Azərbaycanın təkcə keçmiş İttifaqda deyil, hətta dünya miqyasında tanınmasına, nüfuz qazanmasına nail olub. Bu dövrdə sosial-iqtisadi, mədəni həyatımızın bütün sahələrində baş verən yüksəlişin, sürətli inkişafın milli dövlətçilik baxımından əhəmiyyəti misilsizdir. Hazırda yeni, müstəqil Azərbaycanın iqtisadi yüksəlişində baza rolunu oynayan sənaye və kadr potensialı ulu öndər Heydər Əliyevin o illərdəki məq-

sədyönlü, düşünülmüş, uzaqgörən fəaliyyəti sayəsində təşəkkül taparaq formalaşıb.

Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikamızda uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsinə və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı. Bu dövrdə xalqımızın sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində baş verən yüksəlişin, sürətli inkişafın milli dövlətçilik ideallarının bərpası və gələcək müstəqillik baxımından əhəmiyyəti misilsiz idi.

Üçrəngli bayrağımızın da Heydər Əliyevin təşəbbüsü ilə hələ sovet hakimiyyətinin mövcud olduğu 1990-cı ilin noyabrında Naxçıvan MR-in dövlət bayrağı olması barədə qərarın qəbul edilməsi ulu öndərin müstəqillik ideallarına nə qədər bağlı olduğunu göstərirdi.

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyinin elan olunması Azərbaycanın yeni intibahının bünövrəsi demək idi. Xalqımız cümhuriyyətin dövlətçilik ənənələrini davam etdirərək bu tarixi varislik üzərində öz dövlətini yaratdı. O dövrü şərh edən ulu öndər Heydər Əliyev demişdir: "Əsrin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi olaraq Üzeyir Hacıbəyovun və Əhməd Cavadın yaratdıqları Dövlət himnini, Xalq Cümhuriyyətinin üçrəngli bayrağını və gerbini bərpa elədi. Bu dövlətçilik atributları bu gün də hər bir Azərbaycan vətəndaşı üçün olduqca əzizdir... Bu dövlət, bu quruluş 1918-ci ildə yaranmış ilk Xalq Cümhuriyyətinin varisidir".

1991-ci il oktyabrın 18-də "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsi ilə xalqımız yenidən istiqlalına qovuşmuşdur. Lakin həmin dövrdə hakimiyyət dairələrinin səbatsız və qətiyyətsiz adamların əlində olması milli dövlətçiliyimizin taleyini təhlükə altında qoymuşdu. Ölkədə yaranmış anarxiyadan cana doymuş, ən başlıcası isə müstəqilliyimizin itirilməsindən ehtiyatlanan xalqın çağırışı və təkidli tələbi ilə 1993-cü ilin iyununda yenidən siyasi hakimiyyətə qayıdan və dövlətçiliyimizin sükanını öz etibarlı əllərinə alan ümummilli lider Heydər Əliyev xilaskarlıq missiyasını müdrikliklə, yenilməz iradə, qətiyyət və böyük uzaqgörənliklə yerinə yetirməyə başladı. Bu gün cəsarətlə demək olar ki, əgər belə bir məqamda Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycan adlı məmləkət dünya xəritəsindən silinə bilərdi.

Heydər Əliyev xalqımıza əbədi müstəqillik bəxş etdi. Prezident İlham Əliyev isə öz uğurlu siyasəti ilə müstəqilliyimizi daha da möhkəmləndirir, sarsılmaz edir. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan heç vaxt indiki tək qüdrətli olmamışdır. Azərbaycanın regionun lider dövlətinə çevrilməsi, dünya birliyində söz sahibi kimi qəbul olunması məhz müstəqilliyimizin və müstəqil siyasətin bəhrəsidir.

Bu gün Azərbaycan dünyanın inkişaf edən ölkələri sırasında öncül yerlərdən birində dayanır. Təbii ki, bütün bunlar Azərbaycanın azad ölkə olmasının və yeritdiyi qətiyyətli, müstəqil siyasətin nəticəsidir. Prezident İlham Əliyev hər bir sahədə Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirir. Eyni zamanda dövlət başçısı xalqımızın zəngin dövlətçilik tarixinin, əzəmətli keçmişinin öyrənilməsi və dövlət müstəqilliyimizin geniş miqyasda təbliğ olunması kimi məsələləri hər zaman diqqət mərkəzində saxlayır. Bir neçə il öncə "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın dövlət qayğısı ilə yüksək səviyyədə nəşri, o cümlədən İrəvan xanlığının tarixinin araşdırılması barədə Prezidentin tapşırıqları bunun təsdiqidir. 28 may -Respublika Günü ərəfəsində hər il Prezident İlham Əliyevin adından rəsmi qəbullar təşkil olunur. Bakının mərkəzində cümhuriyyətə həsr olunmuş abidənin ucaldılması isə tariximizə və irsimizə verilən ən yüksək dəyərdir. Bu bir daha göstərir ki, Azərbaycan dövləti və cəmiyyəti öz tarixinə ən yüksək ehtiramı göstərir.

Cümhuriyyətin 23 aylıq fəaliyyəti onu göstərdi ki, müstəqilliyi əldə etmək kifayət deyil. Çalışıb onu daha da möhkəmləndirmək lazımdır. Bu gün Azərbaycan dövlətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirdiyi siyasət və qazanılan möhtəşəm nailiyyətlər əminliklə deməyə əsas verir ki, müstəqilliyimiz heç zaman itirilməyəcək.

### 100 yaşlı prokurorluq

Xalq Cümhuriyyətinin qurucularının imza atdığı "İstiqlal Bəyannaməsi"ndə Azərbaycanın hüquqi dövlət olması təsbit olunmuşdur. Təsadüfi deyil ki, cümhuriyyətin ömrü qısa olsa da, o illərdə Azərbaycanda hüquqi dövlət quruculuğu istiqamətində çox mühüm işlər həyata keçirildi. Bu sırada ölkənin hüquq-mühafizə orqanlarının və güc strukturlarının formalaşdırılması xüsusilə diqqəti cəlb edir. Elə buna görədir ki, bu il bir çox dövlət təsisatlarının yaranmasının 100-cü ildönümü tamam olur.

Müstəqil Azərbaycan dövlətində prokurorluq orqanlarının da tarixi Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra başlayır. Ölkəmizdə ilk prokurorluq orqanı isə Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində yaradılmaqla fəaliyyətə başlamışdı. Olduqca mürəkkəb və ağır şəraitdə fəaliyyət göstərən Xalq Cümhuriyyətinin Məhkəmə palatasında, Bakı və Gəncə dairə məhkəmələrinin tərkibində olan prokurorluq orqanları öz səlahiyyətləri imkanında böyük işlər görmüşdülər. Cümhuriyyətin dövlət xadimlərindən F.X.Xoyski, X.Xasməmmədov, A.Safikürdski, T.Makinski ilk müstəqil respublikamızın ədliyyə nazirləri, eyni zamanda baş prokurorları olmuşlar.

1920-ci il aprel ayının 28-də bolşevik işğalı nəticəsində Xalq Cümhuriyyəti süquta yetirildi və Azərbaycan Sovet Sosialist Respublikası elan edildi. Müstəqil dövlətçiliyimiz süquta yetirildikdən sonra dövlət orqanları ilə yanaşı, prokurorluq və istintaq orqanları da ləğv edildi. Bu, Azərbaycan İnqilab Komitəsinin 12 may 1920-ci il tarixli "Xalq məhkəməsi haqqında" dekreti ilə həyata keçirildi.

Bu dövrdə bütün hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət funksiyasını həyata keçirməli olan xüsusi orqanın yaradılması ehtiyacını nəzərə alaraq Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 11 iyul 1922-ci il tarixli "Azərbaycan SSR-in dövlət prokurorluğu haqqında" dekreti ilə Azərbaycan SSR-də sovet prokurorluğunun əsası qoyuldu. Sovet dövründə, 70 ilə yaxın müddətdə Azərbaycan Prokurorluğu Sovet İttifaqının dövlət siyasətini həyata keçirməsinə baxmayaraq, təşkilati cəhətdən mühüm dövlət strukturu kimi təşəkkül tapmış, milli kadrlarımız böyük təcrübə və yüksək peşə hazırlığı əldə etmişlər.

Əvvəldə qeyd edildiyi kimi, dövlət müstəqilliyimiz bərpa edildikdən sonra məlum səbəblərdən respublikamız müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Siyasi hakimiyyətin səbatsızlığı səriştəsiz idarəçilik, Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün doğurduğu siyasi-iqtisadi tənəzzül, separatist meyillərin güclənməsi gündən-günə Azərbaycanı yenidən əsarətə və parçalanmağa doğru aparırdı. Yaranmış cəzasızlıq şəraiti nəticəsində cinayətkarlıq görünməmiş vüsət almış, insanların hüquq və azadlıqlarının pozulması kütləvi hala çevrilmişdi.

Yalnız ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtmasından sonra həyata keçirilən təxirəsalınmaz və qətiyyətli tədbirlər nəticəsində ölkəmizdə dövlət çevrilişləri cəhdləri, vətəndaş müharibəsi və separatizm təhlükəsi aradan qaldırıldı, cinayətkarlığa qarşı barışmaz mübarizə elan edilməklə dayanıqlı ictimai-siyasi sabitlik təmin edildi, demokratik hüquqi dövlət quruculuğu prosesinə başlandı.

## Prokurorluqda fəaliyyətin keyfiyyətcə yeniləşməsinə yol açan islahatlar

Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətində həm də demokratik-hüquqi islahatların banisidir. Azərbaycan Prokurorluğunun dünya standartlarına uyğun, demokratik cəmiyyətdə özünəməxsus yeri olan və müasir tələblərə cavab verən orqan kimi formalaşması, dövlət idarəetməsində mühüm rola malik olması da ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin ölkəyə rəhbərliyə başlaması, demək olar ki, bütün sahələrdə islahatların başlanmasına səbəb oldu. Bir vaxtlar məhv olmuş, müasir tələblərə cavab verməyən hüquq sistemi də ulu öndərin hakimiyyətə gəlişindən sonra inkişaf yoluna qədəm qoydu, bu sahədə fəaliyyət göstərən dövlət təsisatları ən yüksək standartlara müvafiq şəkildə yenidən formalaşdırıldı. Təbii ki, islahatlar hüquq sisteminin aparıcı qolu olan prokurorluq orqanlarını da əhatə etdi. Qısa müddətdə Azərbaycanın prokurorluq orqanlarının tam yenidən qurulması təmin edildi. Prokurorluq fəaliyyətində qanunçuluğu, dövlətçiliyi, siyasi bitərəfliliyi, obyektivliyi və qərəzsizliyi rəhbər tutan nüfuzlu orqana çevrildi.

Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyası hakimiyyət bölgüsü prinsiplərini özündə ehtiva etməklə zamanın tələbi ilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və müasirləşməsinə ciddi təminat yaratdı. Bu mənada prokurorluq orqanlarının qanunçuluğun və hüquq normalarının etibarlı təminatı sahəsində nüfuzlu təsisata çevrilməsi, yenidən təkmilləşdirilərək fəaliyyətini yeni dövrün tələbləri səviyyəsində qurması məhz Heydər Əliyevin rəhbərliyi altında aparılmış mütərəqqi islahatlar nəticəsində mümkün oldu.

Ümummilli lider Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə oktyabr ayının 1-i respublikamızda prokurorluq orqanları əməkdaşlarının peşə bayramı günü elan olunmuş, bu əlamətdar hadisə fəaliyyətimizə verilən yüksək qiymətin təcəssümü kimi tarixilik qazanmışdır. Belə ki, mövcudluğuna və fəaliyyət göstərməsinə baxmayaraq, milli prokurorluq orqanlarının yaranması tarixi uzun müddət diqqətdən kənarda qalmış və prokurorluq işçilərinin peşə bayramı təsis edilməmişdir. Prokurorluq işçilərinin peşə bayramının təsis edilməsi prokurorluq orqanlarının formalaşmasında və inkişafında müstəsna rolu olmuş ümummilli lider Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində gerçəkləşmişdir. Peşə bayramı gününün təsis edilməsi prokurorluğa böyük qayğının ifadəsi olmaqla yanaşı, prokurorluq əməkdaşlarının fəaliyyətinin layiqincə dəyərləndirilməsinin təzahürüdür.

Ulu öndər Heydər Əliyev həmçinin 28 noyabr 1998-ci ildə respublikamızda ilk dəfə olaraq prokurorluq orqanlarının yaradılmasının 80 illiyinə həsr olunmuş yubiley tədbirinin yüksək təntənə ilə keçirilməsinə göstəriş vermişdir. Həmin dövlət tədbirində ulu öndər dərin məzmunlu tarixi nitq söyləyərək prokurorluq işçilərinə dəyərli tövsiyələrini verməklə prokurorluq orqanları qarşısında dayanan əsas vəzifələri müəyyən etmişdir. Ulu öndərin prokurorluq peşəsi ilə bağlı vurğuladığı "Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız" sözləri prokurorluq işçilərinin gündəlik həyat devizinə çevrilməklə bizləri daim böyük ruh yüksəkliyi və iftixar hissi ilə öz peşə fəaliyyətimizə daha yüksək tələbkarlıqla və məsuliyyətlə yanaşmağa səfərbər edir.

2000-ci il aprelin 26-da Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər işçiləri ilə tarixi görüş isə Azərbaycan Prokurorluğunun inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Məhz bu görüşdən sonra həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində prokurorluq orqanlarında köklü islahatlar və struktur dəyişiklikləri aparılmış, demokratik mahiyyətdə tamamilə yenidən formalaşdırılmış bu orqanın səmərəli fəaliyyəti üçün qanunverici əsaslar yaradılmışdır. Həmin görüşdə dərin məzmunlu nitq söyləyən ümummilli lider Heydər Əliyev prokurorluq orqanlarının fəaliyyətində əvvəllər yol verilmiş nöqsanların və çatışmazlıqların aradan qaldırılması üçün konkret tapşırıqlar vermişdir. Bunun nəticəsi olaraq prokurorluqda hərtərəfli islahatlara start verilmiş, ulu öndərin proqram xarakterli çıxışından irəli gələn tövsiyələr çərçivəsində görülməsi vacib olan işlərin əsas istiqamətləri müəyyənləşdirilmişdir. Belə ki, ulu öndərin tövsiyə və göstərişlərinə müvafiq olaraq həyata keçirilən tədbirlər sayəsində prokurorluğun demokratik məzmunda yeniləşdirilməsi, neqativ təzahürlərin aradan qaldırılması, müasir standartlar səviyyəsində işləməyə qadir olan kadr korpusunun formalaşdırılması, son nəticədə cinayətkarlığa qarşı mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi işinin zəruri tələblər səviyyəsinə qaldırılması təmin edilmişdir. Prokurorluğun səlahiyyətləri və fəaliyyət istiqamətləri ilə yanaşı onun yeni strukturu hazırlanmış, dövrün tələblərindən irəli gələrək bir sıra yeni idarələr, şöbələr yaradılmışdır.

2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilmiş, bununla da onun hüquq sistemindəki yeri və rolu daha da güclənmişdir. Bu, prokurorluq orqanlarına insan hüquq və azadlıqları sahəsində praktiki fəaliyyətlə yanaşı, qanunyaradıcılığı və vətəndaş quruculuğu prosesində fəal iştirak etmək imkanları yaratmışdır.

Ümumilikdə "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" və digər qanunvericilik aktlarının qəbul edilməsi, normativ sənədlərin təsdiqi prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənməsi prosesinin beynəlxalq standartlara uyğunlaşdırılması baxımından əhəmiyyətli olmuşdur.

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hüquqi dövlət quruculuğu və strateji inkişaf konsepsiyası bu gün də davam etdirilir. Prezident İlham Əliyev tərəfindən ötən 15 ildə həyata keçirilən köklü islahatlar, idarəetmə mexanizminin dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsi, səmərəli dövlət idarəçiliyinin tətbiqi, dövlətin təhlükəsizliyinin və cəmiyyətin sabitliyinin təmin olunması üçün atılan addımlar müstəqilliyimizi daha da möhkəmləndirir. Bütün bunlar həm də inkişafın davamlılığının təmin olunmasına, əmin-amanlığın və insanların sosial rifah halının daha da yüksəlməsinə yol açır.

Dahi öndər Heydər Əliyevin layiqli siyasi davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bütün hüquq-mühafizə orqanlarına, o cümlədən prokurorluğa daim diqqət və qayğı göstərilir, fəaliyyətimizin daha da təkmilləşdirilməsi, əməkdaşlarımızın maddi-sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görülür. Mütəmadi olaraq prokurorluq əməkdaşlarının yüksək dövlət mükafatlarına və ali xüsusi rütbələrə layiq görülməsi, onların sosial-maddi vəziyyətinin yaxşılaşdırılması və prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən tədbirlər fəaliyyətimizin səmərəliliyinin artırılmasında əhəmiyyətli rol oynayır.

Ümumiyyətlə isə, ölkədə hüquqi islahatların zamanın çağırışlarına uyğun olaraq davam etdirilməsi Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Dövlət başçısının hələ 10 il əvvəl – 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yüksəldilməsi məqsədilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" bu dövlət orqanının müasir dövrün yüksək tələbləri səviyyəsində inkişafında xüsusi əhəmiyyətə malik olmuşdur. Azərbaycan Prokurorluğunun tarixində yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşmə dövrünün əsasını qoymuş bu mühüm dövlət sənədinin icrası ilə əlaqədar həyata keçirilmiş tədbirlər nəticəsində hüquqi dövlət quruculuğunda və hüquq sisteminin inkişafında, qanunçuluğun, cəmiyyətin və dövlətin maraqlarının qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsində prokurorluğun rolu artmışdır. Eyni zamanda onun fəaliyyətində şəffaflıq prinsiplərinin rəhbər tutulmasına, müasir elmi-texniki nailiyyətlərdən istifadə edilməklə son informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqinə, prokurorluq orqanlarının işinin onun qarşısında dayanan vəzifələrə və tələblərə uyğun olaraq yüksək səviyyədə qurulmasına, ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində və dövlət ittihamının müdafiəsində peşəkarlığın artırılmasına, vətəndaşların müraciətlərinə daha həssas və diqqətli yanaşılmasına nail olunmuşdur.

Beləliklə, zamanın ruhuna, yeni reallıqlara uyğun olaraq həyata keçirilən hüquqi islahatlar nəticəsində prokurorluq orqanlarının statusunda, səlahiyyətlərində və fəaliyyətində köklü dəyişikliklər baş vermiş, kadr

siyasətində ciddi dönüşün yaradılması və şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Prokurorluq orqanlarında sağlam iş mühitinin yaradılması üçün ciddi işlər görülmüş, dövlətçilik, qanunçuluq prinsipləri ön plana çəkilmiş, cəmiyyətimizdə prokurorluğa ictimai etimad artmış və onun nüfuzu yüksəlmişdir. Bir sözlə, prokurorluq tam yenidən qurulmaqla müasir dövrün tələblərinə cavab verən, fəaliyyətində qanunçuluq, dövlətçilik, siyasi bitərəflilik, obyektivlik və qərəzsizlik prinsiplərinə əsaslanan demokratik məzmunlu bir orqana çevrilib. Prokurorluq orqanlarında yeniləşmə prosesi indi də gedir, gənc kadrlar işə qəbul edilir, vəzifədə irəli çəkilir, yeni iş ruhu, canlanma və inkişaf hiss olunur.

**Bakı şəhər prokurorluğu cinayətkarlıqla mübarizədə bundan sonra da əzmkar olacaq**

Ölkəmizdə həyata keçirilən hüquqi islahatların nəticəsi olaraq Bakı Şəhər Prokurorluğu da inkişaf yolu keçmiş, qarşısında dayanan vəzifələrin yerinə yetirilməsi istiqamətində uğurlar əldə etmişdir. Ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq, Azərbaycan Respublikası Baş prokurorunun nəzarəti ilə həyata keçirilən köklü islahatlar Azərbaycan Prokurorluğunu və onun əsas tərkib hissələrindən olan Bakı Şəhər Prokurorluğunu insan hüquq və azadlıqlarının layiqli qarantına çevirən etibarlı dövlət orqanı kimi formalaşdırmışdır. Hazırda Bakı Prokurorluğu və ona tabe rayon prokurorluqları Azərbaycan Konstitusiyasını, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununu və digər qanunvericilik aktlarını, Baş prokurorun əmr, sərəncam və göstərişlərini rəhbər tutaraq Bakı şəhərində cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməkdədir.

Bunun nəticəsidir ki, 2018-ci ilin birinci yarısında paytaxtın prokurorluq orqanlarının keçirdiyi istintaq tədbirləri nəticəsində qeyri-aşkar şəraitdə törədilmiş bir çox cinayətlərin, o cümlədən qəsdən adamöldürmə, qəsdən adam öldürməyə cəhd cinayətlərinin, quldurluq, bağlı qalmış ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin açılması, narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyədən çıxarılması və bir sıra digər qanun pozuntularının qarşısının alınması təmin edilib.

Ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin prioritetlərinə uyğun olaraq prokurorluq orqanlarında əhalinin müraciətlərinə qayğı ilə yanaşılaraq vətəndaşların qəbulu məsələlərinə xüsusi diqqət göstərilir. Bu məsələ Bakı Şəhər Prokurorluğunun daim diqqətindədir. Bakı Şəhər Prokurorluğunda, eləcə də tabe rayon prokurorluqlarında vətəndaşların qəbulu işinə xüsusi əhəmiyyətlə yanaşılaraq yerlərdə və şəhər prokurorluğunda vətəndaşların mütəmadi olaraq prokurorluğun rəhbərliyi tərəfindən qəbul edilməsi, mahiyyətinə görə xüsusi əhəmiyyət kəsb edən müraciətlərin nəzarətə götürülməklə qısa müddət ərzində araşdırılması təmin edilməkdədir.

Bütövlükdə Bakı Şəhər Prokurorluğu cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparan, bu sahədə daim profilaktik tədbirlər görən bir orqan kimi öz vəzifələrinin öhdəsindən layiqincə gəlmək üçün səlahiyyətləri çərçivəsində bütün addımları atır.

**Qarşımızda mühüm vəzifələr dayanır**

2018-ci ilin birinci yarımilində ölkəmizdə bir sıra uğurlu nəticələr əldə edilmişdir. Təbii ki, bunlardan ən mühümü aprel ayında keçirilmiş prezident seçkiləridir. Bu seçkidə Azərbaycan xalqı Heydər Əliyev siyasi kursunun davamçısı cənab İlham Əliyevə səs verməklə öz layiqli seçimini etmişdir.

Eyni zamanda 2018-ci il həm də müsbət sosial-iqtisadi göstəricilərlə əlamətdardır. Bu mənada Prezidentin rəhbərliyi altında uğurla həyata keçirilən siyasi, sosial-iqtisadi, hüquqi islahatların və sabitliyin qorunub saxlanılması hüquq-mühafizə orqanlarının qarşısında da mühüm vəzifələr qoyur. Bu mühüm vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar Bakı Şəhər Prokurorluğu qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində bundan sonra da fəal mövqe tutmalı, dövlətə və dövlətçilik ideyalarına daha sədaqətlə xidmət göstərməlidir. Bizə göstərilən etimadı doğrultmaq üçün var gücümüzlə çalışmalı və işimizlə nümunə olmalıyıq. Bunun üçün hər bir rayon prokuroru, rayon prokurorluqlarının, eləcə də şəhər prokurorluğunun əməkdaşları məsuliyyətlərini dərk edirlər.

Bu il bir çox dövlət qurumları kimi, prokurorluq orqanlarının da yaranmasının 100-cü ildönümü tamam olur. Hər bir prokurorluq əməkdaşı üçün əlamətdar, həm də kifayət qədər məsuliyyətli olan bu dövrdə də qarşımızda mühüm vəzifələr dayanır. Çünki qarşıdan yubileyimizin gəlməsi bütün prokurorluq orqanlarını öz fəaliyyətlərini daha səmərəli təşkil etməklə, daha böyük əzm və vicdanla işləməklə indiyədək əldə edilən də yüksək nəticələr və uğurlar qazanmağa sövq edir. İnanıram ki, ölkənin bütün prokurorluq orqanları, o cümlədən Bakı Şəhər Prokurorluğu yubiley ili olan 2018-ci ili də nailiyyətlərlə başa vuracaq.

**İlqar Abbasov,**
**Bakı şəhər prokuroru**
**III dərəcəli dövlət ədliyyə müşaviri**
«Azərbaycan" qəzeti, 26 sentyabr 2018-ci il

# Azərbaycan Prokurorluğu 100 illik şanlı tarixi olan dövlət qurumudur

Tarixi mənbələrdən məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti 28 may 1918-ci ildə İstiqlal bəyannaməsini qəbul edərək müstəqilliyini elan etməklə Şərqdə ilk demokratik dövlətin əsaslarını yaratmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu sahəsində həyata keçirdiyi ən vacib məsələlərdən biri hüquq sisteminin qurulması və məhkəmə-istintaq orqanlarının formalaşdırılması olmuşdur. Azərbaycan hökuməti 1918-ci ilin sentyabr ayında Bakıya köçdükdən sonra məhkəmə-istintaq orqanlarında islahatların aparılması sürətləndirilmişdir.

Azərbaycan Demokratik Respublikasının fəaliyyət göstərdiyi cəmi 23 ay ərzində baş vermiş ən mühüm hadisələrdən biri də Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində milli prokurorluq orqanlarının yaradılaraq fəaliyyətə başlaması idi. 1918-ci ilin noyabr ayının 14-də Azərbaycan Demokratik Respublikasının Nazirlər Şurası tərəfindən təsdiq olunmuş "Azərbaycan Məhkəmə palatası haqqında" Əsasnaməyə görə Azərbaycan Məhkəmə Palatası yanında prokuror nəzarəti, cinayət prosesində ittihamın müdafiə edilməsi və məhkəmə orqanlarında qanunların tətbiqinə nəzarət funksiyasının həyata keçirilməsi hökumət tərəfindən təyin olunmuş prokuror və onun iki müavininə həvalə edilmişdir. Prokuror nəzarətini Baş prokuror həyata keçirmişdir. Baş prokurorun funksiyalarını Ədliyyə naziri icra etmişdir.

Ölkənin Parlamenti tərəfindən 1919-cu ilin aprel ayının 14-də qəbul edilmiş "Azərbaycan Respublikasında Hərbi-məhkəmə hissəsinin quruluşu haqqında Müvəqqəti Əsasnamə"yə uyğun olaraq Azərbaycan Hərbi Məhkəməsinin idarəçiliyi hərbi nazirlik tərəfindən həyata keçirilmişdir. Eyni zamanda Azərbaycan Hərbi Məhkəməsinə prokuror nəzarəti Hərbi nazirin əmri ilə təyin olunmuş Hərbi Məhkəmənin prokuroruna həvalə edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin Məhkəmə palatasında, Bakı və Gəncə dairə məhkəmələrinin tərkibində qərarlaşmış prokurorluq orqanları olduqca mürəkkəb və ağır şəraitdə öz səlahiyyətləri çərçivəsində səmərəli fəaliyyət göstərmişlər. 1920-ci ilin aprel ayının 28-də XI Qızıl ordunun müdaxiləsi nəticəsində Azərbaycan Demokratik Respublikası süqut etdikdən sonra Azərbaycan İnqilab Komitəsinin "Xalq məhkəməsi haqqında" 12 may 1920-ci il tarixli dekretinə əsasən Cümhuriyyətin dövründə yaradılmış digər dövlət orqanları ilə bərabər, prokurorluq və istintaq orqanları da ləğv edilmişdir.

İlk dövrlərdə prokurorluq orqanları olmadığı üçün qanunların icrasına nəzarət Xalq Ədliyyə Komissarlığı, İnqilab Komitələri, Fəhlə-kəndli müfəttişlikləri və digər hakimiyyət orqanları tərəfindən həyata keçirilmişdir. Lakin həmin dövrdə dövlət orqanlarının fəaliyyətinə nəzarət funksiyasını həyata keçirən orqanın yaradılmasına zərurət olduğu üçün Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin "Azərbaycan SSR-nin dövlət prokurorluğu haqqında" 11 iyul 1922-ci il tarixli dekreti ilə Azərbaycan Sovet Sosialist Respublikasında sovet prokurorluğunun əsası qoyulmuşdur. 22 iyul 1922-ci ildə təsdiq edilmiş "Xalq Ədliyyə Komissarlığı haqqında Əsasnamə" ilə prokurorluğa xalq məhkəmələrinin hökm və qərarlarına nəzarət qaydasında baxmaq və yeni açılmış hallar üzrə işlərin təzələməsi hüququ verilmişdir. 6 iyul 1927-ci ildə Azərbaycan SSR MİK və XKS tərəfindən təsdiq edilmiş "Məhkəmə quruluşu haqqında" Əsasnaməyə görə Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının tərkibində Respublika Prokurorluğu idarəsi yaradılmışdır. Ərazilər üzrə mahal prokurorluqlarının əvəzində qəza və şəhər prokurorluqları yaradılmışdır. 1930-cu ilin avqust ayının 8-də Azərbaycan SSR MİK və XKS-nin qərarı ilə təsdiq edilmiş "Azərbaycan SSR prokurorluğu haqqında" Əsasnaməyə əsasən prokurorluq birbaşa Azərbaycan Mərkəzi İcrayyə Komitəsinə tabe edilmişdir. 1936-cı ildən başlayaraq SSRİ dövlətində prokurorluq sisteminin daha ciddi mərkəzləşməsi prosesi həyata keçirilmişdir.

SSR İttifaqı MİK və XKS-nin 20 iyul 1936-cı il tarixli "SSR İttifaqı Xalq Ədliyyə Komissarlığının yaradılması haqqında" qərarına əsasən Azərbaycan SSR-nin prokurorluq və istintaq orqanları xalq ədliyyə komissarlığı strukturundan çıxarılaraq birbaşa SSR İttifaqı Prokurorluğunun tabeliyinə verilmişdir. SSRİ Ali Sovetinin 1979-cu ilin noyabr ayının 30-da keçirilmiş sessiyasında "SSRİ prokurorluğu haqqında" qanun qəbul edilmişdir.

1991-ci ilin oktyabr ayının 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktının qəbul olunmasına baxmayaraq 1993-cü ilin ikinci yarısınadək olan dövrdə müstəqilliyin möhkəmləndirilməsi, Azərbaycan Respublikasının

müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün zəruri olan nəzərəçarpan addımlar atılmamışdır. Həmin dövrdə ölkəni ağuşuna almış daxili didişmələr, xaos, özbaşınalıq, hakimiyyətsizlik dövlətin iqtisadi və siyasi əsaslarını laxlatmış, dövlət orqanlarının fəaliyyəti iflic olmuş və hüquq sisteminə böyük zərbə vurulmuşdur. Xalqın təkidli tələbi ilə ulu öndərimiz Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycandakı özbaşınalığa, siyasi hakimiyyətsizliyə həmişəlik son qoymaqla Azərbaycan dövlətinin müstəqilliyinin yenidən süquta uğradılmasının qarşısını almaqla bərabər Azərbaycanda mərkəzi hakimiyyət qurulmuş, ayrı-ayrı ictimai münasibətləri nizama salan qanunlar və digər normativ aktlar qəbul edilmiş, sosial-iqtisadi, ictimai-siyasi, məhkəmə-hüquq islahatları həyata keçirilməyə başlanmışdır.

Ulu öndərin bilavasitə rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin noyabr ayının 12-də ümumxalq səsverməsi – referendumla qəbul edilmiş, Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malik olan və qanunvericilik sisteminin əsasını təşkil edən Azərbaycan Respublikasının Konstitusiyası respublikamızda məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə ciddi zəmin yaratmışdır. 158 maddədən ibarət Əsas Qanunda prokurorluğun məhkəmə hakimiyyəti sistemində yerini, hüquqi statusunu, təşkili qaydasını, səlahiyyətlərini, eləcə də Azərbaycan Respublikasının Baş prokurorunun, onun müavinlərinin, ərazi və ixtisaslaşmış prokurorların vəzifəyə təyin edilməsi və vəzifədən azad edilməsinin qaydalarını müəyyən edən və prokurorluq orqanlarının fəaliyyətinin müasirləşdirilməsinə təminat yaradan 133-cü, cinayət məhkəmə icraatında Azərbaycan Respublikası Prokurorluğunun tərəf kimi iştirakını müəyyən edən 125-ci maddələrinin yer alması prokurorluq orqanlarının dövlət və cəmiyyət üçün nə qədər vacib dövlət təsisatı olmasının bariz nümunəsidir.

Milli prokurorluq orqanlarının qanunun aliliyinin təmin edilməsi, insan, vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi, kadr tərkibi və rəhbər heyətinin yüksək peşəkarlığı, mənəvi və iş keyfiyyətləri ilə seçilən əməkdaşlar hesabına yenidən kompleksləşdirilməsi ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə aparılmış yeni məzmunlu islahatlar nəticəsində mümkün olmuşdur. Ulu öndər Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə oktyabr ayının 1-i Prokurorluq işçilərinin peşə bayramı günü elan olunmuşdur.

Vətəndaş cəmiyyətində qanunun aliliyi prinsipinin işlək modelinin yaradılması üçün qətiyyətli addımlar atması ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətində yenilik deyildi. O, cəmiyyətdə qanunun aliliyi prinsipinin bərpa olunması üçün göstərdiyi qətiyyətli mövqeyi ilə keçmiş SSRİ məkanında böyük nüfuz qazanmış, onun səyləri nəticəsində hüquq-mühafizə orqanlarında sağlam mənəvi mühitin formalaşması istiqamətində ciddi addımlar atılmış, cinayətkarlığa, xüsusilə rüşvətxorluğa və korrupsiyaya qarşı genişhəcmli mübarizə təşkil edilmiş və onun “Qoy ədalət zəfər çalsın!” çağırışı cinayətkarlığa qarşı mübarizənin devizinə çevrilmişdir.

Ulu öndərin Azərbaycan Prokurorluğunun tarixində yeni mərhələnin başlanğıcını qoymuş aprel müşavirəsindəki proqram xarakterli çıxışından sonra Baş prokuror Zakir Qaralovun rəhbərliyi altında prokurorluq orqanlarında əsaslı islahatlar, struktur dəyişiklikləri aparılmış, dövrün tələbinə uyğun olan qurumlar yaradılmış, prokurorluğun fəaliyyətində yol verilmiş nöqsan və çatışmazlıqlar aradan qaldırılmış, dərin zəka və gərgin əməyin nəticəsində prokurorluqda fəaliyyət üçün zəruri hüquqi baza və Prokurorluğun normal fəaliyyət göstərməsi üçün əlverişli mühit yaradılmış, sözün əsl mənasında prokurorluq tamamilə yenidən qurulmuş və qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi, fiziki və hüquqi şəxslərin hüquqlarına əməl və hörmət edilməsi, obyektivlik, qərəzsizlik, faktlara əsaslanma, vahidlik, mərkəzləşmə, siyasi bitərəflik kimi fundamental prinsiplər əsasında fəaliyyət göstərən sivil, demokratik dövlət təsisatına çevrilmişdir.

1993-cü ilin ikinci yarısından etibarən start götürülmüş məhkəmə-hüquq islahatlarının tərkib hissəsi kimi beynəlxalq standartlara və demokratik prinsiplərə, milli dövlətçilik ənənələrinə uyğun hazırlanmış və müasir demokratik cəmiyyətdə məhkəmə hakimiyyəti sisteminə daxil olmaqla ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşmiş orqan kimi Azərbaycan Prokurorluğunun yerini, fəaliyyət istiqamətlərini, fəaliyyətinin əsas prinsiplərini, beynəlxalq əlaqələrini, prokurorluğun cinayət, mülki mühakimə, inzibati icraatında, cəzanın məqsədinə nail olunmasında iştirakını müəyyən edən “Prokurorluq haqqında”, “Prokurorluqda qulluq keçmə haqqında”, “Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında”, “Prokurorluğun rəsmi emblemi haqqında”, “Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Polis haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında” və digər qanunlar, Cinayət, Cinayət-Prosessual, Cəzaların icrası, Mülki-Prosessual, İnzibati Xətalar

məcəllələri qəbul edilmiş, həmçinin bu qanunlarda nəzərdə tutulmuş istiqamətlər üzrə təşkilati və sahəvi əmr, təlimat və qaydalar hazırlanaraq prokurorluq əməkdaşlarının istifadəsinə verilmişdir.

Etiraf etməliyik ki, ötən dövr ərzində prokurorluq orqanlarının hüquqi dövlət quruculuğunda, vətəndaş cəmiyyətinin formalaşdırılmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusilə bir sıra dövlət çevrilişi cəhdlərində iştirak etmiş və digər ağır cinayətlər törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb olunaraq barələrində ədalətli məhkəmə hökmlərinin çıxarılmasında, insan, vətəndaş hüquq və azadlıqlarının qorunmasında danılmaz xidmətləri olmuşdur. Prokurorluq cinayətkarlığa qarşı mübarizədə prinsipial və amansızdır.

19 iyun 2001-ci il tarixli Fərmanla təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq hər il prokurorluğa qəbul şəffaf prosudurlarla həyata keçirilir, bu da ölkəmizdə aparılan dövlət gənclər siyasəti çərçivəsində Azərbaycan Prokurorluğunun kadr tərkibinin yeniləşməsini və kadr potensialının gücləndirilməsini təmin etməkdədir. Elə bunun nəticəsidir ki, test üzrə müsabiqə yolu ilə işə qəbul olunan gənclər prokurorluq işçilərinin 67%-ni təşkil edir.

2002-ci ilin sentyabr ayının 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilmiş, bununla da onun hüquq sistemindəki yeri və rolu daha da güclənmişdir. Təsadüfi deyil ki, prokurorluğun qanunvericilik təşəbbüsü hüququ əsasında çox sayda qanunların ayrı-ayrı normalarına Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən şərhlər verilməklə həmin normaların Konstitusiyaya uyğunlaşdırılması təmin edilmişdir.

Ulu öndərimiz Heydər Əliyev siyasətinin və onun strateji inkişaf konsepsiyasının hərtərəfli reallaşdırılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən müasir məzmunlu dövlətçilik siyasəti nəticəsində bu gün Azərbaycanda dünyəvi, hüquqi və demokratik dövlət qurulmuş, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi üçün hərtərəfli təminatlar yaradan vətəndaş cəmiyyəti formalaşdırılmış, davamlı sosial-iqtisadi inkişaf təmin edilmiş, xalqımızın maddi rifahı yaxşılaşdırılmış və ictimai həyatın bütün sahələrində, o cümlədən məhkəmə-hüquq sistemində islahatlar və yeniləşmə prosesləri dərinləşmişdir.

Korrupsiya ilə əlaqədar cinayətlərin ictimai təhlükəlilik dərəcəsinin yüksək olması və bu növ cinayətlərin istintaqının aparılmasının yüksək peşəkarlıq tələb etməsi, həmçinin onlara qarşı mübarizənin üsul və vasitələrinin xüsusi məzmun kəsb etməsi, həmçinin, respublikamızın qoşulduğu BMT-nin "Korrupsiya əleyhinə" Konvensiyasının 36-cı maddəsinin iştirakçı dövlətlərin öz hüquq sistemlərinin əsas prinsiplərinə uyğun olaraq korrupsiya ilə mübarizə aparmaq üçün ixtisaslaşmış orqanların mövcudluğunun təmin edilməsi barədə öhdəliyinin icrası qaydasında Azərbaycan Respublikası Prezidentinin 2004-cü ilin 3 mart tarixli "Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" Sərəncamı əsasında Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi yaradılmışdır.

"Prokurorluq haqqında" və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunlarında dəyişikliklər edilməsi haqqında 14 fevral 2014-cü il tarixli qanunlar və həmin qanunların tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 17 mart 2014-cü il tarixli Fərman və Sərəncamları ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin adı dəyişdirilərək Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi adlandırılmışdır.

Korrupsiya ilə mübarizədə ictimaiyyətin iştirakını təmin etmək, belə neqativ hallarla üzləşmiş şəxslərin ixtisaslaşmış orqana birbaşa və maneəsiz məlumat vermək imkanlarının yaradılmasını, bu müraciətlərə təxirəsalınmadan baxılaraq vaxtında qanuni tədbirlər görülməsini təmin etmək məqsədi ilə Baş Prokurorluq üzrə 2 mart 2011-ci il tarixli əmrlə Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin nəzdində "161" nömrəli "Qaynar xətt" əlaqə mərkəzi yaradılmışdır.

18 mart 2011-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Əməliyyat-axtarış fəaliyyəti haqqında" və "Prokurorluq haqqında" qanunlara dəyişikliklər edilərək MDB məkanında, habelə Azərbaycan Prokurorluğunun tarixində ilk dəfə olaraq Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətləri verilmişdir.

Ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycan Prokurorluğuna göstərilmiş diqqət və qayğı bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prokurorluqda sistemli qaydada aparılan

müasirləşmə prosesi dövlət tərəfindən daima dəstəklənir və qiymətləndirilir.

27 sentyabr 2008-ci il tarixli Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın qəbul edilməsi Prezident cənab İlham Əliyevin Azərbaycan Prokurorluğuna və onun kollektivinə göstərdiyi yüksək diqqət və qayğının nəticəsidir. Qeyd edilməlidir ki, Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin müəyyən ardıcıllıqla həyata keçirilməsi prokurorluq orqanlarının dinamik inkişafının təmin edilməsi, fəaliyyətinin demokratikləşdirilməsi, kadr potensialının yaxşılaşdırılması, prokurorluq işçilərinin peşəkarlığının yüksək səviyyəyə qaldırılması, prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yaxşılaşdırılması üçün ciddi zəmin yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikası Prokurorluğunun 90 illiyi münasibəti ilə prokurorluğun kollektivinə ünvanladığı təbrik məktubunda prokurorluqda görülən işləri yüksək qiymətləndirmişdir: "Son illər prokurorluqda sağlam iş mühitinin yaradılması üçün ciddi işlər görülmüş, dövlətçilik, qanunçuluq prinsipləri ön plana çəkilmiş, cəmiyyətimizdə prokurorluğa ictimai etimad artmış və onun nüfuzu yüksəlmişdir. Prokurorluq orqanlarında yeniləşmə prosesi gedir, gənc kadrlar işə qəbul edilir, vəzifədə irəli çəkilir, yeni iş ruhu, canlanma və inkişaf hiss olunur. Bu proseslər dövlət tərəfindən dəstəklənir və bundan sonra da dəstəklənəcəkdir. Prokurorlar demokratik cəmiyyətdə prokurorluğa xas olan funksiyaları yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayırlar".

Azərbaycan Respublikası Prokurorluğu sistemində informasiya-kommunikasiya sisteminin, "Elektron hökumət" layihəsi çərçivəsində prokurorluq orqanlarında elektron sənəd dövriyyəsini təmin edəcək şəbəkə yaradılmışdır ki, bu da istintaq edilən cinayət işlərinin elektron variantlarının hazırlanması istiqamətində zəruri tədbirlərin görülməsinə zəmin yaratmışdır.

"Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında" 1 noyabr 2010-cu il tarixli əmrin tələblərinə uyğun olaraq Baş Prokurorluqda "Qaynar xətt" əlaqə mərkəzi və "Azərbaycan Prokurorluğunun veb saytı" təşkil edilmişdir ki, bu da vətəndaşların internet şəbəkəsi vasitəsilə bu sahədə müəyyən məlumatlarla tanış olmaları üçün mühüm şərait yaratmışdır.

Prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Baş Prokurorluqda prokurorluqda tədrisin beynəlxalq standartlara uyğun təşkil edilməsi, elmi tədqiqatların aparılması məqsədilə hərtərəfli elmi-texniki bazaya və kadr potensialına malik olan Elm-Tədris Mərkəzi, Hüquqi təminat idarəsi, İnformasiya-kommunikasiya texnologiyaları idarəsi, ağır və xüsusilə ağır cinayətlərin açılması və istintaqı zamanı prokuror-kriminalistlərin rolunun artırılması məqsədilə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi və Bakı şəhər prokurorluğunun İstintaq idarəsinin tərkibində Kriminalistika şöbələri, ədalət mühakiməsinin həyata keçirilməsində prokurorların iştirakının səmərəliliyinin artırılması məqsədilə Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsi, prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin müasir tələblər səviyyəsində təşkili üçün Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin Vətəndaşların qəbulu şöbəsi, prokurorluq orqanlarının beynəlxalq əlaqələrinin yeni keyfiyyət müstəvisində qurulması məqsədilə Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin Ekstradisiya və hüquqi yardım şöbəsi və şöbə səlahiyyətli Beynəlxalq hüquqi əməkdaşlıq və protokol xidməti yaradılmışdır. Bundan başqa, Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin Kriminalistika şöbəsində prokurorluq orqanlarında istintaq edilən şəxsiyyət əleyhinə ağır və xüsusilə ağır cinayətlər, o cümlədən qəsdən adamöldürmə və qəsdən adamöldürməyə cəhd cinayətləri üzrə vahid məlumat bazası yaradılmışdır.

Azərbaycanın milli prokurorluğu 100 illik çətin, lakin şərəfli inkişaf yolu keçmiş, bu gün özünün parlaq dövrünü yaşayır.

Son olaraq Azərbaycan Prokurorluğunun tarixi, cəmiyyətdəki rolu, dövlətçiliyə münasibəti ilə bağlı fikirlərimi ulu öndər Heydər Əliyevin bu sözləri ilə yekunlaşdırmaq istəyirəm: "Azərbaycan Prokurorluğu bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olaraq, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və Azərbaycanda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini göstərəcəkdir".

**Ramazan Hadıyev,**
**Füzuli rayon prokuroru**
**baş ədliyyə müşaviri**
"Respublika" qəzeti, 30 sentyabr 2018-ci il

# Prokurorluq orqanlarına hərtərəfli diqqət və qayğı

1991-ci ildə Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra respublikamız yeni dövrə qədəm qoymuşdur. Lakin müstəqilliyimizin ilk illərində AXC (AXCP) hakimiyyəti dövründə ölkəni bürümüş daxili didişmələr, anarxiya və xaos dövlət quruculuğuna böyük zərbə vurmuşdur. Xalqın israrlı tələbi ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə xilasedici qayıdışından sonra Azərbaycanda özbaşınalığa, siyasi hakimiyyətsizliyə birdəfəlik son qoyulmuşdur.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra prokurorluq orqanlarının da fəaliyyətində yeni bir dövr başlanmışdır. Bu dövrdə müstəqil dövlətçiliyimizin əleyhinə olan cinayətlər, görkəmli ictimai və dövlət xadimlərinə qarşı törədilən terror aktları, dövlət əmlakının mənimsənilməsi, bank-maliyyə sistemində baş vermiş ağır cinayət hadisələri, o cümlədən sadə vətəndaşlarımızın əmanətlərinin talan edilməsi kimi ağır cinayət hadisələri məhz prokurorluq orqanlarının əməkdaşları tərəfindən peşəkarcasına istintaq edilmiş, təqsirkar şəxslər layiqli cəzalarını almışlar. Bu dövrdə Azərbaycanda 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət və hərbi çevrilişlərinə cəhdlərin qarşısı alınmışdır. Həmin hadisələrlə bağlı cinayət işlərinin istintaqının aparılmasında prokurorluğun bir qrup əməkdaşı xüsusilə fərqlənmişdir.

12 noyabr 1995-ci il Konstitusiyası ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikası Baş Prokurorluğunun tabeçiliyinə verilməsinin təsbiti ilə onu vahid mərkəzləşdirilmiş orqan kimi tanımış və statusunu müəyyənləşdirmişdir. Bu statusa uyğun olaraq "Prokurorluq haqqında" 7 dekabr 1999-cu il tarixli Qanun, qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət etmək, cinayət işlərinin istintaqını aparmaq və ibtidai istintaqa prosessual rəhbərlik, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icra və tətbiqinə nəzarət, cinayət işlərinə baxılmasında dövlət ittihamının müdafiəsi, məhkəmələr tərəfindən təyin olunmuş cəzaların qanuna uyğunluqlarına nəzarət etmək kimi məsələlərini prokurorluğun fəaliyyət istiqamətlərinə aid etmişdir. 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən prokurorluğa həm də qanunvericilik təşəbbüsü hüququ verilmişdir.

Müstəqillik dövründə Azərbaycan Respublikasının Prokurorluğu ölkə rəhbəri ulu öndər Heydər Əliyevin daimi diqqət mərkəzində olmuşdur. Prokurorluğun fəaliyyətinin hüquqi əsasını təşkil edən normativ aktlar, o cümlədən "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında" qanunlar dövlət başçısının təşəbbüsü ilə qəbul olunmuş və "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi qaydaları haqqında" Əsasnamə onun sərəncamı ilə təsdiq edilmişdir. "Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 2002-ci il 8 oktyabr tarixli sərəncam hörmətli Prezidentimizin prokurorluğa və prokurorluq işçilərinə göstərdiyi daimi qayğının parlaq bir təzahürüdür.

"Mən prokurorluqda işləyən insanların əksəriyyətini sədaqətli və peşəkar işçi hesab edirəm. Təbiidir ki, belə adamlara etimad göstərmək, etibar etmək lazımdır...", – bu sözlər ulu öndərimizin 26 aprel 2000-ci il tarixdə Azər-

baycan Respublikasının prokurorluq orqanlarının rəhbər işçiləri ilə görüşü zamanı söylədiyi proqram xarakterli nitqindən götürülmüşdür.

Dahi rəhbərimiz Heydər Əliyevin 28 noyabr 1998-ci il tarixli "Prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncağında isə prokurorluq orqanlarına yüksək qiymət verərək demişdir: "Azərbaycan Prezidenti kimi mən Azərbaycan prokurorluğuna inanıram, güvənirəm və arxalanıram".

Bu sözlər prokurorluğun tarixinə bir qızıl hərflərlə yazılmışdır. Bu kəlamlar hər yerdə və hər zaman prokurorluq işçilərinin ruh mənbəyi olmuşdur.

Prokurorluq həmişə və xüsusilə müstəqillik əldə olunduğu ağır illərdə ölkədə qanunun aliliyini və əmin-amanlığı layiqincə təmin etməyə nail olmuşdur.

Mən də fəxr edirəm ki, prokurorluqda qulluq etdiyim 35 ilin 18 ili ulu öndərimiz Heydər Əliyevin fəaliyyəti dövrünə təsadüf edir. Onun apardığı konfranslarda, plenumlarda, yığıncaqlarda, bəzi hallarda çıxışlarının iştirakçısı olmuşam. İş prosesində qarşıma çıxan ciddi maneələrlə əlaqədar onunla üç dəfə görüşmüşəm.

Təvazökarlıqdan uzaq olsa da səriştəli prokurorluq işçisi kimi təəssüratım odur ki, bu müqəddəs bir ocaqdır. Hər yerdən ümidi kəsilən şəxs prokurorluğa müraciət edir. Belə halda o bilir ki, şikayəti tam, ətraflı və obyektiv həll olunacaqdır.

Azərbaycan prokurorluğu orqanlarının əsas vəzifəsi ondan ibarətdir ki, digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, dövlət müstəqilliyimizin, demokratik hüquq və azadlıqların etibarlı müdafiəsi üçün zəruri tədbirlərin vaxtında həyata keçirilsin.

Ulu öndərimiz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlanmasını əsas tutaraq hər il oktyabr ayının 1-ni Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli sərəncam imzalamışdır.

Ona görə də Azərbaycan Respublikası prokurorluğu orqanlarının bütün əməkdaşları, təqaüddə olan veteranlar və ölkəmizin hüquq ictimaiyyəti Azərbaycan Respublikası Prezidentinin həmin sərəncamına müvafiq olaraq "Prokurorluq işçilərinin peşə bayramı günü"nü və Azərbaycan prokurorluğunun 100 illik yubileyini qeyd etməyə hazırlaşırlar.

Çox sevindirici haldır ki, Heydər Əliyev ideyalarının, onun müdrik dövlətçilik siyasətinin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də prokurorluq orqanlarına hərtərəfli qayğı və diqqət göstərilir, mühüm dövlət təsisatlarından biri kimi onun normal fəaliyyəti üçün zəruri təminatlar yaradılması istiqamətində məqsədyönlü işlər görülür.

Azərbaycan dövləti müstəqillik əldə etdikdən sonra ulu öndər Heydər Əliyev tərəfindən çox təcrübəli, istedadlı, təşkilatçı hüquqşünas olan Zakir Qaralovu respublikanın Baş prokuroru təyin etmişdir. O, ona göstərilən etimadı doğruldaraq hazırda da iş fəaliyyətini müvəffəqiyyətlə davam etdirir.

Biz veteranlar onun şahidiyik ki, Zakir Qaralov prokurorluq orqanlarında ciddi islahatlar aparmış, nizam-intizamı möhkəmləndirmiş, müstəntiqlərin iş şəraitini yaxşılaşdırmış, gənc hüquqşünasların hesabına kadrların tərkibini tamamilə yeniləşdirmiş və prokurorluqda sağlam mühit yaratmışdır. Bu işdə ona daha böyük uğurlar diləyirik.

**Cahangir Nəsirov,**
**Prokurorluğun veteranı**
"Respublika" qəzeti, 25 sentyabr 2018-ci il